ŞEİRİMİN DOĞUM GÜNÜ

Bu gün şeirin dünyasıdı,
təptəzə şeirim doğulub,
O şərəfə süfrə açıb
sözdən ziyafət verirəm.

Sözsüz dünya lal-kar olar,
yer çevrilər cəhənnəmə,
Qəlbimin hər bucağında
sizə bir cənnət verirəm.

Yer üzünün rəssamıyam,
fırça mənim əlimdədir,
Hər sözə bir naxış vurub
təzə bir zinət verirəm.

Arı ilə dost olmağım
bu gün verib bəhrəsini,
Hər sözümə bal qatılıb,
hər kəsə nemət verirəm.

Mənim şeirim gülüstandı,
hər çiçəkdən dərmək olar,
Kim nə dərsə halalıdır,
halal bir nemət verirəm.

Təzə ruha, təzə səsə
əl qaldırıb amin deyin,
Bu gün candan can ayrılıb,
könüldən sərvət verirəm.

Qəbul etsin dəvətimi,
unutmasın söhbətimi,
Gələn məni bağışlasın,
bir azca zəhmət verirəm.

Safdı ruhum, safdı eşqim,
nəfəsim də saf qalacaq,
Mən də şeirin dünyasına
bu cür təravət verirəm.

Ölüm haqdı, Zəlimxan da
bu dünyadan köçüb gedər,
Şeirim könül əmanəti,
sizə əmanət verirəm.

2011, 13 fevral

BİZİM ÇƏKDİYİMİZ TƏZƏ DƏRD DEYİL

Dərd başa vuranda öz qapazını,
Ah qopub içərdən, sinədən gəlir.
Ürəyi ağrıdan çox gözəl bilir,
Nəmli kirpiklərə su nədən gəlir.

Paklıq da, saflıq da dağda qarındı,
Xəzinə ellərin, obalarındı.
Dastanlar dünyası babalarındı,
Nağıllar dünyası nənədən gəlir.

Dərdin meydanından qaçan mərd deyil,
Kim duruş gətirsə o, namərd deyil.
Bizim çəkdiyimiz təzə dərd deyil,
Kökü lap qədimdən, binədən gəlir.

2007, 3 fevral

HEYİF

Dünyanın ən ətirli
gülütək sevdim səni,
Heyif, hansı bağçada
solmamış bir gül qaldı.

Alışan ocaq kimi
bağrıma basdım səni,
Heyif, həmin ocaqdan
bircə ovuc kül qaldı.

Bütün sevdiklərim
qara torpağın malı,
Nə sevilən baxışlar,
nə sevən könül qaldı.

2007, 28 fevral

KÖHNƏ HAVALAR

Ruhumda üzüntü, qəlbimdə tələş,
Çiy qalır, içimdə bişmir bu hava.
Məni oynamağa çağırma, qardaş,
Mənim sümüyümə düşmür bu hava.

Təzə uşaqların havasıdı bu,
Köhnə kişilərin havası deyil.
Başqadı içimi yandıran arzu,
Davam tək qədimlik davası deyil.

Qolu da, qıçı da oynatmaq olar,
Bu hava ruhumu oynada bilmir.
Qızmış kəlləsəri qaynatmaq olar,
Bu hava içimi qaynada bilmir.

Oğulsan, səbr eylə, döz bu hay-küyə,
Oğulsan, baş çıxart bu basabasdan.
Keylərin içində dönürsən keyə,
Nə ruhda nəğmə var, nə dildə dastan!

2007, 17 mart

ÜZRÜ GÜNAHDAN BETƏR

Özü oynayan deyil,
Onu bir oynadan var.
Ocağını üfürüb,
Suyunu qaynadan var.

Niyə yolunu azdı,
Niyə qəbrini qazdı.
Haramı tanımazdı,
Daddıran var, dadan var.

Qayıtmaq gecdir daha,
Üzrü günahdan baha.
Batırıblar günaha,
Ortalıqda nadan var.

2007, aprel

GÖZ YAŞIM ÜZÜMDƏ ARX AÇAR İNDİ

Çəkdi çərxi-fələk oyuna məni,
Nə açsa başıma çərx açar indi.
Ağrılar hərraca qoyar canımı,
Təzə bazar açar, nırx açar indi.

Dərdin qapısında qulam, nökərəm,
Dərd Qara keşişdi, mən Yanıq Kərəm.
Gözümdən yağışı elə tökərəm,
Göz yaşım üzümdə arx açar indi.

Batır qanqalları dizimə mənim,
Tale kül üfürür gözümə mənim.
Qırx qapı bağlanıb üzümə mənim,
Açmağı bacarmır qırx açar indi.

2007, 3 may

FƏRHAD KÜLÜNGÜNÜN XATASI YOXDU

Çörək nə lazımdı, su nə gərəkdi,
Hər gün öz içini yeyən adama.
Libas axtarmayın, paltar gəzməyin,
Dərdi paltar kimi geyən adama.

Kimiyə gül verir, çiçək göstərir,
Kimiyə od vurur, şimşək göstərir.
Zaman addımbaşı dirsək göstərir,
Dizini yoxuşlar döyən adama.

Arxası, anası, atası yoxdu,
Gülləri saralıb, butası yoxdu.
Fərhad külüngünün xatası yoxdu,
Başı daşdan-daşa dəyən adama.

2007, 13 iyul

TORBA-CORAB

Nənəm torba tikərdi,
Qurudulmuş otları
Doldurardı torbaya
qışa ehtiyat üçün.
Görülən hər ehtiyat
lazımdı həyat üçün.
Bu gün soğan doğrayır
iştahına, aşına,
Torba tikir çoxları
bir-birinin başına.
Nənəmin torbasından
kəklikotu, əvəlik,
nanə, reyhan çıxardı.
Bugünkü torbalardan
şeytan çıxır, cin çıxır.
Nənəmin torbasından
bin-bərəkət çıxardı,
Bugünkü torbalardan
nifrət çıxır, kin çıxır.
Nənəm corab hörərdi
Qışda ayağımızı
isti saxlamaq üçün.
Bu gün corab hörürlər
Başa keçirmək üçün,
başda yoxlamaq üçün.
Axır ki, bu dünyanın
yaman çıxıb xarabı,
Hardasan, hayandasan,
Ay anamın torbası,
ay nənəmin corabı?

2007, 14 iyul

BİLMƏZ, BİLMƏZ

Öz dilində dinməyən,
öz içinə enməyən,
Soyadını tanımaz,
adını bilməz, bilməz.
Kişi belindən gəlib,
ana südü əmməyən,
Kişini dərk eyləməz,
qadını bilməz, bilməz.

Keçmişini unutmaz
kök üçün yanan nəsil,
Yenər hər cür nahaqqı,
haqqını qanan nəsil.
Öz kökündən üzülüb,
özünü danan nəsil
Doğmasını anlamaz,
yadını bilməz, bilməz.

İlahi tərəfindən
saat kimi qurular,
Sevənlər addımbaşı
duyğulanar, durular.
Min bir dəfə vurulan
dönər, bir də vurular,
Dadmayan bu dünyanın
dadını bilməz, bilməz.

2007, 16 iyul

HEYİF

Heyif bu torpaqlara
dodağı cadar-cadar,
Ahları eşidilsə,
səsi göylərə çatar.

2007, 2 sentyabr

KEÇDİ

Bulud qısır...
Göylər susur...
Bir damla yox,
Nədir bu sirr?
Yaylaqlara yağan yağış
gəldi bizdən iraq keçdi.
Çəməndəki qızıl lalə
ürəyimcə açılmadı,
Elə bildim gözlərimdə
ocaq söndü, çıraq keçdi.

O dağlara yağış yağır,
bu dağların xəbəri yox,
Yaxınların yanğısından
uzaqların xəbəri yox,
Yanan kimdi, yandıran kim,
bulaqların xəbəri yox.
Bəlkə ağır suçumuz var,
içimdən bir sazaq keçdi.

Sanki göydə şimşək ölüb,
buludları qamçılamır,
Səhər vaxtı sərin olub,
axşamüstü nəm çiləmir,
Yer qovrulur, göy sovrulur,
bircə damla damcılamır,
Quraq keçdi, qardaş, bu il,
mövsüm yaman quraq keçdi.

2007, 9 sentyabr

GƏLƏCƏYƏM

Gələcəyəm, gözlə məni,
harda olsam gələcəyəm,
Qohum kimi, qonşu kimi,
qardaş kimi gözlə məni.

Bir-bir yada salacağam,
nələr olub, nələr keçib,
Ömür kimi, tarix kimi,
yaddaş kimi gözlə məni.

Sən özünü məndən ayrı
nə yetim bil, nə arxasız,
Arxa kimi, dayaq kimi
sirdaş kimi gözlə məni.

Həyatına gələmməsəm
ölümünə gələcəyəm,
Məzarının başındakı
bir daş kimi gözlə məni.

2007, 9 sentyabr

ƏSİR SÖZ

Elə söz var dilnən demək çətindi,
Dilə gəlsə ağızları yandırar.
Yazan olsa külə dönər varaqlar,
Qələmləri, kağızları yandırar.

Dillə deyə bilmədiyin bir sözü
Qaşla demək, gözlə demək çətindi.
Dağ yarmağa, daş çapmağa nə var ki,
Söz var, onu sözlə demək çətindi.

İçimdə bir daş zindan var, daş qəfəs,
Qırx il orda dustaq olan sözüm, vay.
Nələr çəkdim mən o sözün əlindən,
İradə vay, dəyanət vay, dözüm, vay.

O dustağın keşikçisi özüməm,
Ürəyimdə söz girovdu, söz əsir.
Canım çıxır, o söz çıxmır dilimdən,
Dodağımda yarpaq kimi söz əsir.

Söz canında dustaq olan şairi
Özü salıb məşəqqətə, əzaba.
Hər şairin qəlbində bir qəbir var,
Hər şairin içində bir xaraba.

2007, 10 sentyabr

YARPAQ

Budaq üstə yamyaşıl
bir dünyan vardı,
Heyf sənə budağından
düşən yarpaq.
Baxmaq olmur,
sapsarıdı yanaqların,
Ayrılığın həsrətində
bişən yarpaq.

Təbiətin payızına
dözəmmirsən,
Yaz xiffəti
ürəyini deşən yarpaq.
Qurda-quşa
yem olmağın vaxtı çatıb,
Sinəsini boz qanqallar
deşən yarpaq.

Üşüyəndə isinməyə
budağın yox,
Günəş öpən, meh oxşayan
dodağın yox.
Güvəndiyin bir dağ vardı,
o dağın yox,
İndən belə susmaq olar
peşən, yarpaq.

2007, 15 sentyabr

DƏLİDƏN DOĞRU XƏBƏR

"Filankəs dəlidi dərdin əlindən",
Çatır qulaqlara ağrı xəbəri.
Çox zaman insanlar ağıllıdan yox,
Dəlidən eşidir doğru xəbəri.

Kimə tor toxuyur, kimə zər-xara,
İş görür fələyin əli xanada.
Dəlilər meydanda at oynadırlar,
Yatır ağıllılar dəlixanada.

2007, 30 oktyabr

DAMCI YERİ

Dəri zolaq-zolaq, dərd damar-damar,
Mənim kürəyimdə qamçı yeri var.
Batır iynə kimi, çaxır od kimi,
Yanan ürəyimdə sancı yeri var.

Çəmən suya batır, çamır göl olur,
Qaya suda üzür, mamır göl olur.
Hər gün dama-dama damır, göl olur,
Gözümdə həmişə damcı yeri var.

2007, 30 oktyabr

QAÇQINLIQ

Bu necə ömürdü, bu necə gündü,
Köhləndən aralı, yəhərdən qaçaq.
Meh başa həsrətdi, şeh də ayağa,
Düşmüşük axşamdan, səhərdən qaçaq.

Hanı o gülyanaq, o gül dostlarım,
Mənim can dostlarım, könül dostlarım.
Yanağı kül olmuş, a kül dostlarım,
Qaçaq bu tüstüdən, zəhərdən qaçaq.

Hərəmiz bir səmtə, bir yerə qaçdıq,
Gah xeyrə qurşandıq, gah şərə qaçdıq.
Kənddən baş götürüb şəhərə qaçdıq,
Qorxuram indi də şəhərdən qaçaq.

2007, 2 noyabr

YERİN QULAĞI

Üz vurma, səsini eşidən deyil,
Söz demə zamanın kar qulağına.
Zaman anlamasa, dövran duymasa,
Pıçılda sözünü yar qulağına.

Çiçəyə, ağaca, yarpağa söylə,
Söylə, hər bağçaya, hər bağa söylə.
Yer ki qulaqlıdı, torpağa söylə,
Bağla ümidini yer qulağına...

2007, 3 noyabr

YOL VERMƏ, GƏMİÇİ

"Yol ver gəmiçi, yol ver,
qoy qəfləm keçsin."
"Məsim və Diləfruz"
dastanından

Onsuz da baxıram bağlanıb daha,
Yol vermə, gəmiçi, yol vermə mənə.
Yetişməz sorağım göydə Allaha,
Yol vermə, gəmiçi, yol vermə mənə.

Tanrı uzaqdadı, əl yetməz ona,
Yoxdu dövlət quşu, çiynimə qona.
Nə bağda bülbül var, nə göldə sona,
Yol vermə, gəmiçi, yol vermə mənə.

Gəlsə dərd əlindən cana, fəryada,
Zəlimxan sirrini heç verməz yada.
Onsuz da çox batıb gəmim dəryada,
Yol vermə, gəmiçi, yol vermə mənə.

2007, 18 noyabr

ZAL MƏZARI

Zal babamızın ruhuna bağışlayıram

Bir el ağsaqqalı, bir dağlar oğlu,
Qarışdı torpağın lal məzarına.
Qəribin qürbətdə evi yıxılar,
Düşər xal üstündən xal məzarına.

Qız örtər başına qaradan şalı,
Oğulun zəhərə çevrilər balı.
Sahibsiz köhlənin tökülər nalı,
Dönər qapı-baca lal məzarına.

Saça qırov düşər, saqqal çal olar,
Bu halı duyanlar əhli-hal olar.
Hər çiçək islanmış bir dəsmal olar,
Qarabağ ağlayar Zal məzarına.

2007, 20 noyabr

SÖZÜMƏ BAXMIR

Dağlar, aşmaq istərəm,
Ürək sözümə baxmır.
Yorulub qanadlarım,
Lələk sözümə baxmır.

Qəm yüklü, dərd yuvalı,
Aşiq ömrü davalı.
Yar nazlı, mən havalı,
Mələk sözümə baxmır.

Bağrım başı sökülür,
Məğrur qəddim bükülür.
Yarpaqlarım tökülür,
Külək sözümə baxmır.

Buz sallanır telimdən,
Qaçmaq olmur ölümdən.
Solub gedir əlimdən,
Çiçək sözümə baxmır.

Ölüm ucuz, can baha,
İtən tapılmaz daha.
Əlim yetmir Allaha,
Fələk sözümə baxmır.

2007, 22 noyabr

XƏLVƏT

Ulu Tanrım, nə gözəldi doğma yuva,
Xəlvət seçib bir qırağa çəkilmişəm.

Bir guşədə çıraq yanır, şam əriyir,
Ərimişəm, şam-çırağa çəkilmişəm.

Ən vəfalı iki dostum, sirdaşım var,
Bir qələmə, bir varağa çəkilmişəm.

Söhbətimin ləzzətini dadan bilər,
Elə bil ki, balam, yağa çəkilmişəm.

Yağı düşmən elə bilir mən ölmüşəm,
Kəfənlənib bezə, ağa çəkilmişəm.

Füzulitək dərd əlindən dağa çıxıb,
Qəlbimdəki göy yaylağa çəkilmişəm.

2007, 22 noyabr

TANRIM, MƏNİ
BU MEYDANDA TƏKLƏMƏ

Tanrım, məni bu meydanda təkləmə,
Qohum da ver, yaxın da ver, yad da ver.
Yerin, göyün nemətini dadmağa,
Zəhmət də ver, ləzzət ver, dad da ver.

Başlamışam döyüşlərin məşqinə,
Sellər coşsa, salma məni daşqına,
Yaratdığım nəğmələrin eşqinə
İşıq da ver, ocaq da ver, od da ver.

Sən özünsən istedadın sahibi,
Qəlbin, ruhun, qol-qanadın sahibi.
Qıyma mənə, min bir adın sahibi,
Nüfuz da ver, nəfəs də ver, ad da ver!

2007, 25 mart

ƏZİLMƏ

Leş olub əlini,
qolunu sallama,
Yaş olub yanaqdan süzülmə,
süzülmə.
Gövdəni əzərlər,
kökünü kəsərlər,
Ruhundan, kökündən üzülmə,
üzülmə.
Əzilən kim olsa,
axırı puç olar,
Əzilən kim olsa,
varlığı heç olar.
Əzilən kim olsa,
qazancı köç olar,
Əzilmə!
Əzilmə!
Əzilmə!
Əzilmə!

NƏVƏM YUSİFƏ

Yanağı allı nəvəm,
Dodağı ballı nəvəm.
Gül qoxulu, ayüzlü,
Mələk misallı nəvəm.
Yusif qoydum adını,
Yusif camallı nəvəm.

Atamın adı nəvəm,
Ağzımın dadı nəvəm.
Gəldin, yaxın eylədin
Qohumu, yadı nəvəm.
Ruhumun, varlığımın
Qolu-qanadı nəvəm.

Sən dünyaya gələndən,
Mən daha mən deyiləm,
Dönmüşəm sən olmuşam.
Fikirli, qayğılıydım,
Səni oynağan görüb,
Uşaqdan şən olmuşam.
Babalar padşahıyam,
Qaldırmısan göylərə,
Tanrıya tən olmuşam.

Mən qocaman bir ağac,
Sən budaqda bar kimi.
Paklığın, yumşaqlığın,
Təzə yağmış qar kimi.
Xoşbəxtəm, xoşbəxt olan
Bütün babalar kimi!

Gələn gündən dünyaya
Saza mehrli nəvəm,
Nağıllardan yaranmış
Sirli-sehrli nəvəm.

Baxış mənim baxışım,
Gülüş mənim gülüşüm.
Gediş mənim gedişim,
Gəliş mənim gəlişim.
Eyni ruhdu, bədəndi,
Eyni güldü, çəməndi,
Məndən sonrakı məndi
Ağlamağın, gülməyin,
Şirin söz eşidəndə
Bal kimi süzülməyin.
Ruh kimi oynamağın,
Qan kimi qaynamağın
Mənim körpəliyimdi,
Mənim uşaqlığımdı.
Mənim həlimliyimdi,
Mənim yumşaqlığımdı.
Şirin layla, oxşama,
Kövrək bayatı nəvəm!
Allahın möcüzəsi,
Haqqın sovqatı nəvəm!

2007, 28 noyabr

AYSU BALA

Qız balamın çiçək kimi
qız balası,
Yağım-balım, qəndim-çayım,
Aysu bala!
Körpələrin cərgəsində
dördüncüsən,
Nəvələrdən dörddü sayım,
Aysu bala!
Nəvə kimi şirin nə var
bu dünyada,
Atam-anam, əmim-dayım,
Aysu bala!
Çiçəklənən arzuların
tər qönçəsi,
Bar gətirən yazım-yayım,
Aysu bala!
Aysu – Günay – iki Ay var
bir ocaqda,
İlahidən gələn payım,
Aysu bala!
Yer üzünə gələn günün
mübarəkdir,
Ad günündür ən xoş ayım,
Aysu bala!
Yerim-göyüm, məhəbbətim
sənə qurban,
Yerdə suyum, göydə Ayım,
Aysu bala!

2007, 21 noyabr

YUSİFİM, ZƏLİMXANIM

Hara gedirəm gedim,
harda oluram olum,
Gəlib sizdə birləşir
izim, cığırım, yolum.
Keçmişim, gələcəyim,
Bəyim, xaqanım, xanım, –
Yusifim, Zəlimxanım!

Dilimdə bayatıdı,
dodağımda oxşama,
Mən sizdən oxuyuram
hey səhərdən axşama.
Qana damardan yaxın
yer üzündə heç nə yox,
Damarda axan qanım, –
Yusifim, Zəlimxanım!

Layladan həzin səsim,
Baldan şirin həyatım,
Məndən sonra dünyada
davam edən həyatım.
Ruhumun genişliyi,
Qəlbim, ciyərim, qanım, –
Yusifim, Zəlimxanım!

Biri atamın adı,
biri də öz adımdı,
Sabaha uçmaq üçün
qolumdu, qanadımdı.
Açılan xoş sabahım,
sökülən qızıl danım,
Yusifim, Zəlimxanım!

2008, 18 yanvar

QORU BU TORPAĞI

Nə dəniz dərindi, nə çay dərindi,
Gözdən bircə damla axan yaş qədər.
Vətənin ən yüngül bir çöpünü də
İtirmək ağırdı bu dağ, daş qədər.

Yeri də, göyü də qucsun qanadlar,
Ruhu diri saxla, ölməyə qoyma.
Bizim payımızı çox böldü yadlar,
Daha bir çöpü də bölməyə qoyma.

Qoru bu torpağı, qurbanın olum,
Od kimi, qor kimi, köz kimi qoru.
Qoru Yaradandan yadigar qalan,
Allahın verdiyi söz kimi qoru.

2007, 5 mart

ÖMRÜMÜZ

Çopur, boz tikanlar diddi, dağıtdı,
İpək ömrümüzü, tül ömrümüzü.
Gül kimi yaşamaq istəsək də biz,
Qanqallar daladı gül ömrümüzü.

Xırdalar əlində irilər öldü,
"Ölülər" içində dirilər öldü.
Hürülər saraldı, pərilər öldü,
Yedi qarışqalar fil ömrümüzü.

Ömrə qiymət kəsib, mərc eylədilər,
Borc verib, borc alıb, borc eylədilər.
Dəyərə-dəyməzə xərc eylədilər,
Para ömrümüzü, pul ömrümüzü.

Baş açа bilmədik vaxtdan, zamandan,
Göz açа bilmədik çəndən, dumandan.
Günah palçıq kimi yapışdı candan,
Durulda bilmədik lil ömrümüzü.

Şeytan düşmənimiz, hiylə torumuz,
Çatladı qəbrimiz, yandı gorumuz.
Keçdi ocağımız, söndü qorumuz,
Küləklər apardı kül ömrümüzü.

2007, 7 may

ÖMÜR

Yuxulardan keçib gəldim,
Yuxu məndən keçib gedir.
Harda bir ox atan olsa,
Oxu məndən keçib gedir.

İnam yox özülə, himə,
Kimə bel bağlayım, kimə.
Ölüm adlı bir vahimə,
Qorxu məndən keçib gedir.

Başımda eşqin sarayı,
Canımda dərdin harayı.
Dünyanın çeşməsi, çayı,
Arxı məndən keçib gedir.

Gözündən keçdim ələyin,
İçindən çıxdım bələyin.
Özü göydədi fələyin,
Çarxı məndən keçib gedir.

2007, 21 may

MƏNİMKİ SÖZ QƏSRİ, SÖZ QALASIDI

Yoxdu yaş qorxusu sevilənlərə,
Doxsanın içində, yüzün içində.
Ürəyin nə qədər arzuları var,
Nə qədər istək var gözün içində.

Nə naxış gərəkdi, nə zər daşıma,
Tale yazdığını yazar daşıma.
Söz olsun yaraşıq məzar daşıma,
Siz məni basdırın sözün içində.

Mənimki söz qəsri, söz qalasıdı,
Söz Babək qalası, Bəzz qalasıdı.
Qalsa Zəlimxandan söz qalasıdı,
Yatanda kəfənin, bezin içində.

2007, 10 iyul

CAVAN ŞAİR, QOCA DAĞ

Qardaş kimi gəlmişəm
qucağına, qoynuna,
Elə bu istəklə də
qol salıram boynuna.
Qoca dağ, vurulmuşam
şimşəklərin oynuna,
Zirvə qucan qartalın,
kəklik ötən daşınam,
Mən sənin qardaşınam.

Odumuz-suyumuz bir,
əslimiz-soyumuz bir,
Bir atanın oğluyuq,
bir ananın övladı,
qəddimiz, boyumuz bir.
Sevincimiz, qəmimiz,
yasımız, toyumuz bir,
Keçmişin, gələcəyin,
tarixinəm, yaşınam,
Mən sənin qardaşınam.

Sən eşq ilə dolusan,
mən də söhbətlə, sazla,
Sən də, mən də bağlıyıq
bu baharla, bu yazla.
Oxuyuruq Allahın
verdiyi bir avazla.
Sən tutqun görünəndə,
mən çatılan qaşınam,
Mən sənin qardaşınam.

Cavan şair, qoca dağ,
verib yenə baş-başa,
Aydınlıq gəlir ömrə,
gümrahlıq gəlir yaşa.
Ayrılığın, həsrətin
haşa, əlindən haşa,
Sənin lə bir olanda
Tanrıya çatan səsin,
ərşə dəyən başınam,
Mən sənin qardaşınam.

2007, 12 iyul

SƏPİLMİŞƏM YADDAŞLARA

Suyumu kəsən sevinir,
Elə bilir səhradakı
Qovrulmuş qumlar kimiyəm.
O binəva hardan bilsin
İçimdən gur çaylar axır,
Sulanmış şumlar kimiyəm.
Nə ölənəm, nə itənəm,
Hər yaz göyərib bitənəm.
Səpilmişəm yaddaşlara,
Sağlam toxumlar kimiyəm.

2007, 16 iyul

GÖZƏL ÖLÜM

Ağrısı yox, azarı yox,
İnsan ilə bir alveri,
Dünya ilə bazarı yox.
Gözəl bir ömür yaşayır,
Rahat adam rahat ölür.
Rahat adam ölən günü
Həyatda bir həyat ölür.
Tanrının öz hesabı var,
Zalımlar zülümnən ölür.
Dünyanın gözəl adamı
Mələk kimi uçub gedir,
Gözəl bir ölümnən ölür.

2007, 1 yanvar

BİRCƏ SÖZ DE

Səni qorxutmasın dedi-qodular,
Yüzü yüz söz desin, sən bircə söz de.
Mən sənin başına dönüm, dolanım,
Sən mənim başıma dön, bircə söz de.

Səndən gözləyirəm o sözü, səndən,
Çıxart ağlı başdan, ruhu bədəndən.
Ümid toxumunu aparma məndən,
Cücərsin qəlbimdə dən, bircə söz de.

Gözəllik şahıtək çıxmısan taxta,
Yazan səni yazsın qismətə, baxta.
Sən dağlar başında, mən dar ayaqda,
En mənim yanıma, en, bircə söz de.

Qəlbim közə döndü, ürəyim şama,
Sevgisiz kim çatıb arzuya, kama.
Səni and verirəm gələn axşama,
Əyildi dağlardan gün, bircə söz de.

Ömrümə nur payla, ömür-gün tapım,
Dünya sevincini birə-min tapım.
Dinlərin içində təzə din tapım,
Ay dinim-imanım, din, bircə söz de.

2007, 20 may

YUVA

Allahım, nəğməylə, cəhcəhlə doldur
Arı pətəyini, quş yuvasını.
Qartalı ayırma öz zirvəsindən,
Kəklik də qızdırsın daş yuvasını.

Deşir ürəyimi tikan ucutək,
Hər saralan yarpaq, hər solan çiçək.
Görən kəndimizdə kim isidəcək
Üşüyən evlərin boş yuvasını.

Yuva uçurmasın hiylənin toru,
Nifrətin atəşi, qəzəbin qoru.
Allahım, ürəkdə sən özün qoru
Bütün yuvaların baş yuvasını.

2007, 31 oktyabr

HAMI BU ŞƏHƏRƏ DİPDİRİ GƏLİR

Şəhər dünyasıdı...
gündə meydana
Ağıllısı çıxır,
dəlisi çıxır.
Hərənin bir cürə
nəfəs kəsəni,
Hərənin bir cürə
zəlisi çıxır.
Hamı bu şəhərə
dipdiri gəlir,
Hamının şəhərdən
ölüsü çıxır.

2007, 1 noyabr

BU SİRRİ BİR SƏN BİL

Sən Allah, qırağa çıxmasın bu söz,
Bu sirri bir sən bil, bir də mən bilim.
Kiminsə evini yıxmasın bu söz,
Bu sirri bir sən bil, bir də mən bilim.

Ölərmi dilindən, sözündən öpən,
Kimin baxışıydı gözündən öpən?
Kimin dodağıydı üzündən öpən,
Bu sirri bir sən bil, bir də mən bilim.

Sevgi ömürlükdü, bircə an deyil,
Sənsiz bir cansızam, canım can deyil.
Allahın özü də sirr açan deyil,
Bu sirri bir sən bil, bir də mən bilim.

Dilim nə danışdı, əlim nə dedi,
İçim nə qaynatdı, çölüm nə dedi.
Həyat nə söylədi, ölüm nə dedi,
Bu sirri bir sən bil, bir də mən bilim.

Sən yanar ulduzsan, mən doğan Ayam,
Sən axar çeşməsən, mən dəli çayam.
Kimlərə sovqatam, kimlərə payam,
Bu sirri bir sən bil, bir də mən bilim.

Sən şadlıq istədin, fərmanın oldu,
Sən əlac istədin, dərmanın oldu.
Zəlimxan neçə yol qurbanın oldu,
Bu sirri bir sən bil, bir də mən bilim.

2007, 2 noyabr

GÖRƏK KİM ÇIXACAQ YAZA BU QIŞDAN

Gözüm su içmədi gəlhagəlindən,
Çəkdim dönə-dönə cəza bu qışdan.
Don vurar, qar basar, qırov üşüdər,
Çəkməz gözlərini qəza bu qışdan.

Qışın gözü yaşlı, kirpiyi nəmli,
Kimi dindirirsən könlü ələmli.
"Bir mirzə lazımdı əli qələmli",
Boşalda qəlbini, yaza bu qışdan.

Dişini qıcayıb zamana, baxta,
Axşamı ayazdı, səhəri şaxta.
Kim ölə, kim qala, qismətə, baxta,
Görək kim çıxacaq yaza, bu qışdan.

2007, 9 mart

UZAQ GƏZMƏ

O dənizdən mənə bircə damla ver,
Mən damlanı bir dənizə çevirim.
Sovqat bilib göndərdiyin sevgini,
Ürəyimdə saza, sözə çevirim.

Quşa dönüm, sünbülündən dən alım,
Dənizim ol, sahilinə yan alım.
O gözlərin qadasını mən alım,
Baxışları oda-közə çevirim.

Ərit məni, damla-damla əri, gəl,
Gəl ömrümün sərvəti, gəl, zəri, gəl.
Uzaq gəzmə, o dağlardan bəri gəl,
Səni görüm, dağı düzə çevirim.

2007, 25 mart

GEDİRƏM

Hər səhər qaçıram
sevincin dalınca,
Hər axşam qəmə
doğru gedirəm.
Hər səhər
səhərə güvənib işə çıxıram,
Hər axşam bəmə
doğru gedirəm.
Hər səhər gözümdə
günəş gülümsəyir,
Hər axşam məni
dərə qaranlığı çəkir,
Hər səhər
öz zirvəmə doğru gedirəm.

2008, 9 yanvar

GÖYLƏR QIZI

Heç bilmədim dağ gözəli
Niyə gəldi, niyə getdi.
Sevgi üçün yaranmışdı,
Sevgi deyə-deyə getdi.

Canımdan bir can apardı,
Yaralarmı qan apardı.
Dəli bir boran apardı,
Düşdü səsə-küyə, getdi.

Üfüqlərin zər qızıydı,
Təbiətin tər qızıydı.
Sanki, bir göylər qızıydı,
Göydən gəldi, göyə getdi.

2008, 12 yanvar

ŞAİR BÖLGƏLİ DEYİL

Sən özünü fikirləş!
O heç kəsin yanında
gözükölgəli deyil.
Sən özünü fikirləş!
Onun qəlbi şübhəli,
dili "bəlkə"li deyil.
Sən özünü fikirləş!
Onun qanı təmizdi,
ruhu ləkəli deyil.
Şairin qəlbindədi
bu dünya başdan-başa,
Məni bölgəyə çəkmə,
şair bölgəli deyil.

2008, 5 fevral

ÇƏKMƏSİN

Başım nələr çəkdi
qoca dünyada,
Mən çəkən dərdləri
yağı çəkməsin.
Fələk hər ömürdən
nişanə qoysun,
Kökündən çıxarıb
tağı çəkməsin.

Zülmət gözlərimə
endi çən kimi,
Dərdim saçlarıma
yağdı dən kimi.
Heç kəsin anası
mən çəkən kimi,
Bayatı çağırıb,
ağı çəkməsin.

Dağıtsın dən kimi,
quş dara çəksin,
Dərdi dağ itirsin,
daş dara çəksin.
Zəlimxan, dağlara,
daşlara çəksin,
Fələk sinəmizə
dağı çəkməsin.

2008, 3 fevral

DÜNYANIN ZOR ADAMI

Qoşa qanadımdı atam və anam,
Mən iki adamın bir adamıyam.
Adəmdən adama yol gəldi ömrüm,
Sirdən yaranmışam, sirr adamıyam.

Çeşmə gözlərimdə, çay gözlərimdə,
Min bir gözəlliyi say gözlərimdə.
Günəş ürəyimdə, Ay gözlərimdə,
Üfüqdən boylanan zər adamıyam.

Dünya heyranlıqdı, mən heyrətdəyəm,
Heyran olduğuma məhəbbətdəyəm.
Gecə də, gündüz də ziyarətdəyəm,
Ocaq adamıyam, pir adamıyam.

Bir səsəm, süzülüb neydən gəlmişəm,
Kitabam, əlifdən-beydən gəlmişəm.
Buluda qoşulub göydən gəlmişəm,
Torpaqdan yoğrulan yer adamıyam.

Eşqimlə dağ yarıb, daş oya bildim,
Bir gündə min bir gün yaşaya bildim.
Mən ki bu yükləri daşıya bildim?
Bu qoca dünyanın zor adamıyam.

2008, 7 fevral

APARSIN

Kim gedəndə məzarımın üstünə,
Nə gül dərsin, nə çiçəklər aparsın.
Dodağında Quranın bir ayəsi,
Ürəyində xoş diləklər aparsın.

Dağ döşündə yaralanmış ahuyam,
Dərd evinin, qəm mülkünün şahıyam.
Dağ yandıran Füzulinin ahıyam,
Hesabını qoy fələklər aparsın.

İgid canım, şəhid canım, mərd canım,
Ağrılara möhkəm canım, sərt canım.
Qoyma səndə meydan açа dərd, canım,
Dərdin varsa, ver küləklər aparsın.

Dünya şeytan, dünya meydan, dünya qan,
Baxıb gördük dünya axşam, dünya dan.
Bir gün məni aparanda dünyadan,
Qoy ya ruhlar, ya mələklər aparsın.

At büdrədi, meydan getdi, ər itdi,
Ay Zəlimxan, yan, qəlbini ərit, di.
Keçmişimi qara torpaq əritdi,
Sabahımı gələcəklər aparsın.

2008, 15 fevral

GƏLMİSƏN

Qardaş, söylə görüm İranda nə var,
Eşitdim o yerdən təzə gəlmisən.
Sənə bu yaşında gözəllər baxıb,
Bir qız baxışında gözə gəlmisən.

Gözəllər əlindən alıb tabını,
Çəkiblər məclisdə haqq-hesabını.
Geyinə bilməyib ayaqqabını,
Dönüb ayaqyalın bizə gəlmisən.

Ağıllı tərpənib tədbir tökənlər,
Yaxanı çırmayıb yaxa sökənlər,
Üzünü görməyib şallaq çəkənlər,
Mey içib, dilində məzə gəlmisən.

Arifə qurbandı şairin canı,
Gəl dostu-düşməni yaxından tanı.
Dostumuz Nurəddin verib fitvanı,
Zəlimxan dilində sözə gəlmisən.

2008, 20 fevral

ÇALMA "MÜXƏMMƏS"İ, TEZDİ, AY AŞIQ

Ey külək, dağıdıb
salma didərgin,
Qoy duman yaşasın,
duman ömrünü.
Sünbülün öz ömrü,
dənin öz ömrü,
Saman da yaşasın
saman ömrünü.

Tufanlar ovcunda
sıxma dağları,
Atəşə yandırıb
yaxma dağları.
Ey qəfil zəlzələ,
yıxma dağları,
Dağlardı yaşadan
insan ömrünü.

Qoyma gül bağçalar
bəhərsiz qala,
Qoyma axşamları
səhərsiz qala.
Qoyma at igidsiz,
yəhərsiz qala,
Köhlənə bağışla
meydan ömrünü.

Ağrı ürəyimi
əzdi, ay aşıq,
Fikrim haraları
gəzdi, ay aşıq.
Çalma “Müxəmməs”i,
tezdi, ay aşıq,
Qoy şair yaşasın
dastan ömrünü.

Güləm, çəmənimə
qaytarın məni,
Ruham, bədənimə
qaytarın məni.
Doğma vətənimə
qaytarın məni,
Zəlimxan görməsin
hicran ömrünü.

2008, 11 mart

DOSTUN OLMAQ ÜÇÜN GƏLDİM DÜNYAYA

Ey Haqqın varlığı, məni sən qoru,
Mən səni qəlbimtək duyanlardanam.
Səsindən güc alıb, sözündən təpər,
Sevgimi dünyaya yayanlardanam.

Çiçəklər açılar gün işığında,
İmanlar paklaşar din işığında.
Səhər aynasında, dan işığında,
Səni gözüm nuru sayanlardanam.

Canımda, qanımda halaldan maya,
Sinəm qəm çəpəri, köksüm sal qaya.
Dostun olmaq üçün gəldim dünyaya,
Allahın özünə əyanlardanam.

Var olsun bu dünya, sabahı varsa,
Yox olsun, sabahın tamahı varsa.
Qəlbimin nə qədər günahı varsa,
Gözümün yaşıyla yuyanlardanam.

Sükutun, xəlvətin keçdim çəminə,
Çəkildim əbədi ruh aləminə.
Tamarzı qalmadım dünya qəminə,
Dərdin çoxluğundan doyanlardanam.

Haqqımın uğrunda çəkdim davamı,
Kafir zəhərlədi təmiz havamı.

Peyğəmbər qəlbində qurub yuvamı,
Müşriklər bağrını oyanlardanam.

Qəlbimdə dillənən hər səs, hər səda,
Bir Allah eşqiylə ötdü dünyada.
Min canım olsaydı, verərdim fəda,
Bir canı yolunda qıyanlardanam.

Almaniya, Münhen
xəstəxanası,
2008, 9 mart

SALAMLAR OLSUN

Məni bu imtahandan
sağ-salamat çıxardan
Əllərin sayasına
məndən salamlar olsun.
Göyə açılan əllər
boşuna açılmadı,
Dillərin duasına
məndən salamlar olsun.

Başına dolandığım
cığırların, izlərin,
Çiçəyini dərdiyim
dərələrin, düzlərin,
Yollarıma boylanıb
mənə baxan gözlərin,
Nuruna, ziyasına
məndən salamlar olsun.

Bir əldə istisi var
yüz baxışın, yüz əlin,
Vurğunuyam əzəldən
köz baxışın, köz əlin.
Toyuna çatmadığım
mənsiz köçən gözəlin,
Abrına, həyasına
məndən salamlar olsun.

Məhəbbətin gücüdür
yeri göyə bağlayan,
Ancaq Allah eşqidi
könüllərdə çağlayan.

Məni yuxuda görüb,
ayılanda ağlayan,
Qızların röyasına
məndən salamlar olsun.

Süfrələrin başında
adıma yanan şamın,
Sağlığıma içilən
dolu badənin, camın.
Məndən deyən aşığın,
məni çəkən rəssamın,
Rənginə, boyasına
məndən salamlar olsun.

Boylandım arxasınca
uçub gedən quşların,
Heyranıyam heyranı,
yaz çiçəyin, qış qarın.
Şahdağının, Kəpəzin,
Savalanın, Qoşqarın,
Daşına, qayasına
məndən salamlar olsun.

Həsrət dizə çökdürər
olsan da məğrur, mətin,
O anamdı, anadan
uzağa düşmək çətin.
Azərbaycan adlanan
ulu bir məmləkətin,
Tükənməz mayasına
məndən salamlar olsun.

Almaniya, Münhen
ürək xəstəxanası,
2008, 12 mart

ŞƏHİDLİK

Peyğəmbər dilindəki
ən mübarək kəlmədi,
Yerlərə könül verib,
göylərə yüksəlmədi,
Şəhidlik qisməti də
ilahidən gəlmədi,
Bu əlçatmaz ucalıq
heyrətdi, heyrət mənə, –
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Gözüm yox bu dünyanın
sərvətində, zərində,
Budaqlarım buludda,
köklərimsə dərində.
Niyə şəhid olmadım,
Haqqın döyüşlərində,
Hərdən bu ağır sual
verir xəcalət mənə, –
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Bu gün də üz-üzədir
yaxşılıqla yamanlıq,
Bu gün də döş-döşədir
qorxaqlıq, qəhrəmanlıq,
Bu gün də döyüşdədir,
işıq ilə qaranlıq,
Gəlsin mənim dinimdən,
ikinci qüvvət mənə, –

Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!
Şəhidlikdi qaldıran
dini də, imanı da,
Şəhidlikdi dağıdan
şübhəni, gümanı da.
Şəhidlikdi itirən
tozu da, dumanı da.
Allahın özü versin
hünər, cəsarət mənə, –
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Bu gün də dilimdədir,
bayatılar, ağılar,
Yenə də hücumdadı
qaniçənlər, yağılar.
Şəhidləri olmasa
millət batar, dağılar,
Həyatda çox toy tutub
zülüm, məşəqqət mənə, –
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Dinimin ayağına
günah yazıllar bu gün,
Ayağımın altını
yaman qazıllar bu gün,
İslamın dediyini
tərsə yozullar bu gün,
Cavabını verməsəm
min dəfə lənət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!!!

Almaniya,
Münhen xəstəxanası,
2008, 12 mart

SEVGİ DİLİ

Gözəl bir həkim gəlib,
Danışır asta-asta
mənim xəstəliyimdən.
Dilmanc yoxdu yanımda,
çətinlik çəkirəm mən.
Nə o danışa bilir
Azərbaycan dilində,
Nə mən danışa billəm,
təmiz alman dilində.
Ancaq bir-birimizi
gözəl başa düşürük
ruh ilə can dilində.
Dilə ehtiyac olmur
Baxışlar danışanda
Əsl sevgi dilində,
əsl insan dilində!

Almaniya,
Münhen şəhəri,
2008, 12 mart

QƏMLİ FİKİRLƏRİN BOLLUĞUNDAYAM

Əl atıb qaldırar
öz gəmisinə,
Nuh mənim ömrümü
yarıda qoymaz.
Mələklər ucaldar
mərtəbəsinə,
Ruh mənim ömrümü
yarıda qoymaz.

Yaş yumaz yanağı,
nəm insaf eylər,
Zil yormaz səsimi,
bəm insaf eylər.
Dərd geri çəkilər,
qəm insaf eylər,
Ah mənim ömrümü
yarıda qoymaz.

Uzaq bir səfərin
yolluğundayam,
Qəmli fikirlərin
bolluğundayam.
Xalqın da, haqqın da
qulluğundayam,
Şah mənim ömrümü
yarıda qoymaz.

2008, 13 mart

MƏNİMKİ YAZMAQ OLMADI

Həkimlərin işi-gücü,
Ağrımı sağlamaq oldu.
Təmiz fikri, saf niyyəti,
Yaramı bağlamaq oldu.

Od yapışdı köz yaşıma,
Oğulsansa, döz yaşıma.
İşim-peşəm gözyaşıma
Qarışıb çağlamaq oldu.

Yazını pozmaq olmadı,
Yaxşıya yozmaq olmadı.
Mənimki yazmaq olmadı,
Mənimki ağlamaq oldu.

Almaniya,
Münhen xəstəxanası,
2008, 13 mart

DÜŞ BİRCƏ GÜN QÜRBƏTƏ

Nə dağ var, nə duman var,
Gözümdəki çən nədir?!
Mən ki qocalmamışam,
Saçımdakı dən nədir?!

Nə görmüşdüm, nə görüm,
Qəm çörəkdi, ye görüm.
Dərddən uca de görüm,
Bu dağlara tən nədir?!

Hicran dönür hicrətə,
Qəm dönür fəlakətə.
Düş bircə gün qürbətə,
Bilərsən vətən nədir!

Almaniya,
Münhen xəstəxanası,
2008, 13 mart

ZİRVƏLƏRDƏN ZİRVƏLƏRƏ YOL GEDİR

Şair, sən ki vurulansan
göylərə,
Boyun bükmə, üfüqlərə
bax, yeri.
Zirvələrdən zirvələrə
yol gedir,
Küləklərdən qanadını
tax, yeri.

Sualları, sorğuları
soraqla,
Keçən ömrü kitab kimi
varaqla.
Qollarınla göy üzünü
qucaqla,
Sellər kimi dərələrdən
ax, yeri.

Paltar olub,
hər bədənə geyilmə,
Can çürüdüb
öz içindən yeyilmə.
Sınaqlara, tufanlara
əyilmə,
Dürüst dillən, aydın danış,
şax yeri.

Almaniya,
Münhen şəhəri,
2008, 14 mart

İNSAN ANLAMIR Kİ...

Yazıq ürəyimi
yaman yormuşam,
Qəlbin nə günahı,
günah məndədi.
Zəlimxan hardadı –
deyən olanda,
Bir gün deyirdilər
dağlar başında,
Bir gün deyirdilər
göy çəməndədi.

Elə görürdün ki,
səmti, səfəri
Bir gün şəhərədi,
bir gün kəndədi.
Təbiət dəlisi,
dağ ölüsüydü,
Nə zaman görəndə
elə bilirdin
Ayağı şehdədi,
başı çəndədi.

İşarə verirdi hərdənbir mənə:
“Bax, məni qınama
yollarda qalsan,
Taqsır məndə deyil,
taqsır səndədi”.
Sanırdım dünyanın
dərdi, bəlası
Məndən uzaqdadı,
məndən gendədi.

İnsan anlamır ki,
vaxtın hökmü var,
Gözünü açanda
qaynar həyatda,
Gözünü yumanda
bez kəfəndədi.

Almaniya,
Münster şəhəri,
2008, 14 mart

HAVASI BAŞQADI BU NƏĞMƏLƏRİN

Yaz desən – bu yazın
havası deyil,
Saz desən – bu sazın
havası deyil.
Şirin bir avazın
havası deyil.
Ağrısı amansız,
yarası dərin,
Havası başqadı
bu nəğmələrin.

Heç kəsə ziyanı,
xətəri yoxdu,
Tamahlardan xəbəri,
ətəri yoxdu.
Gözündə bir qəpik
dəyəri yoxdu,
Şöhrətin, sarayın,
sərvətin, zərin,
Havası başqadı
bu nəğmələrin.

Ruhu qolboyundu
çiçəklə, bağla,
Anayla, bacıyla,
sirdaşla, yarla.
Yoxdu qohumluğu
bu misralarla
Hiylənin, fitnənin,
böhtanın, şərin,
Havası başqadı
bu nəğmələrin.

Bahardan daha çox,
xəzandan gəlir,
Dərvişdən başlanır,
ozandan gəlir.
Haqqın kitabını
yazandan gəlir,
Kökləri şirəli,
kölgəsi sərin,
Havası başqadı
bu nəğmələrin.

Canımda bəslənən
ağrım-acımdı,
Gözdə işığımdı,
başda tacımdı.
Əzəli əbədi
ehtiyacımdı,
Çəkin canınıza,
ciyərinizə,
Könül bağçasından
gül kimi dərin.
Havası başqadı
bu nəğmələrin,
Laylası başqadı
bu nəğmələrin.

Almaniya,
Münster şəhəri,
2008, 15 mart

AĞRILAR KÖK ATAR YANAN ÜRƏKDƏ

İllərlə içimdə
gəzən ağrının
Vurdu bir parçası
qırağa çıxdı.
Köksümdə qalanıb
yatan tüstülər
Gözümdə alışan
çırağa döndü.

Toxumlar cücərməz
donan ürəkdə,
Ağrılar kök atar
yanan ürəkdə.
Nə ki dərd var idi
yanan ürəkdə,
Süzüldü hamısı
varağa çıxdı.

Həyat! Olduğutək
görmədik onu,
Aldatdı gözləri
paltarı, donu.
Hayana qaçsa da,
hamının sonu
Bir bezə, kəfənə,
bir ağa çıxdı.

Almaniya, Münster şəhəri,
2008, 15 mart

ÜRƏYİM, AY ÜRƏYİM

Birnəfəsə sənlə
yeddi bələn aşardıq,
Sellər kimi kükrəyib,
sular kimi daşardıq.
Zirvəyə salam verib,
dağla qucaqlaşardıq,
Ürəyim, ay ürəyim.

İman adlı işıqda,
sevgi adlı dindəsən,
Eşqin göy yaylağında,
yaşıl sinəsindəsən.
Sən qaya köksündə yox,
şair sinəsindən,
Səni mənə ilahi
pay verib, pay, ürəyim.

Ruhumuz göylərdədi,
yerdə cana sığmırıq,
Cahan bizə sığışır,
biz cahana sığmırıq,
Çox imtahan vermişik,
imtahana sığmırıq,
Sən bir qaynar çeşməsən,
mən dəli çay, ürəyim,
Ürəyim, ay ürəyim.

Yarıyaşa çatmamış
məzarımız qazılsa,
Adımız, soyadımız
başdaşına yazılsa,

Əhdimiz unudulub,
dostluğumuz pozulsa,
Yazıqlar olsun sənə,
vay sənə, vay ürəyim,
Yazıqlar olsun mənə,
vay mənə, vay ürəyim.

Almaniya, Münster şəhəri,
2008, 15 mart

EH, BU QOCA DƏYİRMAN

İnsan niyə vurulur
ada, şana-şöhrətə,
Dünyanın sərvətində,
zərində nə var görən?
Rahatlıq yoxdu yerdə,
Adəm yerə düşəndən,
Bu xaraba dünyanın
yerində nə var görən?

Ağrımız çoxalanda
yaranı keyitmədi,
Dərdi hər gün böyütdü,
sevinci böyütmədi.
Eh, bu qoca dəyirman
kimləri üyütmədi,
Dəyirmanın çarxında,
pərində nə var görən?

Təmiz ürək gözəldi,
isti can, isti nəfəs,
Kin-küdurət bağlasa,
hisdi can, hisdi sinə.
Düşəndə təbiətin
oduna, istisinə
Niyə kölgə gəzirik,
sərində nə var görən?

Savaşların, qanların
göz açmırıq yasından,
Təmizlənə bilmirik
paxırından, pasından.

Niyə əlini çəkmir
dünyanın yaxasından,
Şeytanın fitnəsində,
şərində nə var görən?

Uyduq fani dünyanın
adətinə, dəbinə,
Möhtac olduq axırda
dərmanına, həbinə,
Ömrü boyu can atdıq
dəryaların dibinə,
Heyif, bilə bilmədik
dərində nə var görən?

Almaniya,
Münster şəhəri,
2008, 16 mart

AĞRIN ALIM

Göy üzündə durnaların,
Səfi mənəm, ağrın alım.
Yer üzündə bulaqların,
Safı mənəm, ağrın alım.

Fırlanmağa edər vərdiş,
Məndən keçər çərxi-gərdiş.
Aşıq, mürşid, ozan, dərviş,
Sufi mənəm, ağrın alım.

Yağmaladı məni yağı,
Körpülərin çökdü tağı.
Ağrımızın Ağrı dağı,
Qafı mənəm, ağrın alım.

Halallıqdan tutdum maya,
Şükür haqdan gələn paya.
Tək sazımla bu dünyaya,
Kafi mənəm, ağrın alım.

2009, 25 yanvar

DÖRDLÜK

Göylə gedənlərin yerə enməyi,
Bütün uçanların sürünməyi var.
Sevinc işığına bürünənlərin
Kədər libasına bürünməyi var.

2009, 30 yanvar

TƏƏSSÜF

Nə toyda toyluq qalıb,
Nə vayda vaylıq qalıb.
Nə şirin bir evlilik,
Nə xoş subaylıq qalıb.

Eşqi gözdən salma var,
Gənc ikən qocalma var.
Nə oğlanda alma var,
Nə qızda yaylıq qalıb.

2009, 30 yanvar

RUH BƏDƏNDƏ GÖZƏLDİR

Zirvə yarışlarında
qoca qartallar yorub,
Qəlbim qədər döyünən,
çırpınan bir quşmu var?
İldırımlar nə qədər
iti çaxırsa çaxsın,
Mənim fikrimdən yeyin
göylərdə uçuşmu var?

Dözəsən şimşəklərin
tufanına, oynuna,
Dost kimi qol salasan
zirvələrin boynuna.
Baş gərək baş vurasan
üfüqlərin qoynuna,
Başsız başın içində
ağılmı var, huşmu var?

Dən sünbüldə bərkiyər,
sünbül dəndə gözəldir,
Nur gözdə, qan damarda,
ruh bədəndə gözəldir.
Saf ürək, salamat can,
sağlam bəndə gözəldir,
Nəfəs candan çıxdısa,
ömrə qurtuluşmu var?

2009, 30 yanvar

XATİRƏLƏRİM

Hara gedirəm gedim,
çəkir məni özünə,
Dəli-dolu, havalı,
çılğın xatirələrim.
Mənə şairlik verib,
ürəklərə endirib,
Şair kimi fikirli,
dalğın xatirələrim.

Canımın ağrısıdır
saçımın artan dəni,
Göynərtilər üşüdür
qəlbi, ruhu, bədəni.
Uşaq kimi əlimdən
tutub gəzdirir məni,
Yovşan ətri, kəkotu,
yulğun xatirələrim.

Yüz də çağır, harayla,
haray axşam, haray dan,
Nə göylərdən kömək var,
nə çəkdiyim haraydan.
Qopur, düşür, tökülür
ömür adlı saraydan,
Seyrəlir, seyrəkləşir
dolğun xatirələrim.

Hərdən işarə verib
əcəl çalır zəngini,
Ürək saxlaya bilmir
ritmini, ahəngini.
Saralır yavaş-yavaş,
itirir öz rəngini,
Payız yarpağı kimi
solğun xatirələrim.

2009, 31 yanvar

QARIŞIQ YUXULAR

Ağır yatdım, bir qarışıq
yuxu gördüm,
Bu yuxuda bir vahimə,
qorxu gördüm.
Sinəm üstə tez-tez
dəyən zərbələri –
Ürəyimi dəlib-deşən
oxu gördüm.

Bulanmışdı göz yaşından
duru sular,
Axarında lil axıdan
arxı gördüm.
Çərxi-fələk bu yuxunu
tərsə yozsun,
Başım üstə tərsə dönən
çarxı gördüm.

2009, 1 fevral

ÖZÜMÜZ-SÖZÜMÜZ

Dolandıq çöllər boyu,
Yeridik yollar boyu.
Gözlədik illər boyu,
Gedənlər gəlməz oldu.

Kəsmədi savaşını,
Hey yağdırdı daşını.
Zaman gözün yaşını,
Yanaqdan silməz oldu.

Astar olduq, üz olduq,
Dərə, təpə, düz olduq.
Ölən özümüz olduq,
Sözümüz ölməz oldu.

2009, 17 fevral

QAYNAR QAZAN

Daşı, qumu çox doldurma
qəbrimə,
Eh, onsuz da
goreşənlər eşəcək.
Yığılacaq sürünənlər,
uçanlar,
İlan-çayan gözlərimi
deşəcək,
Kef edəcək qarışqalar,
böcəklər,
Məni yeyib kökələcək,
şişəcək.
İnsan candı, dünya
qaynar qazandı,
Hamı bir-bir o qazanda
bişəcək!

2009, 17 fevral

HEÇ OLUB GEDİR

Uşaqlıqda heç belə
ağlamazdım,
İndi daha çox
ağlayıram.
Onda oyuncaqları
sayardım,
İndi dərdlərimi
sayıram.
Dərdim məndən
ağır oldu,
Gözlərimdən tökülən
yaşlar çoxaldı.
Bostançını çərlətdilər,
Bostanıma atılan
daşlar çoxaldı.
Ruhumdakı səksəkələr,
Qəlbimdəki tələşlar
çoxaldı.
Şəhdi-şirəm nə varsa
Arı kimi Dədələrdən
çəkdim.
Ağrım-acım nə varsa
İlan dilli gədələrdən
çəkdim.
Nə çəkdimsə bu dünyada
Gədələrin gəldiyi
hədələrdən çəkdim.
Hədələrin vurduğu
zədələrdən çəkdim.
Ayların, illərin əlində,

Tikanlı çöllərin əlində,
Zəhərli dillərin əlində
Karvandı, beləcə
köç olub gedir.
Ömürdü, beləcə
puç olub gedir.
Varlıqdı, beləcə
heç olub gedir.

2009, 18 fevral

GƏLİR

Qızıl qanı tökülən
qan tökənlə barışmaz,
Ovçulara nifrəti
vurduğu ovdan gəlir.
Ən dəhşətli ağrının
qəmli səsi, sədası
Zillət çəkən əsirdən,
sınmış girovdan gəlir.
İnsan zərbə yedikcə
dönür oda, atəşə,
Qəfil çıxan qığılcım
çaxmaqdan, qovdan gəlir.
Könlümüzün göynəyi,
qəlbimizin ağrısı
Saçımıza tökülən
qardan, qrovdan gəlir!

2009, 18 fevral

ÜRƏYİN ÖLÜMÜ

Nə göyünün ulduzu var,
nə yerinin çiçəyi,
Nə yerinin insanı var,
nə göyünün mələyi.
Nə dəryada tufanı var,
nə səhrada küləyi,
Nə qundaqda körpəsi var,
nə beşikdə bələyi.
Nə təknədə xəmiri var,
nə unluqda ələyi,
Nə işıqlı arzusu var,
nə uğurlu diləyi.
Biri asdı, biri basdı,
biri kəsdi, kiritdi,
Bax beləcə susdurdular
çırpınan bir ürəyi!!!

2009, 19 fevral

TƏƏSSÜF

Nə kövrək ruhun var,
nə yanan canın,
Daha gözlərini
yaş tutmayacaq!
Məni yaşatmağı
bacarmadınsa,
Bizim söhbətimiz
baş tutmayacaq!

2009, 19 fevral

DƏLİ ŞAİR

Heç bir sualda,
heç bir cavabda,
Heç bir yazıda,
heç bir kitabda
“Ağıllı şair” sözünə
rast gəlmədim.
“Dəli şair” dedilər
şairə,
Şair tanımadı
ölçü, sərhəd, dairə.
Dərisi soyulan Nəsimi –
haqqın dəlisi,
Ciyəri şişən Sabir –
xalqın dəlisi.
Qeysə Məcnun dedilər,
Koroğlunun aşığına Cunun dedilər.
Mahmuda Kərəm dedilər,
Yəhya bəyə Dilqəm dedilər.
Dəli şair dedilər Səmədə,
Vurğun dedilər, çılğın dedilər,
dalğın dedilər.
Müşfiq Dilbərin dəlisi,
Vurğun Dürrənin dəlisi.
Şair bəzən elə coşur,
Bir dünyaya sığa bilmir
bircə zərrənin dəlisi.
Yanır qəlbi, yanır bağrı,
Gedir öz eşqinə doğru.
Heç bilmir
başının üstündəki

Doğan Günəşdimi,
tökülən doludumu,
yağan qardımı.
Ürəyi vardı, şair oldu,
Ağlı olsaydı, şair olardımı?!
Gedib daş daşıyardı,
divar çəkərdi,
Torpaq becərərdi,
ağac əkərdi.
Günü göy əsgiyə
bükülməzdi,
Gördüyünə görə
gözləri tökülməzdi.
Bəbəkləri oyulmazdı,
Diri-diri dərisi
soyulmazdı.
Öz dərdini çəkərdi,
Özgələrin dərdini
içində yaşatmazdı.
Qanan, qanmayan
bostanına daş atmazdı.
Cana doymazdı hədələrdən,
Tənə yeməzdi gədələrdən.
Nə yediyi ağı,
nə içdiyi zəhər olardı.
Nə qəlbində bu qədər qəm,
Nə gözündə bu qədər
qəhər olardı.
Zorəntəbib şairlər
Yüz də yazsın, yaratsın,
Kimə nə ziyanı,
kimə nə xeyri.
Allahın özü yaradır
vergili şairləri,
ilahi şeiri.

Bir Allahdan başqa
Yoxdu köməyi,
arxası, yardımı,
Ürəyi vardı,
vuruldu şair oldu,
Ağlı olsaydı,
bu qədər zülmlər çəkib
şair olardımı?

2009, 13 aprel

MƏN SƏNƏ ŞAİR GÖZÜYLƏ BAXIRAM

Gülürsən, sevinirsən,
yanağında lalə görürəm.
Ağlayırsan, hönkürürsən,
gözlərində şəlalə görürəm.
Tutulursan, dolursan,
baxışında bulud görürəm.
Susursan, kiriyirsən,
dodağında sükut görürəm.
Sevirsən, sevilirsən,
sabaha uçuşlarını görürəm.
Cəh-cəh vurub oxuyursan,
səsində cənnətin
quşlarını görürəm.
Kövrəlirsən, qəlbində dünyanın
qəmini görürəm.
Danışırsan, nəfəsində könlümün
həmdəmini görürəm.
Bütün zamanların
ruhu səndədi,
Mən sənə baxanda
Bütün zamanları,
Zamanların içində
Hər saniyəni,
hər saatı görürəm.
Sən mənim həyatımsan,
Hirsində, qəzəbində,
Sevgində, əzabında,
Tükənməz həsrətində,
Sonsuz məhəbbətində,
Şahanə duruşunda,

Ağır oturuşunda
mən həyatı görürəm.
Bir insan varlığında,
sevgi xumarlığında
Allahın yaratdığı
Kainatı görürəm.

2009, 13 aprel

DAŞLAR KİMİ

Şair ömrü daş ömrüdü,
Yer üzünün hər küncünə
səpilmişəm daşlar kimi.
Sirr yerinə çevrilmişəm,
Pir yerinə çevrilmişəm,
öpülmüşəm daşlar kimi.
Nə zaman ki, büt olmuşam
İbrahimin baltasıyla
çapılmışam daşlar kimi.
İnsan əli mənə qayğı göstərəndə
Saray olub, ehram olub,
heykəl olub
Yoğrulmuşam,
yapılmışam daşlar kimi.
Məni sevən, məni duyan
olmayanda
Bu dünyanın sirləriylə
Öz içimə, öz dünyama
qapılmışam daşlar kimi.
Zəlzələlər atıb məni
yer altına,
Min il sonra olsa belə
itməmişəm,
tapılmışam daşlar kimi.

2009, 14 aprel

KƏSDİLƏR

Dalğalara həsrət qaldı,
dənizlərə tamarzı,
Yaxşı üzən şairlərin
qollarını kəsdilər.
Qələmini sındırdılar,
dəftərini aldılar,
Yaxşı yazan şairlərin
əllərini kəsdilər.
Sözü gözdən salmaq üçün
qılınc mindi hörmətə,
Haqqı deyən şairlərin
dillərini kəsdilər.
Bülbül kimi ötən sazı
çırpıb qara daşlara,
Pərdələri doğradılar,
tellərini kəsdilər.
Şair dili, şair əli,
şair yolu kəsənlər
Özlərinin haqqa gedən
yollarını kəsdilər.

2009, 15 aprel

BƏXT QUŞU HARDADI HƏR BAŞA QONA

Yaşamaq uğrunda
yarışır hamı,
Kim yeyin yeriyir,
kim yavaş gedir.
Kimi savaşdadı,
kimi barışda,
Gah sülh imzalanır,
gah savaş gedir.

Arxanı tap ata,
tap ana kimi,
Dayanma o gücü
tapana kimi.
Bir işi yoğurub
yapana kimi,
Candan can üzülür,
gözdən yaş gedir.

Kimi toyundadı,
kimi vayında,
Hərə öz hayında,
öz harayında.
Kimi xanım olur
şah sarayında,
Kimi kəniz olur,
qarabaş gedir.

Nə göl var, nə də ki,
yaşılbaş sona,
Bəxt quşu hardadı
hər başa qona.

Heç nəyi çatdıra
bilmirik sona,
Həmi ömür gedir,
həmi yaş gedir.

Uca tut mənliyi,
nə yanıl, nə çaş,
Hamıya verilmir
həm iştah, həm aş.
Xoşbəxtin bağında
gül bitirir daş,
Bədbəxtin dalınca
qara daş gedir.

2009, 21 may

BÖYÜK ŞAİRLƏRİN BÖYÜK DƏRDİ VAR

Düymələri cırdı, meyvələri kal,
Vətəni də satır, şair satanlar.
Döşdəki tikandı, çöldəki qanqal,
Nifrətlə oyanıb, kinlə yatanlar.

Böyük şairlərin böyük dərdi var,
Yeyir düşmənləri, yeyir dostları.
Sonra da çəkilib küncə, bucağa,
Ağzına nə gəldi deyir dostları.

Nə ruhun, nə canın qədrini bildi,
Yedirtdi içini qurda şairlər.
Böyük şairlərə qənim kəsildi,
Xırda şairciklər, xırda şairlər.

2009, 22 aprel

AZADLIQ

Azadlıq deyəndə göyə baxıram,
Görəsən göylərdə quş azaddımı?
Quşun xəyalından nə keçir görən,
Beyin azaddımı, baş azaddımı?

Nə yanmaq, nə sönmək öz hökmündədi,
Kiməsə əsirdi, şam azad deyil.
Dünyanın ən azad adamı kimdi,
O da bu dünyada tam azad deyil.

2009, 25 aprel

GÜNAH

Günahım yerlərə,
göylərə sığmaz,
Nə Allah, nə bəndə
bağışlar məni.
O qədər ağladım
günahlarıma,
Yuyub aparacaq
yağışlar məni.

2009, 15 may

QORXURAM

Od yanır, oddan qorxuram,
Su daşır, sudan qorxuram.
Odnan suyun arasında,
Qalan arzudan qorxuram.

2009, 22 may

RƏHMƏT OXUYUN

Heç kəsə açmadı
ürək sirrini,
Özüylə apardı
dərdini zalım.
Dərdini qəlbində
dəfn edənlərə,
Bir rəhmət oxuyun,
dərdiniz alım.

2009, 22 may

GÖZ QIRPIMI

Dünya sonsuz, əbədi,
Ömür bir göz qırpımı.
Öz ahım yandıracaq,
Odunumu, tüstümü.

2009, 22 may

QANADLARIM-AYAQLARIM

Göylərdən başıma
yağdı daş-qaya,
Aldılar gücümü,
dayaqlarımı.
Qanadlı gəlmişdim
mən bu dünyaya,
Sürüyüb gedirəm
ayaqlarımı.

2009, 22 may

SÖZÜN HƏYATI

Hər yerdə uğurlu tale gözləyər,
Saf niyyət sahibi, saf ər şairi.
Gədiklər başında Lələ gözləyər,
Hər gün səfərdədi səfər şairi.

Onu təyyarələr qaldırar göyə,
Gəmilər limandan limana çəkər.
Şairin səfəri beş günlük deyil,
Tarixi – zamandan zamana çəkər.

Şeirini varağa köçürmək üçün
Durnalar göylərdən lələk göndərər.
Yerdə insan olar gücü, sirdaşı,
Göydən ilhamını mələk göndərər.

Şair bu dünyanı boşuna gəzməz,
Hər səfər bir tarix, bir kitab olar.
Şairin ürəyi dolar, boşalar,
Sözün həyatında inqilab olar.

2009, iyul

ALLAH VERGİ VERƏNDİ

Təbiəti yağıştək
hopduranda canına,
İnsanın ürəyində
nurlu bir aləm olur.
Zəngulə də, layla da,
pıçıltı da, nərə də
Bir canda qərar tutub,
bir ürəkdə cəm olur.

Cansız heç nəyi yoxdur
bu can alan Allahın,
Yaratdığı nə varsa
hər varlığın canı var.
Yağışın da, qarın da,
dolunun da, şehin də,
Dünyanı çalxalamaq,
durultmaq imkanı var.

Bu, Tanrı fürsətidi,
şair, vermə əlindən,
Çöllərindən bərəkət,
tellərindən dən götür.
Allah vergi alan yox,
Allah vergi verəndi,
Hər kəsə bir pay verir,
ilhamı da sən götür.

2009, 10 avqust

ÜMİD

Zaman hər bir şeyi açdı, ağartdı,
Daha bu dünyada gizli nə qaldı.
Tökdü üzümüzün suyunu dünya,
Suyu tökülməmiş üzlü nə qaldı.
Qırdı ümidləri aşkar olanlar,
Yenə ümidimiz gizlinə qaldı.

2009, 21 avqust

TÜRKÜSTAN–ANADOLU YOLLARINDA

XEYİR-DUA VER

Yer oğlunu fələklərə qaldırar,
Bir az insaf, bir az iman, bir az din.
Ürəkləri damar-damar sındırar,
Bir az nifrət, bir az qəzəb, bir az kin.

İşıqlanmaz nə sarayı, nə damı,
Olmaz ömrün nə ləzzəti, nə tamı.
Allahından ayrı salar adamı,
Bir az iblis, bir az şeytan, bir az cin.

Sözlərindən sözümüzə ziya ver,
Xəmrəmizə halallıqdan maya ver.
Qorqud Dədəm, bizə xeyir-dua ver,
Bir az danış, bir az söylə, bir az din.

Bayburt, 2009, iyul

SEVGİLƏR ÇOX DÜŞÜB QARA-BORANA

Ərzrum dağları, xoş gördük səni,
Qarşına söhbətdə, sazda gəlmişəm.
Kərəm bu yalları qışda keçirdi,
Mən sənin qoynuna yazda gəlmişəm.

Hər ömrü bir eşqin dağı yandırar,
Hərəni bir qızın həyatı çəkər.
"Kərəmi" kökündə yanan aşıqlar
Ərzrum üstündə bayatı çəkər.

Ərzruma,
Yol gedir Ərzruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Bu dağlar nə qədər Lələlər uddu,
Bu düzlər nə qədər Kərəmlər yedi.
Birinin içini ayrılıq odu,
Birinin içini vərəmlər yedi.

Yəqin ki, salamat keçən olmayıb,
Bu sərt enişləri, bu sərt dikləri.
Sazın tellərində oda çevirdi,
Kərəm dilə saldı bu gədikləri.

Sevgilər çox düşüb qara, borana,
Dözən dözümündə fil olmalıymış.
Bir keşiş qızına Gəncədən keçən,
Elə İstanbulda kül olmalıymış.

Ərzrum, 2009, iyul

QIRĞIZ QIZI

Kımız verdi mənə qırğız gözəli,
Qəlbin yanır, al, doyunca iç dedi.
Çöl istidi, yurd sərindi, yer rahat,
Gün vurmasın, kölgəliyə keç dedi.

Gül yanında çox boylanma güllərə,
Aşiqim ol, sal eşqimi dillərə.
Köç-köç olub nə düşmüsən çöllərə,
Can mənimdi, ürəyimə köç dedi.

Bu yurd mənim dürrüm, ləlim, mərcanım,
Burda yanan ocaq canım, pir canım.
Qurbanlığa bir başım var, bir canım,
Buyur, indi sevdiyini seç dedi.

Bişkək, 2009, iyul

ŞƏHƏR QOCASI

İmkanımız ətəkdə
süründü zaman-zaman,
Olsa da hər arzumuz
ucaların ucası.

Korun-korun alışdıq,
tüstüləndi içimiz,
Yanar ağzımız oldu
tüstülərin bacası.

Zaman çox böyükləri
xırdaladı pul kimi,
Həyatla düz gəlmədi
qafiyəsi, hecası.

Bu dünya mənimlə də
çox oyunlar oynadı,
Mən bir kənd uşağıydım,
oldum şəhər qocası.

2009, iyul

QOCALIQ – YORĞUNLUQ

Yaş ağırlıq gətirir,
yaş fağırlıq gətirir.
Lal durğunluq gətirir,
küt yorğunluq gətirir.
Göz baxmaqdan yorulur,
əl tutmaqdan yorulur.
Ürək duyduqlarını
unutmaqdan yorulur.
Allah bəndədən bezir,
bəndə haqdan yorulur.
Canda nə var əriyir,
qanda nə var çürüyür –
Dözümə, səbrə qədər.
Yorulmaq yoldaşımız
beşikdən qəbrə qədər.
Ömür belə paylanır
ağrılara, dincliyə.
Ömür belə paylanır
qocalığa, gəncliyə.
Dünya belə dünyadı:
Körpəninki ağlamaq,
uşağınkı dəcəllik.
Yorğunluğun gəldisə
qocalığın yetişib.
Qalan nə var ölümlük,
qalan nə var əcəllik!

Trabzon, 2009, iyul

NƏ YAXŞI QİBLƏ VAR

Dağ da namaz qılır, daş da, ağac da,
Əyilir torpağa, ucalır göyə.
Dilində dualar düzülür səfə,
Tanrı dərgahına qovuşsun deyə.

Dağlar namaz qılır düzlərə sarı,
Düzlər namaz qılır dağlara sarı.
Şükür duasıdı öz Allahına,
Çiçəyin, yarpağın pıçıltıları.

Canlı da, cansız da can atır göyə,
Qüvvəti yerdədi, dayağı yerdə.
Bütün inamların, əqidələrin
Başı buluddadı, ayağı yerdə.

Fəsillər özü də namaz üstədi,
Səcdədə həm qış var, həm yaz var, Allah.
Çoxdan itirərdi dünya səmtini,
Nə yaxşı qiblə var, namaz var, Allah.

2009, 30 iyul

YAXŞI Kİ...

Səhərə salamat çıxmaz bu gecə,
Dan yeri zülməti atacaq çölə.
İşıq doğulmasa qaranlıq ölməz,
İnsanın göz yaşı çevrilər gölə.

Sabahın nuruyla yuyular, ancaq
Gecənin nə qədər günahları var.
Ümid nöqtəsidi, inam yeridi,
Yaxşı ki, dünyanın sabahları var.

2009, 31 iyul

MƏNƏ SƏHƏRİ VERİN

Gecələri istəmirəm,
Gecənin qaranlığı var.
Qaranlığı istəmirəm,
Zülməti, toranlığı var.
Qaranlığı görəndə
Qara paltarlı,
Qara əlli,
Qara əməlli,
Qara niyyətli adamların
Qara illərdə döydüyü
qapılar yadıma düşür.
Müşfiqlər, Cavidlər,
Cavadlar yadıma düşür.
Mənə səhəri verin, səhəri!
Dilində dünyanın
xeyirli xəbəri.
Əritsin Günəşi
Axşamdan qalan xiffəti,
Gecədən yığılan qəhəri.
Dan yeri gözümün
işığı,
Qəlbimin təpəri.
Mənə səhəri verin,
səhəri!

2009, 1 avqust

QUYU

Yaza-yaza gəzmişəm,
gəzə-gəzə yazmışam.
Mənə quyu qazmayın,
öz quyumu qazmışam.

2009, 15 avqust

QORXU

Külək ocağını keçirsə, qorxma,
Fələk ocağını keçirəndə qorx.
Yağ-balın içinə qatıb ağını,
Sənə zəhərini içirəndə qorx.

Söküb sarayları, yıxıb damları,
Gözündən keçirib yanan şamları.
Gündüzün ən ağır ittihamları,
Gecələr yuxunu qaçıranda qorx.

2009, 18 avqust

QAFİYƏ

Bir canın içində
min bir cahan var,
Yerin ləngəriyəm,
göyün səsiyəm.
Bir yanda Yəsəvi,
bir yanda Teymur,
Ulu Səmərqəndəm,
qədim Yəsiyəm.
Qalib gələn də mən,
məğlub olan da,
Sevincin ziliyəm,
dərdin pəsiyəm.
Türküstan canımdı,
Turan varlığım,
Turanla Quranın
qafiyəsiyəm!

Səmərqənd,
2009, iyul

TEYMURUN VƏSİYYƏTİ

Burda gərək deyil sözü uzatmaq,
Qərar verilmişdi, fikir qətiydi.
Müəllimin ayağı altında yatmaq,
Teymurun müqəddəs vəsiyyətiydi.

“Mənim məzarımı öz ustadımın
Ayağı altında qazdırın”, – deyib.
“Ondan yuxarıya çəkməyin məni,
Ondan aşağıda basdırın”, – deyib.

Qızıla tutublar dediklərini,
Müəllim başdadı, Teymur ayaqda.
Ulu sərkərdənin ağlı, hikməti,
Həm qəbrə şöhrətdi, həm uca taxta.

Mərmər lövhələrdən bizə göz vurur,
Daşlar üzərində zamanın yaşı.
Tarixin ən böyük ibrət dərsidir,
Müəllimin ayağı, Teymurun başı.

Dünyanın ən böyük bir cahangiri,
Dünyanı mat qoyub bir niyyətiylə.
Ölkələr fəth edən dünya fatehi,
Könüllər fəth edib vəsiyyətiylə.

Səmərqənd,
2009, iyul

ƏHMƏD YƏSƏVİYƏ
ZƏLİMXAN SALAMI

Salam, Xoca Əhmədim,
salam, Yəsəvi babam!
Bu gün Yəsəviləşdi
könlümün evi, babam!
Təriqətin imamı,
həqiqətin tamamı,
Ey ruhumun məbədi,
Səni bütün nəsillər
sevdikcə sevir, babam!
Qəbrinə, məzarına,
Haqqa doğru yol gedən
əbədi güzarına
bizdən salamlar olsun!
Dərsinə, məktəbinə,
Ən uca mətləbinə,
Nuruna, ilhamına,
işığına, təbinə,
bizdən salamlar olsun!
Bir xurma toxumundan
boy göstərən Günəşə,
Aslan baba adıyla,
Sənə öz əlləriylə
buğda verən həbəşə,
Peyğəmbər əmanəti
əllərinə çatanda,
Ruhunda, varlığında
alovlanan atəşə,
bizdən salamlar olsun!
Mürşidi kamillərin
ucalardan ucası,

Yunusun, Mövlananın,
Hacı Bəktaş Vəlinin
müəllimi, xocası,
Sirr dolu, hikmət dolu
qoca Şərqin qocası –
Sirli ucalığa da,
Dolu xocalığa da,
Müdrik qocalığa da
bizdən salamlar olsun!
Diri-diri torpağın
altına girən kişi,
Torpağın altına da,
Torpağın üstü kimi
yaraşıq verən kişi.
Sənin ruhunla bağlı,
Dastanlara sığmayan,
Neçə-neçə dastana,
Türk-Oğuz ellərinə,
Yəsiyə, Türküstana
bizdən salamlar olsun!
Milyonlar salam verib
uyuduğun torpağa,
Məzarını bürüyən
hər gülə, hər yarpağa,
Bu gün verilən salam,
Ruh və can salamıdır!
Ürəyinin başında,
Azərbaycan gəzdirən,
Zəlimxan salamıdır!!!

Türküstan,
2009, iyul

DÖVLƏT ATAM, MİLLƏT ANAM

Yaradanın dəftərində
adı başdan yazılanam,
Peyğəmbərin meracına
mələklərlə tən gəlmişəm.
Savaşlara sərkərdəyəm,
barışlara bayraqdaram,
Harda dara düşən olsa
çağrışına mən gəlmişəm.

Qoca tarix qarşısında
açıq alın, ağ üz mənəm,
Qopuz mənəm, toppuz mənəm,
doqquz mənəm, oğuz mənəm.
Türk eşqinə dastan yazan
qələm mənəm, kağız mənəm,
Dövlət atam, millət anam,
çox-çox ötədən gəlmişəm.

Düşmən elə bilməsin ki,
yer altında itən daşam,
Qədimlərdən qaynaq tutan
damar-damar bitən daşam.
Mən dünyada bu dünyanın
özü boyda vətəndaşam,
Atillanın qırmancıyam,
ulu Metedən gəlmişəm.

Hara dönüb, hara baxsan
yerdə mənəm, göydə mənəm,
Sazda mənəm, tarda mənəm,
udda mənəm, neydə mənəm.
Yaradanın yaratdığı
xoş olan hər şeydə mənəm,
Altı nədir, altmış nədir,
min-min qitədən gəlmişəm.

Türküstan,
2009, iyul

YOL

Yol getməyi sevirəm,
İstər piyada, istər atlı.
İstər qanadsız,
istər qanadlı.
Yol getməyi sevirəm,
İstər yoxuş olsun,
istər eniş.
Harda istəsən dayan,
yol uzun, meydan geniş.
Yol getməyi sevirəm,
Yağış olsun,
qar olsun,
Ya sərt tufanlı bir qış,
Ya güllü bahar olsun.
Yol getməyi sevirəm,
Dolanmaq istəyirəm
dolayların başına.
Dincəlmək istəyəndə
Baş qoymaq istəyirəm
Mamırlı qayasına,
qara, çopur daşına.
Yollarda durulmuşam,
Yollarda dirilmişəm.
Ox kimi atılmışam,
Yay kimi gərilmişəm.
Yollarda cığır salıb,
Yollarda yol olmuşam.
Üfüqlərə, göylərə
Uzanan qol olmuşam.
Yol getmək istəyirəm,

Çəni də, çisəyi də,
Daşı da, kəsəyi də
Əriyə zərrə-zərrə,
hopa mənim canıma.
Dönə təriqətimə,
dinimə, imanıma.
İstəmirəm min il yaşayam,
Ömrümün üstünə, ömür,
Canımın üstə can gələ.
Öləndə də yollarda
ölmək istəyirəm,
Ölüm xəbərim evdən yox,
Ruhumun, canımın,
Dinimin, imanımın,
Əbədi beşiyi,
Yollardan gələ!

Bişkək,
2009, iyul

MƏNDƏN SALAM OLSUN

Məni yer üzündən ayırma, Tanrım,
Yerdə sirdaş elə çiçəklərinə.
Məni göy üzündən ayırma, Tanrım,
Dərdimi söyləyim fələklərinə.

Öpüm sıldırımı, qayadan keçim,
Çəkim sığalımı, səhradan keçim.
Dalğayla danışım, dəryadan keçim,
Qoş məni çöllərin küləklərinə.

Harda cıdır varsa yarışım olsun,
Harda savaş varsa barışım olsun.
Sağlam toxum olsun, qara şum olsun,
Qanad tax qəlbimin diləklərinə.

Əzəldən dostuyam ağrının, ahın,
Bir sadiq quluyam eşq adlı şahın.
Məndən salam olsun qadir Allahın,
Mənə salam verən mələklərinə.

Bişkək,
2009, iyul

UÇUŞLAR

Bütün ömrüm boyu, həyatım boyu,
Quş kimi uçmuşam yuxularda mən.
Qonub ən dəhşətli sıldırımlara,
Cəsarət tapmışam qorxularda mən.

Çaldıqca çalmışam qanadlarımı,
Ətəkdən zirvəyə, dərədən dağa.
Üfüqlər həmişə hazır dayanıb,
Öz şair oğlunu qucaqlamağa.

Mənim qanadlanmış yuxularıma,
Daş da atan olub, güllə atan da.
Qayıdıb hər kəsin özünə dəyib,
Mənə çatmayan da, mənə çatan da.

Harda uçmaq olar, harda dayanmaq,
Quş dili öyrətdi bu quşlar mənə.
İqlimdən-iqlimə soraq apardı,
Tanıtdı dünyanı uçuşlar mənə.

Saymaqla qurtarmaz, deməklə bitməz,
Yuxuda nə gördüm, kimləri gördüm.
Tilsimlər sındırdım, qıfıllar açdım,
Xəyala sığmayan dəmləri gördüm.

Özümü göylərin yeddi qatında,
Gücümü qırılmaz qanadda gördüm.
Tuşuma gələnlər başıma gəldi,
Hamısı çin oldu həyatda gördüm.

Sevgim sal qayada gül bitirəcək,
Daşlar göyərəcək, mamır bitəcək.
İlahi, bitirmə uçuşlarımı,
Uçuşlar bitəndə ömür bitəcək.

Türküstan,
2009, iyul

NƏ YAXŞI

Evdə ruh sıxılıb, can darıxanda,
Nə yaxşı çıxmağa səfər var, Allah.
Boğanda insanı zülmət gecələr,
Nə yaxşı açılan səhər var, Allah.

Min dəfə xəmirtək qarışdır, yoğur,
Dərdimiz dərindi, yükümüz ağır.
Yenə dan sökülür, yenə gün doğur,
Deyəsən xoş gələn xəbər var, Allah!

Ömrümüz daha da kəm olardı, kəm,
İllərlə yanaqda qurumazdı nəm.
Nə yaxşı insandı insana həmdəm,
Nə yaxşı yer üstə bəşər var, Allah.

Daşkənd,
2009, iyul

DƏRDİM – DƏMİR
QAPI DƏRBƏNDİM

Mənim olan mənim deyil,
Sevinc dərdə qənim deyil.
Vətənim qürbətə döndü,
Bu mənim Vətənim deyil.

Millət ətri verən gülü,
Vətən dadan suyu yoxdu.
Çox quyular qazdı düşmən,
Bundan dərin quyu yoxdu,
Bu mənim Vətənim deyil.

İçi içimə oxşamır,
Çölü çölümə oxşamır.
Mənim dilimdə danışır,
Mənim dilimə oxşamır,
Bu mənim Vətənim deyil.

İz mənim, naxış mənimdi,
Göz mənim, baxış mənimdi.
Yerində çiçək mənimdi,
Göyündə yağış mənimdi,
Bu mənim Vətənim deyil.

Güc işidi, zor işidi,
Fənd işidi, tor işidi.
Əti dırnaqdan ayırmaq
Kafir, gorbagor işidi,
Bu mənim Vətənim deyil.

Dərbənd dərdin yekəsiymiş,
Yadın yağlı tikəsiymiş.
Ağrıları parça-parça
Ciyərimi sökəsiymiş,
Bu mənim Vətənim deyil.

Məclisi var, ozanı yox,
Məscidi var, əzanı yox.
Dərd, dərd üstə qalaq-qalaq,
Olduğutək yazanı yox,
Bu mənim Vətənim deyil.

Narınqala – qalam olmaz,
Balası var – balam olmaz.
Burdan ora salam getməz,
Ordan bura salam olmaz,
Bu mənim Vətənim deyil.

Dərbəndimiz dəmir qapı,
Qapı ömür, ömür qapı.
Ha döyürəm, çağırıram,
Mənə heç nə demir qapı.

Üç yüz illik bir yaradı,
Bağrı min yerdən paradı.
Qapısının rənginə bax,
Qəzəbindən qapqaradı.

Daşıdığım dərd də belə,
Götürdüyüm yük də belə.
Borçalı da bu gündədi,
Təbriz də, Kərkük də belə.
Yağım var it dərisində,
Balım eşşək arısında.

Həsrəti var gözlərimin
Qarasında, sarısında.
Mənim dərdim siyasətin
Küpəgirən qarısında.
Kök mənim, budaq özgənin,
Baş mənim, papaq özgənin.
Çiçəyi çəmənim idi,
Libası kəfənim idi,
Torpağı vətənim idi.
Dünənə bax, ay eloğlu,
Sənin idi, mənim idi.
Bu mənim Vətənim idi,
Bu mənim Vətənim deyil!

Dərbənd,
2009, iyul

KOROĞLUNUN MƏZARI

"Koroğlu" dastanı – yaddaş sərvəti,
Dastanın son sözü, bölümü yoxdu.
Orda Koroğlunun qocalığı var,
Orda Koroğlunun ölümü yoxdu.

Bəlkə, şimşək kimi çaxıb buludda,
Bəlkə, heykəl kimi daşa çəkiblər.
Bəlkə, bir qaladı, qalxıb dağlara,
Zirvədə hörmətlə başa çəkiblər.

Öldürməz igidi nə zindan, nə dar,
Onun ölüm adlı güzarı yoxdu.
Hər yerdə Koroğlu qalaları var,
Heç yerdə Koroğlu məzarı yoxdu.

Ərzrum, 2009, iyul

ZƏLİMXAN GƏLİR

Çatıram Ərzrum gədiklərinə,
Yenə xəyalıma xoş bir an gəlir.
Ömrümün üstünə təzə bir ömür,
Canımın üstünə təzə can gəlir.

İsti nəfəsindən tanıdım onu,
Sevgidi əvvəli, sevgidi sonu.
Hər gün təzələnir dünyanın donu,
Təzə sübh açılır, təzə dan gəlir.

Çiçək dəstə-dəstə, gül qucaq-qucaq,
Şəlalə zirvənin gərdənində saç.
Ərzrum dağları, qollarını aç,
Kərəmin dalınca Zəlimxan gəlir.

Ərzrum, 2009, iyul

QOŞQAR UCALIĞI

Gör hansı dağların zirvəsindəyik,
Gör bizi haraya qaldırıb fələk.
Bu yerə iblislər əl ata bilməz,
Burda sirdaşımız peyğəmbər, mələk.

Tanrının dilində səslənsin adım,
Ucalıq adlanan nemətdən dadım.
Şeiri burda yazım, burda yaradım,
Göylər söz endirsin, durnalar lələk.

Xəbər ver gizlindən, aşkardan mənə,
Yaz güldən pay olsun, qış qardan mənə.
Allahım, murad ver Qoşqardan mənə,
Ruhumdan meh öpsün, alnımdan külək.

Boyumun üstünə boy burda gəlsin,
Nişan burda gəlsin, toy burda gəlsin.
Ölüm gələndə də qoy burda gəlsin,
Tabutum gül olsun, kəfənim çiçək.

Daşkəsən,
2009, 14 avqust

ÇİÇƏK KİMİ

Haqqa doğru hər gün qalxım, ucalım,
Çiçək kimi hal-əhvalı şən olum.
Ürəyimdə ağır ellər yaylasın,
Yaylaq kimi əl-ətəyi şən olum.

Yellər ilə, sellər ilə yarışım,
Ətirlənsin hər addımım, qarışım.
Şehə dönüm, çiçəklərə qarışım,
Süsən olum, sünbül olum, dən olum.

Bircə anım qoy getməsin boşuna,
Misralarım dönsün qara qoşuna.
Şeirim gəlsin Xoşbulağın xoşuna,
Havalanım, zirvələrə tən olum.

Çəmən yaşıl, gözəl zərif, gül incə,
Cavanlaşdım bu yerlərə gəlincə.
Tüstülərin his-pasında ölüncə,
Bir dərədə bircə əlçim çən olum.

Zəlimxanı yada salın, yoxlayın,
Ömür sürün, yüz illəri haqlayın.
Daşkəsəndə daş kəsməyi saxlayın,
Məni kəsin, qurbanınız mən olum.

Daşkəsən,
2009, 14 avqust

XOŞ TAMAŞA

Bu dağlar nə qədər ozan yaradıb,
Hər sözü dillərdə bir dəftər gəzib.
Sığınıb Allahın ucalığına,
Hərə öz eşqinə bir səngər gəzib.

Məclisi məzəli, söhbəti şirin,
Mətləbi müqəddəs, mənası dərin.
Səsi Haqqa çatan ər kişilərin
Sözü dodaqlarda təzə-tər gəzib.

Zəlimxan, hər zirvə bəydi, paşadı,
Adı nəğmələrə düşdü, yaşadı.
"Xoşbulaq yaylağı xoş tamaşadı", –
Burda məndən əvvəl Ələsgər gəzib.

Daşkəsən,
2009 , 16 avqust

ATA-BEYTİ ZİYARƏT

(Çingiz Aytmatovun məzarı başında düşüncələr)

Bişkəkdən Pamirin ətəklərinə bir yol uzanır. Həsrət və nisgil, heyrət və sevgi dolu duyğularla dağlara qalxıram. Bu dağların ətəklərində mübarək bir ziyarətgah var. XX əsr dünya ədəbiyyatının ən böyük yazıçılarından biri olan Çingiz Aytmatovun məzarını ziyarətə can atıram. O yerə can atıram ki, orda qanlı Stalin rejiminin günahsız qurbanları içərisində Çingiz Aytmatovun atası Terequl kişi də var. Çingiz Aytmatov öz vəsiyyətinə görə atası uyuyan yerdə torpağa tapşırılıb. Hələ ki, üstündə xatirə abidəsi ucaldılmayıb. Hələ ki, xatirə abidəsini qəbrinin üstündə dağ kimi ucalan güllər-çiçəklər əvəz edir.

"Çingizxanın ağ buludu"
başının üstə,
Ata-Beytə, xan Çingizə
salam göndərir.
Burda Quran dilə gəlir,
Manas oxunur,
Tanrı sənə dərgahından
kəlam göndərir.

Yoxluğunu, həsrətini
düşünəndə mən,
Ayağımın altındakı
torpaq, daş qaçır.
Ulduzlara baxa-baxa
Çingiz axtarır,
Bir "dənizin sahiliylə
alabaş qaçır".

Yetimliyin heç bir zaman
açılmır donu,
Hər yetimin qəlbindəki
bir qarlı qışdı.
Sənin körpə ürəyini
yetmiş il əvvəl,
Terequla dəyən güllə
yaralamışdı.

Qırğız ruhlu Manas oğlu,
Talas övladı,
Ata-Beyti öz arzunla
seçdinmi gəldin?
Damağında sərt ölümün
qorxulu dadı,
Otuz yeddi tufanından
keçdinmi gəldin?

Nayman ana tanıdımı
öz balasını,
Ana maral qəbrin üstə
gəlib yatdımı?
Qara yellər aman vermir
Sarı-Özəkdə,
Yedigeyin duaları
sənə çatdımı?

Baş pozulur, huş dağılır,
yaddaş itirsə,
Nə insanın, nə millətin
sabahı yoxdu.
Düz söylədin, haqq söylədin,
Çingizim mənim,
Manqurtlaşan bir bəşərin
Allahı yoxdu.

Ata bilməz, yurd anlamaz,
ana tanımaz,
Haram olsun öz kökünü
unudanlara.
Salam olsun manqurtluğun
faciəsini,
Həm özünə, həm özgəyə
tanıdanlara.

Çox yazılar toz altında
itib-batacaq,
Çox imzalar varmı-yoxmu,
bilinməyəcək.
Nayman ana fəryadına
daşlar əriyər,
Min il keçsə yaddaşlardan
silinməyəcək.

Balıq-Qadın səndən ötrü
göz yaşı töküb
Cəmilələr görüşünə
gələcək sənin.
Çatlatmazdı Gülsarını
dağ boyda dərdlər,
Xiffətindən, həsrətindən
öləcək sənin.

Ozanlar da, akınlar da
səs-səsə versin,
Bu dünyaya Çingiz adlı
bir dastan gəlir.
Ruhundakı müqəddəslik
Bilgə xaqandan,
Sözündəki tükənməzlik
Manasdan gəlir.

Hər gün səni düşünürdü,
səni anırdı,
Qərbi Şərqə, Şərqi Qərbə
bağlayan qatar.
Dünən sənin varlığınla
qanadlanırdı,
Bu gün sənin yoxluğuna
ağlayan qatar.

O qatarlar şütüyəcək
belədən-belə,
Arxasınca min əl qalxıb,
min göz baxacaq.
O qatarın hər işıqlı
pəncərəsindən,
Terequlun yadigarı
Çingiz baxacaq!

Bişkək, 2009, iyul

SƏMƏRQƏND APARIRAM

Sənələrlə can atdım
Səmərqəndi görməyə,
Telinə sığal çəkib
saçlarını hörməyə.
Nağıldan, əfsanədən
qabaq yaranmış şəhər,
Zamanın yelləriylə
ruhu daranmış şəhər.
Ayaqda dəmir çarıq,
əlimdə dəmir əsa,
gəldim yol basa-basa.
Gəldim, gördüm, vuruldum.
Daldım düşüncələrə,
Zamanın nehrəsində
Silkələndim ayıldım,
çalxalandım, duruldum.
Nələr danışdı mənə
İşığın, təfəkkürün
ilhamın gur şəhəri,
Əmir Teymur şəhəri!

Göylərin yaratdığı
salxım-salxım işıqdan,
Yerlərin yaratdığı
min cürə yaraşıqdan,
Körpə dodaqlarının
nurlu təbəssümündən,
Nəğməli könüllərin
dil-dil ötən simindən,
Çəmənin çiçəyindən,
çiçəyin ləçəyindən,

Nazların şirinindən,
qızların göyçəyindən,
Nurani qocaların
alnındakı qırışdan,
Ulu sənət naminə
min cürə axtarışdan,
Ancaq Allaha bağlı
örtülü sirdən,
Memar əllərindəki
ilahi bir sehrdən,
Daşların tarixindən,
tarixlərin yaşından,
Qədim kitabələrin
pozulmaz yaddaşından
Burda naxış var,
iz var.
Dəniz boyda sevgi var,
sevgi boyda dəniz var!

Həsrətli könüllərin,
ağrıların, ahların,
Haqsız axan qanların,
tutulan günahların,
Çıxarılan gözlərin,
kəsdirilən başların,
Hər damlası od olan
gözdən axan yaşların,
Döyüşən orduların,
çarpışan əsrlərin,
Əsirlər hesabına
qurulan qəsrlərin,
Taxt-tacı, bağ-bağçası,
zindanı var, darı var.
Hər daşda, hər divarda
Teymur möhrü, imzası,
Teymur yadigarı var!

Şəhərmi görməmişik,
şəhər – nə qədər desən,
Hər şəhərdə maraqlı
əsər – nə qədər desən.
Çoxdu dünyada şəhər,
Ancaq onun heç biri
qədim Səmərqənd deyil.
Heç bir şəhər tarixə,
Yaradana, Tanrıya
Bir bu qədər bənd deyil.
Səmərqəndin havası
şəkər olub, qənd olub,
Tanrı təcəllasına
Allah özü bənd olub.
Boylanıb üfüqlərə,
qarışıb şəfəqlərə,
Teymur bu şəhər üçün
göyü endirib yerə.
Aldığı şəhərlərin
Çəkib yığıb bu yerə
şirəsini, şəhdini,
Allah da yardım edib,
Yarıyolda qoymayıb
sərkərdənin cəhdini.
Baxsaydı qoca Hafiz
bu şəhərin halına,
Onu dəyişərdimi
bir gözəlin xalına.
Məqbərə – göy qübbəsi,
türbə – eşqin əsəri,
Nələrə qadir olub
Bir qəlbin cəsarəti,
bir qılıncın kəsəri.
Vallah, dərinə getsə
insan ağlı çaş qalar,

Bir tağda, bir qübbədə
Nə qədər ləl-cəvahir,
nə qədər daş-qaş olar.
Məğlub olan şahların
varı – nə varsa burda,
Dünyanın yaratdığı
yarı – nə varsa burda.
Zalımlıq da burdadı,
zənginlik də burdadı,
Sonsuzluq, əbədilik,
ənginlik də burdadı.
Dünyanın hər bucağı,
şimalı, şərqi burda,
Saysız xəzinələrin
işığı, bərqi burda.
Bu zənginlik içində
mənim də öz payım var.
Bu saraylar içində
mənim də sarayım var.

Özümü axtarıram,
tariximi gəzirəm
Özüldə, bünövrədə,
uca tağda, hörgüdə.
Özümü axtarıram
Bu sirli tamaşada,
bu möhtəşəm sərgidə.
Qədim abidələrdə
Azərbaycandan gələn
Neçə-neçə memarın
qəlbinin qübarı var,
əlinin qabarı var.
Gözlərinin işığı,
ürəyinin yağı var.
Neçə sənət zirvəsi,
neçə sənət dağı var.

Hər tağın sığalında
Yaşılında, alında
Ərdəbil ilmələri,
Təbriz naxışları var,
Azərbaycan möhürlü
ustad baxışları var.
Burda axan suları
içirdi sözlərimə,
Şeriyyat qaynağını
köçürdü gözlərimə.
Bibixanım camesi,
Şahi-Zində məscidi
Öz mübarək ətrini
Çilədi yollarıma,
çilədi izlərimə.
Türküstan ellərindən
Gör neçə qədim şəhər,
neçə kənd aparıram.
Ruhumda, varlığımda
anam Azərbaycana –
Möcüzələr şəhəri
Səmərqənd aparıram!

Səmərqənd,
2009, iyul

UĞURA ÇIXANDA

Uğura çıxanda insan övladı
Ziyarət dalınca ziyarət gələr.
Uçar qanadında incə ruhların,
Hər heyrət dalınca bir heyrət gələr.
Bayburtda baş vurdum Dədəm Qorquda,
"Mən sənin dadına yetənəm", – dedi.
Çatdım Yəsəvidə Xoca Əhmədə,
"Türkün varlığına vətənəm", – dedi.
Qoca Mövlananın Şəmsinə döndüm,
"Eşqinlə bülbültək ötənəm", – dedi.
İllərlə Yunusun izinə düşdüm,
"Köksündə gül kimi bitənəm", – dedi.
Üz sürtdüm daşına Hacı Bəktaşın,
Mənə də Yunustək buğda ver, – dedim.
"Götür bu dərgahın bərəkətindən,
Bir zəmi, bir sünbül, bir dənəm", – dedi.
Səfərə çıxanda insan övladı
Yollar varlığına hopur qayıdır.
Nə ki arzuları, diləkləri var,
Yoğurur qayıdır, yapır qayıdır.
Təzədən doğulur bu dünya üçün,
Dünyanı qəlbində tapır qayıdır.

Bayburt, 2009, iyul

TƏBRİZ

Bildi ki, Məcnunun pərvanəsiyəm,
Məni dolandırdı başına Təbriz.
Oğlunu ucada görmək istədi,
Qaldırdı dağların qaşına Təbriz.

Bir ömür yaşadım yağ-baldan şirin,
Bir həqiqət gördüm xəyaldan şirin.
Dünyada nə varmış vüsaldan şirin,
Qarışdı gözümün yaşına Təbriz.

Sevinci min dəfə qəmindən şirin,
Qəmi söhbətindən, dəmindən şirin.
Nə var bu şəhərin tamından şirin,
Dost, qardaş, sevgili, aşina Təbriz.

Dərd üstə, saz üstə bir həyatı var,
Dilini göynədən min bayatı var.
Gördüm Şəhriyarın yeddi qatı var,
Baxdım tarixinə, yaşına, Təbriz.

Göründü gözümə bir mələk kimi,
Gördüm bütövləşən gələcək kimi.
Yağdım yağış kimi, gül-çiçək kimi,
Hopdum torpağına, daşına, Təbriz.

Təbriz,
2009, 7 sentyabr

TƏBRİK ƏVƏZİ

Dostum Nizami Cəfərova

Məndən salam olsun Nizami adlı,
Atatürk ünvanlı türk oğlu türkə.
Təfəkkür arxalı, fikir qanadlı
Elmin hünərinə, ilhama, dərkə.

Oğuzun, qopuzun, kamanın, udun,
Mübarək səsindən gələnim mənim.
Babam Füzulinin, Dədəm Qorqudun,
İsti nəfəsindən gələnim mənim.

Ən böyük dayağın istedad oldu,
Sözün yerindədi, fikrin dərində.
Büdrəmək, yıxılmaq sənə yad oldu,
Elmin, alimliyin pillələrində.

Tanrının dilidi sən sevdiyin dil,
Kökün dağdan gəlir, qayadan gəlir.
Sənin alimliyin kitabdan deyil,
Allahın verdiyi mayadan gəlir.

Yüz də parıldasın rəngi, yanağı,
Dibçək güllərinin qoxusu yoxdu.
Dağ uçsa çiynində saxlayar dağı,
Palıdın heç nədən qorxusu yoxdu.

Su olub sellənən, sel olub axan,
Hey dolub-boşalan buludum mənim.
Başında həmişə şimşəklər çaxan,
İldırım ötürən palıdım mənim.

Dövlət də, millət də, şöhrət də yükdü,
Bu yükü şərəflə daşıyanımsan.
Böyük adamların işi böyükdü,
Böyük amallarla yaşayanımsan.

Müdriklər sadədi, sadələr ulu,
Mən səni həmişə ulu görmüşəm.
Səsindən tanıyıb gözüyumulu,
Qəlbini hikmətlə dolu görmüşəm.

Mən yaxşı bilirəm halal ucalıq,
Sən yaxşı bilirsən əlli yaş nədir.
Ana bilməlidir kimə süd verir,
Vətən bilməlidir vətəndaş nədir.

Külüng də götürsən, qələm də tutsan,
Torpaq da becərsən, daş da daşısan,
Sən böyük ölkənin böyük övladı,
Sən böyük vətənin vətəndaşısan.

Köhnə kişilərin gözəlliyiydi,
Dostun dost yanında xətri var idi.
Sədaqət adlanan müqəddəsliyin,
Güldən təravətli ətri var idi.

Bizim sevgimizin dərindir kökü,
Bizim dostluğumuz uzaqdan gəlir.
Səhralar dolaşan karvanlar təki,
Borçalıdan keçir, Qazaxdan gəlir.

Xalqa yaxın oldun ilk addımından,
Saldın uzaqlara səda, Nizami.
Böyük Nizamini utandırmadın,
Ucalıq gətirdin ada, Nizami.

Göynən gedənləri endir atından,
Xəbər ver tarixin min bir qatından.
Qalma gülməyindən, zarafatından,
Gətir damaqları dada, Nizami.

Dağdan möhtəşəmdi, qayadan mətin,
Haqqı öz yolundan döndərmək çətin.
Bağrından qopmusan sən bu millətin,
Doğmasan, baş qoşma yada, Nizami!

2009, 9 sentyabr

ŞEYTAN-MƏLƏK

Sərindi dağların uca zirvəsi,
İstidi düzlərin qoynu, qucağı.
İstər zirvəyə çıx, istər düzdə gəz,
Görünmür dünyanın ucu-bucağı.

Hər çiçək çöllərdə bir adam imiş,
Hər adam dağlarda bir çiçək imiş.
İnsan cəmiyyətdə şeytana yoldaş,
İnsan təbiətdə bir mələk imiş.

2009, 16 avqust

İNSANIN ÜRƏYİ GÖZƏL OLANDA

Qış yaza çevrilir, qar çiçək açır,
İnsanın ürəyi gözəl olanda.
Dünya gözəlləşir başdan-ayağa,
İnsanın ürəyi gözəl olanda.

Dəli küləkləri mehə döndərir,
Buludu gül üstə şehə döndərir,
Qulu da qaldırıb şaha döndərir,
İnsanın ürəyi gözəl olanda.

Kasıb yuvanı da gözəlləşdirər,
Çirkli havanı da gözəlləşdirər,
Vəhşi heyvanı da gözəlləşdirər,
İnsanın ürəyi gözəl olanda.

Səhrada gül əkir, orman düzəldir,
Dən səpir, dən biçir, xırman düzəldir.
Dərdlərə min cürə dərman düzəldir,
İnsanın ürəyi gözəl olanda.

Sevgidən savayı bir dini yoxdu,
Qanda bir nifrəti, bir kini yoxdu.
Gözündə heç nəyin çirkini yoxdu,
İnsanın ürəyi gözəl olanda.

İşıq da gözəldi, bulud da gözəl,
Nəğmə də gözəldi, sükut da gözəl.
Beşik də gözəldi, tabut da gözəl,
İnsanın ürəyi gözəl olanda.

2009, 25 iyul

BİR QOCANIN GİLEYİ

Hamının dadına çatan bir adam
Heç kəsin yadına düşmürsə indi,
Süfrəsi açılıb, çayı süzülüb,
Xörəyi vaxtında bişmirsə indi,
Fələk tənhalığa atırsa onu,
Ancaq qapısını külək açırsa,
Ağrılar, acılar növbəyə durub
Başına min cürə kələk açırsa,
Oxuyun o kəsin "Fatihə"sini.

Günəşi dönürsə buz parçasına,
Onunçün Gün doğub, dan atmırsa da,
Ölümdən savayı, qəbirdən özgə
Heç yerə, heç nəyə can atmırsa da,
Əlini öpənlər əlindən bezib
Hörmətə əl yeri qoymadılarsa,
Xoş üzlə, xoş sözlə könlünü alıb,
Dinməyə dil yeri qoymadılarsa,
Oxuyun o kəsin "Fatihə"sini.

Elə ki, soyuyur doğması, yadı,
Yaxın bir adamı dadına çatmır,
Orucu, namazı, xeyir-duası,
Allahın kəlamı dadına çatmır,
Oxuyun o kəsin "Fatihə"sini.

2009, iyul

DAĞLARDA TUFAN QOPUB

Dağlarda tufan qopub,
Yıxıb divarları,
uçurub damları,
Keçirib ocaqları,
söndürüb şamları.
Qorxudub,
təntidib adamları,
Bütün işıqlar sönüb.
Göylərin hikkəsindən
Qaya parça-parça,
Daş tikə-tikə,
Torpaq şırım-şırım olub.
Sürüyüb belədən-belə
Sellər ağacları
alıb sırtına.
Minillik palıdı yıxıb,
dəli bir fırtına.
Ağaclar daşlara sürtünə-sürtünə
ilan kimi qabıq qoyub.
Şimşəklər qayaların alnında
İz açıb, çapıq qoyub.
Dağlarda tufan qopub,
Düzlərin nə vecinə –
Dağı yox yıxıla,
Qayası yox sökülə.
Yarğanı yox uça, tökülə,
Dərəsi yox oyula,
Zirvəsi yox döyülə!

2009, 20 iyun

ŞAİR VƏLİYƏ

Mən Təbrizdə olanda təbrizli dostum şair Vəli məni görə bilmədi. Yana-yana – "salamlarımı o taya yetir" – deyib, telefonda ağlamağını eşidəndə dözə bilmədim.

Şair Vəli, salam yetir demişdin,
Salamını mən bu taya yetirdim.
Heç bir kəsin sözü yaddan çıxmadı,
Salamları saya-saya yetirdim.

Görüşməyə olmasa da vaxtımız,
Görüş üçün qurulmuşdu taxtımız.
Göy üzündə qoşalaşdı baxtımız,
Ayı Günə, Günü Aya yetirdim.

Göz yaşlarım yanağımda iz açıb,
Ağlamaqdan yaralarım göz açıb.
Xan Arazdan Dəli Kürə söz açıb,
Nə sözün var çaydan çaya yetirdim.

Saz üstündə məni tez-tez anırdın,
Nəfəsimi Tanrı payı sanırdın.
Bakı deyib Məcnun kimi yanırdın,
Sən Məcnunu mən səhraya yetirdim.

2009, 13 sentyabr

ALLAH-BƏNDƏ

Demə ki, gül üstə
xar niyə qonub,
Nə gülü tək qoymaz,
nə xarı, Allah.
Ancaq öz hökmüylə,
söz fərmanıyla
Dəyişər axarı,
baxarı, Allah.
Heç zaman göstəriş
vermə Tanrıya,
Aşağı bəndədi,
yuxarı Allah.

2009, 14 sentyabr

UNUDULMAZ AĞSAQQALIMIZ RƏŞİD MAHMUDOVUN XATİRƏSİNƏ

Mən onu həmişə işiqlı, nurlu,
Mən onu həmişə ziyalı gördüm.
Səmimi, mehriban, ötkəm, qürurlu,
Abırlı, ismətli, həyalı gördüm.

Mən onu görəndə başa düşürdüm,
Nədir, nə deməkdir ağsaqqal olmaq.
Bir evin içində dünyaya gəlib,
Bir elin içində bir mahal olmaq.

Qələmə dəftərə nur yağa-yağa,
Yazdıqca yazırdı Rəşid müəllim.
Qaynar cavanlara dayaq olmağa,
Həmişə hazırdı Rəşid müəllim.

Nurlu çöhrəsindən işıq süzülür,
Yaratmaq eşqiylə aşıb-daşırdı.
İstedad tapanda gözləri gülür,
Gəncləri görəndə cavanlaşırdı.

Ruhu təmiz idi dümağ qar kimi,
Qəlbi çıraqlıydı Rəşid müəllim.
Məğrur palıd kimi, xan çinar kimi,
Qollu-budaqlıydı Rəşid müəllim.

2009, 7 oktyabr

MƏKTƏB – MƏZUN

Məktəb – ana qoynu, ana qucağı,
Bir-bir o qucaqdan pərvazlanmışıq.
Orda gördüyümüz hər gözəl çağı,
Müqəddəs bilmişik, uca sanmışıq.

Hər sinif otağı bir nur qaynağı,
O nur qaynağından ziyalanmışıq.
Keçib dar keçidi, aşıb sərt dağı,
Müəllim sözündən mayalanmışıq.

Bir yeni pillədir hər keçilən dərs,
Bilmək – mətləbimiz, qanadımızdı.
Təzə bir havadır, təzə bir nəfəs,
Hər kitab ağlımız, kamalımızdı.

Bu gün ad-sanımız dünyaya bəlli,
Həyatın yeriyən kitablarıyıq.
Çətin misalların tapıldı həlli,
Sirli sualların cavablarıyıq.

Müəllim – məktəbin ağlı, vicdanı,
Məktəb – müəllimin Məkkəsi, piri.
Bilik – damarların çağlayan qanı,
Həmişə canlıdır, həmişə diri.

Uzun illər keçib o vaxtdan bəri,
Vətənin sərvəti, xalqın varıyıq.
Həyat məktəbinin yetirmələri,
Qeyrət məktəbinin məzunlarıyıq.
Uçmuşuq ulduza, çatmışıq Aya,

Köksü dəniz kimi qabaran bizik.
Elmin işığını saçıb dünyaya,
Bu günü sabaha aparan bizik.

Şirin xatirələr hey düşür yada,
Ömrə bir naxışdı, xınadı məktəb.
Onunla ucalır insan dünyada,
Özüldü, şöhrətdi, binadı məktəb.

Şirin sözümüzə bal qata-qata,
Məğrur səsimizi yaydı həyata.
Bizə ən xeyirxah, ən əziz ata,
Bizə ən müqəddəs anadı məktəb.

ŞAİRLƏR ÖZÜNÜ QORUYA BİLMƏZ

"Amandı özünü qoru" – deyən dostlarıma

Yanmış ağac kimi quruyan canım,
Mən ki boş-boşuna qurumamışam.
Hər yerdə hamını qoruyan canım,
Heç yerdə özümü qorumamışam.

Cəhənnəm oldusa gözümdə cənnət,
Bu dərddən özümü necə qoruyum?
Dostum satqın çıxdı, qonşum müxənnət,
Namərddən özümü necə qoruyum?

Tərsinə çəkdilər, tərsinə, qardaş,
Şillədən özümü necə qoruyum?
Bir güllə yemidi hər sinə, qardaş,
Güllədən özümü necə qoruyum?

Daşın yekəsindən yapışdı əlim,
Yükün ağırını götürdü çiynim.
Sevgi odum oldu, ürək məşəlim,
İldırım gücüylə işlədi beynim.

Dağlara, daşlara çırpar özünü,
Çaylara yavaş ax, demək olarmı?
Nərəylə, harayla deyir sözünü,
Şimşəyə asta çax, demək olarmı?

Yumruğum havanı yardıqca yardı,
Güc verdi gur çaylar, gur sular mənə.

Səssizlər səsimə həsəd apardı,
Meydan bağışladı kürsülər mənə.

Özüməm çəkdirən, özüməm çəkən,
Bərkə də, boşa da kim çəkdi ömrü?
Yerdə zəlzələdi, torpaqda təkan,
Dolu şairlərin şimşəkdi ömrü.

Ən çətin günlərə sinəmi gərdim,
Yurdumu qorudum yurd olsun deyə.
Ən odlu şeirimi əsgərə verdim,
Döyüş meydanında mərd olsun deyə.

Oda da, suya da atdım özümü,
Başım qayalara dəyər, demədim.
Xeyrə də, şərə də qatdım özümü,
Ağrılar qəddimi əyər, demədim.

Saçında dağların qrovu varsa,
Yad eldə əsiri, girovu varsa,
Hər ovçu əlində bir ovu varsa,
Millətin içində millətə düşmən,
Hələ də qanmazı, qarovu varsa,
Şairlər özünü qoruya bilməz!

Hələ yaşayırsa şər oğlu şərlər,
Hələ yaşayırsa söz gəzdirənlər,
Hələ yaşayırsa qəlbi deşməyə
Dilində, əlində biz gəzdirənlər,
Sinənin altında ürək yerinə
Ürəyi göynədən buz gəzdirənlər,
Şairlər özünü qoruya bilməz!

Çapırsa atını belədən belə,
Acı söz, yaman göz, bəd niyyət hələ,

Bulanan suları durulda bilmir,
Durula bilmirsə cəmiyyət hələ,
Dalbadal kürəyə enir bıçaqlar,
İşini görürsə xəyanət hələ,
Şairlər özünü qoruya bilməz!

Bu xalqın qəbirsiz şairləri var,
Hardadı Hadinin qəbri, bilinmir.
Zamanın zülmünə nə qədər dözər,
Dözümü bilinmir, səbri bilinmir.
Harda güllələnib, hara atılıb,
Harda sona çatıb güzarı, harda.
Yerdədi, göydədi, kimdən öyrənək,
Müşfiqin, Cavadın məzarı harda?
Cavid tutulanda xalqı, milləti
Ayağa qaldıra bilməmişiksə,
Müşfiq tutulanda onun yolunda
Üçümüz, beşimiz ölməmişiksə,
Tarixdən götürüb ibrət dərsini,
Hələ də ağıla gəlməmişiksə,
Şairlər özünü qoruya bilməz!

Dünyanın düz vaxtı göz qabağında
Qoruya bildikmi Əli Kərimi?
Qoruya bildikmi Məmməd Arazı,
Qoruya bildikmi Xəlil Rzanı?
Hər zaman yetirməz, hər ana doğmaz
Tarix yaradanı, tarix yazanı.
Od olsa özünü yandıra bilər,
Qorunu, közünü yandıra bilər,
Şairlər özünü qoruya bilməz!

Baş-başa veribsə şairdən ötrü,
Yaman yeyənlərlə yaman deyənlər,
Zirvəsinə ətək, dağına təpə,

Qızıl Günəşinə duman deyənlər,
Çiçəyinə qanqal, bağına səhra,
Dolu sünbülünə saman deyənlər,
Sipəri, səngəri palıddan olsa,
Paltarı yeddi qat poladdan olsa,
Şairlər özünü qoruya bilməz!

Şairi saf ruhlar, uca mələklər,
Pak əllər, pak dillər qoruya bilər.
Müqəddəs sevgilər, isti nəfəslər,
İlahi gözəllər qoruya bilər.
Üzə gülümsəyən baxtı hardadı,
Şahlıq eləməyə taxtı hardadı,
Canı qorumağa vaxtı hardadı,
Şairlər özünü qoruya bilməz!

Şair oğulları qorumaq üçün
Cəmiyyət özünü qorumalıdır!
Qapazdan başını, dərddən qəlbini,
Şillədən üzünü qorumalıdır!
Axarı batmamış zir-zibillərə,
Bulağın gözünü qorumalıdır!
İti yaddaşını, uca ruhunu,
Müqəddəs sözünü qorumalıdır!
Şairi tarixə şöhrət bilməsə,
Millət qorumasa, dövlət bilməsə,
Şairlər özünü qoruya bilməz!

2009

MƏN SƏNƏ ŞEİRLƏR OXUYACAĞAM

Mən sənə şeirlər oxuyacağam,
Arzudan, ümiddən, sevgidən, səndən.
Döyünən ürəkdən, dolu könüldən,
Yanaqdan, dodaqdan, ruhdan, bədəndən.

Mən sənə şeirlər oxuyacağam,
Ötən gəncliyimin şirinliyindən,
Məni dəniz kimi dibinə çəkən,
Dəli sevgilərin dərinliyindən.

Mən sənə şeirlər oxuyacağam,
Havalı-havalı yeriməyindən,
Odlu baxışlarım səni tutanda,
Gün vurmuş qar kimi əriməyindən.

Nə yaxşı özündən yoxdu xəbərin,
Nə yaxşı bilmirsən nəçisən-nəsən.
Qoynu çiçək dolu yaşıl bağça-bağ,
Qəlbi Günəş dolu bir xəzinəsən.

Mən sənə şeirlər oxuyacağam,
Yay kimi dartılıb gərilməyindən.
Mənim əllərimlə, barmaqlarımla,
Gül kimi budaqdan dərilməyindən.
İsti nəfəsimi canına çəkib
Tez-tez ölməyindən, dirilməyindən.
Çırpına-çırpına arıya dönüb,
Süzülə-süzülə bal olmağından.
Bəzən bülbül kimi coşub-çağlayıb

Bəzən saatlarla lal olmağından.
Mən sənə şeirlər oxuyacağam,
Qurbani Pəriyə, Abbas Gülgəzə,
Qərib Şahsənəmə oxuyan kimi.
Kərəm könül verib tərsa qızına,
Gözəl bir sənəmə oxuyan kimi.
Çəkib Dağıstandan Azərbaycana,
Valeh Zərnigara oxuyan kimi.
Cuma sevgisini pünhan saxlayıb
Gizlicə bir yara oxuyan kimi,
Mən sənə şeirlər oxuyacağam.

Mən sənə şeirlər oxuyacağam,
Dünyanın ən odlu şeirlərini.
Müşfiq Dilbərinə oxuyan kimi,
Vurğun Dürrəsinə oxuyan kimi.
Ələsgər üz tutub Səhnəbanıya
Bir eşqin səsinə oxuyan kimi,
Mən sənə şeirlər oxuyacağam.

Nədir gözəllərin hirsi, hikkəsi,
Nədir gözəllərin dini, Məkkəsi.
Tez-tez küsmək nədir, barışmaq nədir,
Barışıb qaynamaq, qarışmaq nədir?
Səni qıyhaqıyla coşduran nədir?
Dağların çayıtək daşdıran nədir?
Səni bir bu qədər havalandıran,
Məni bir bu qədər çaşdıran nədir?
Elə bu mənada, elə bu haqda,
Ürəkdə, baxışda, dildə, dodaqda,
Neçə ki ömrüm var, nə qədər sağam,
Mən sənə dualar pıçıldayacaq,
Mən sənə şeirlər oxuyacağam.

2009, 26 noyabr

HARDAN GƏLİR ZƏLİMXAN

Hardan gəlir Zəlimxan – anasının südündən,
Atasının insanı yüksəldən öyüdündən,
Pir olmuş babasının pirləşən ağılından,
Nur olmuş nənəsinin bal kimi nağılından.
İnsanın, insanlığın Adəmindən, Nuhundan,
Yaradanın eşqindən, yaranmışın ruhundan.
Min ildir ki yorulmur, dərs öyrənir “Manas”dan.
Türkün öz taleyidi,
Təpədən-dırnağacan Zəlimxandı bu dastan.
Dünənin işi deyil, Zəlimxan başdan gəlir.
Gültəkinə, Orxona, Yeniseyə yazılıb,
Qisməti daşdan çıxır,
Tarixi daşdan gəlir.
Bir əli yer üzündə, bir əli də haqdadı,
Xəyalı göylərdədi, mayası torpaqdadı!

ÖLÜM ALLAH İŞİDİRMİ?

"Ölüm Allah işidi" – deyənlərə

Allahı çəkmə ortaya,
Ölüm Allah işidirmi?
İnsafın daş, rəhmin qaya,
Ölüm Allah işidirmi?

Yarı bölür, tən kəsirsən,
Nə kəsirsən, sən kəsirsən,
Hər gün ömrümdən kəsirsən,
Ölüm Allah işidirmi?

Gözlərdə çən, saçlarda dən,
Dərdlərimiz dağlara tən,
Ölən mənəm, öldürən sən,
Ölüm Allah işidirmi?

Allahı da saymır adam,
Azalarmı qayğım, qadam,
Sən Əzrayıl, mən cəlladam,
Ölüm Allah işidirmi?

Qəlbimizdə qəhər varsa,
Dilimizdə zəhər varsa,
Zəhərlənmiş şəhər varsa,
Ölüm Allah işidirmi?

Nə qədər ki, tamahı var,
Bəndənin min-min ahı var,
Allahın nə günahı var,
Ölüm Allah işidirmi?

ŞAİR ÖMRÜ

Üzdüm dənizləri,
aşdım dağları,
Öpdüm bulaqları,
keçdim çayları.
Dörd fəslin başına
döndüm, dolandım,
Ömrümə, günümə
yazdım ayları.
Açıldı toylarda
qolum, qanadım,
Yaslarda yaşadım
ahı-vayları.
Zamanın yükünə
çiynimi verdim,
Daşıdım dərd adlı
ağır tayları.
Gördüm yaxşılardan
yaxşılıqları,
Heç vaxt unutmadım
haqqı-sayları.
Memar daşdan qurdu,
daşdan ucaltdı,
Mən sözdən yaratdım
ağ sarayları.
Halal bir nəfəslə
qəbul eylədim,
Allahın verdiyi
halal payları.

2009, 11 aprel

İSTANBUL GECƏLƏRİ

Şairin xəyalı uçur göylərə,
Göylərin yeddinci qatından keçir.
Ürəyi doğranır torpağın üstə,
Cərrah bıçağının altından keçir.

Dərdə hamilədir şair ürəyi,
Doğanda əsər yox, ağrı, qan doğur.
Şair anaları oğul doğanda,
İçi vərəm doğur, bağrı qan doğur.

2009, 26 sentyabr
İstanbul, Amerika xəstəxanası

XƏSTƏ QASIMIN MƏZARI BAŞINDA

Tikmədaşda bir ustada qonağam,
Ulu eşqi, uca səsi var onun.
Zaman-zaman xəstələri sağaldar,
Tanrı kimi doğma kəsi var onun.

Laylasına uyumuşam, uymuşam,
Körpəlikdən hikmətini duymuşam.
Başdaşının üstünə baş qoymuşam,
Hər könüldə bir bəstəsi var onun.

Cinasdandı, təcnisdəndi axçası,
Qıfılbənddi, müəmmadı boğçası,
Qoşmalardan ətir saçır bağçası,
Gəraylıdan gül dəstəsi var onun.

Onsuz olmaz toyum, yasım deyirəm,
Gedim bir də qulaq asım deyirəm,
Min il sonra Xəstə Qasım deyirəm,
Zəlimxantək min xəstəsi var onun.

SUAL

Çaşır insan kimi ömür də, gün də,
Bilmir qışa getsin, bahara getsin.
Gedir öz qəbrinə ağ geyinənlər,
Qara geyinənlər bəs hara getsin?

GETDİLƏR

Göllər sonalandı,
Əllər xınalandı,
Sevdilər, sevildilər,
Ömür-gün mənalandı.

Oldular oğul-uşaqlı,
Oldular köklü-budaqlı.
Sükut getdi, həyat gəldi,
Oldular səsli-soraqlı.

Ağrı dəlik-dəlik gəldi,
Babalıq, nənəlik gəldi.
Babalığa, nənəliyə
Əsa gəldi, çəlik gəldi.

Yarpaq budaqdan ayrıldı,
Nəğmə dodaqdan ayrıldı.
Söndü gözlərdə qəndillər,
Şölə çıraqdan ayrıldı.

Yandı qəlbin yağı çıxdı,
Aş altından ağı çıxdı.
Hər laylanın qarşısına,
Bir amansız ağı çıxdı.

Çağdan bir çağa getdilər,
Bükülüb ağa getdilər.
Bu torpaqdan çıxmışdılar,
Yenə torpağa getdilər.

2009, 28 dekabr

QAÇIN

Ürəkləri,
qapıları,
süfrələri,
cibləri,
Yeni ilin üzünə
taybatay açın.
Ürəyin atəşini,
qapının taqqıltısını,
süfrənin bərəkətini,
cibin səxavətini,
Haqqın nuru kimi
hara gəldi dağıdın,
hara gəldi saçın.
Atəşi olmayan ürəyin,
Səsi olmayan qapının,
Səxavəti olmayan cibin,
Bərəkəti olmayan süfrənin,
Yanından, yörəsindən,
Ayrıldıqca, ayrılın,
Qaça bildikcə, qaçın!

2009, 31 dekabr

QƏBİR DAŞINDA YAZI

Mehdioğulların faciəsi,
Kəpənəkçi, 2010, 24 yanvar

Nə ağır faciə, nə çətin işdi,
Mən necə daşıyım bu dərdi, Allah.
Üç zülm, üç ölüm birdən yetişdi,
Torpaq nə tez yedi üç mərdi, Allah.

Evlər hazırlandı toya-nişana,
Toya gəlməlilər, vaya gəldilər.
Bir elin ürəyi döndü al-qana,
Ürək parçalayan haya gəldilər.

Bir kənd ağlamaqdan qırıldı, batdı,
Rəhm qıl, İlahi, millət dardadı.
Tanrım, bu nə toydu, bu nə büsatdı,
Cüt oğul, bir ata bir məzardadı.

HƏYAT EŞQİ

Tanrım, qar içində çiçəklərə bax,
Ölümün ağzından bir həyat çıxıb.
Gör zərif vücudun nə qiyməti var,
Şaxtadan, ayazdan salamat çıxıb.

HƏSRƏT

Qayıtmaq istəyirəm,
Uşaqlıq aləminə,
Körpəlik gülüstanına.
Nə nənəmin nağılına
ələm çatır,
Nə babamın dastanına!

AZADLIQ

Baxıram üfüqdə uçan quşlara,
Görəsən göylərdə quş azaddımı?
Bir zalım ovçunun yeminə dönüb
Gəlirsə gülləyə tuş, azaddımı?

Kiriyir dalğamız, susur ləpəmiz,
Yıxılır dağımız, uçur təpəmiz,
İki əlimizdi, bir də təpəmiz,
Baş əldən gedirsə huş, azaddımı?

Bir millətin yolu haçalanırsa,
Adımız min yerə hecalanırsa,
Bir şair ürəyi parçalanırsa,
Gözlərdən tökülən yaş, azaddımı?

2009

NAZİM HİKMƏTƏ

Sən 13 yaşında
Şeir yazmağa başladığın
şəhərə
Mən altmış yaşımda
xəstə gəldim, Nazim!
Ölümə bir addım qalmış
Axır nəfəslə gəldim, Nazim!
Qarşıma bir həkim çıxdı,
Adı, soyadı Tarix Esen,
Adına, istedadına əhsən.
Aldı məni ölümün cəngindən,
Qoymadı ayrı düşəm
zamanın əhəngindən.
"Burda da xəstələr var,
Kimi dəri... dəri
Yalnız yaşayır gözləri!"[1]
Gözlər yaşayırsa,
Demək, baxışlarda ümid var.
Ümid varsa gələcək var.
Gələcək varsa,
Arzu var, dilək var.
Açdım sinəmi
Boğazlardan əsən küləyə,
Güvəndim ümidə,
arzuya, diləyə.
Sənin infarktında
yaşayan məmləkət
Mənim gözlərimin
nurunda yaşadı.
Ölü dirildən həkimlərin
Ağıllı vüqarında,
haqlı qürurunda yaşadı.

2009

[1] Misralar Nazim Hikmətindir.

MƏN HAMIDAN BAŞDAYAM

Ara vermək istəmir
ürəyimin ağrısı,
Qəfil sancılan bıçaq –
kürəyimin ağrısı.
Ürək niyə ağrıyır,
onu zamandan soruş.
Kürək niyə ağrıyır,
can bilir, candan soruş.
Ömrüm boyu ölümlə,
əcəllə savaşdayam,
Ağrı-acı sarıdan,
Birincilik məndədi,
mən hamıdan başdayam!

2009

NƏ YERDƏ RAHATAM, NƏ GÖYDƏ AZAD

Dərman tanımırdım dərd olmayanda,
Dərd mənə hər çeşid dərman gətirdi.
İmzalı, möhürlü kağızla gəldi,
Əzrayıl əlində fərman gətirdi.

Gözüm qan gördükcə bağrım qan oldu,
Canım üzüldükcə yarı can oldu,
Bütün sağlıqlarım Allahdan oldu,
Bütün ağrıları şeytan gətirdi.

Vurulur, qırılır çaldığım qanad,
Nə yerdə rahatam, nə göydə azad.
Açdı qucağını anamız həyat,
Məni bu dünyaya mehman gətirdi.

2009

XƏSTƏNİN DÜŞÜNCƏLƏRİ

Gözümü açmağa gücüm çataydı,
Təzədən baxaydım köhnə dünyaya.
Baxaydım ilk dəfə gördüyüm kimi,
Tamaşa dünyaya, səhnə dünyaya.

Dinməyə dilimin gücü çataydı,
Ölümü susdurub lal eyləyəydim.
Dünyanın nə qədər acı sözü var,
Pətəkdən keçirib bal eyləyəydim.

Yola gətirəydim ilanları da,
Zəhərli dillərdə şəkər olaydım.
Kimin ürəyinə toxunmuşamsa,
Gedib qapısında nökər olaydım.

Ayağa durmağa qüvvət tapaydım,
Ayağım torpaqdan öpəydi mənim.
Günəş sevinəydi məni görəndə,
Nurunu üstümə səpəydi mənim.

Mənim gur nəfəsim, mənim gər səsim,
Özül titrədəydi, him tərpədəydi.
Əllərim yenə də qələm tutaydı,
Barmağım yenə də sim tərpədəydi.

Sevinc paylayaydım qəm çəkənlərə,
Sevənin butası olaydım yenə.
Xəstənin başına sığal çəkəydim,
Yetimin atası olaydım yenə.
Vaxtsız gələn ağrı, qəfil gələn dərd,

Götür xəzəlini yanaqlarımdan!
Xoş sözlər eşitmək istəyirəm mən,
Çıxart pambığını qulaqlarımdan!
Oxumaq, oxumaq istəyirəm mən,
Sükutu parçala dodaqlarımdan!
Yerimək, yerimək istəyirəm mən,
Aç o qandalları ayaqlarımdan!
Məni uzaq salma qaynaqlarımdan,
Məni ayrı salma dayaqlarımdan!

2009

DEMƏK NƏ ÇƏTİNMİŞ DEYİLMƏZ SÖZÜ

Gör neçə vaxtdır ki, hazırlıq gedir,
Atamın yanına hazırlaşıram.
Yalançı dünyadan doğru dünyaya
Dədələr, babalar getdiyi yolun
Əsil ünvanına hazırlaşıram.

Bu çətin xəbəri gör nə zamandı,
Doğma qardaşımdan, doğma bacımdan,
Oğlumdan, qızımdan gizli saxladım.
Mənə sazdan yaxın dünyada nə var,
Ağrımı sazımdan gizli saxladım.

Demək nə çətinmiş deyilməz sözü,
Oğluma açılsam, qəlbi sınacaq,
Qızıma söyləsəm, qız ağlayacaq.
Oğuldu, uşaqdı, qızdı, gəlindi –
Biri bir balaca çox ağlayacaq,
Biri o birindən az ağlayacaq.

Bilmir uşaqların anası, bilmir,
Bilsə, gecə-gündüz qan ağlayacaq.
Gündüz ağı deyib, bayatı çəkib,
Axşam ağlayacaq, dan ağlayacaq.

Bilmir, Zəlimxanın anası bilmir,
Bilsə, dağ uçacaq, daş ağlayacaq.
Göydən ildırımlar necə tökülür,
Gözlərdə eləcə yaş ağlayacaq.

2009

GÜNAH

Özümdən xəbərsiz bir qara paltarlı qadının yanında ürəkdən şaqqanaq çəkib güldüm. Sonradan biləndə ki, bu dərdli ana şəhid anasıdır, xəcalət təri məni basdı, ölüb yerə keçdim.

Zaman sinəm üstə çaylar axıda,
Yuyub təmizləməz su günahımı.
Allahım, sən özün dadıma yetiş,
Rəhimsən, adilsən, yu günahımı.

Dərdimiz dənizdi, özümüz ada,
Candan əskik olmur nə qan, nə qada.
Bütün günahlarım bağışlansa da,
Tanrım, bağışlama bu günahımı.

2009

FATEHİN RUHUNA TOXUNARDIM

Ağrılarım sovuşdu,
çıxdı canımdan qada,
Ən uca sevgilərlə
çatdı İstanbul dada.
Tanrıdan oldu hörmət,
Allahdan oldu yardım,
Elə bil öz əlimlə
özüm sinəmi yardım.
Küt ağrılar önündə
tükənsəydi taqətim,
Böyük Fateh Əhmədin
Qüruruna, qəlbinə,
ruhuna toxunardım!

2009

MƏLƏK ÖLÜMÜ

Ölüm, başım üstə çox yellər əsib,
Sən son dayanacaq, son duracaqsan.
Bilirəm, nə vaxtsa qarşımı kəsib,
Damarda qanımı donduracaqsan.

Əcəlim qoy gəlsin ağsaqqalyana,
Ey tufan, qabarma, ey külək, əsmə.
Mələk ölümü ver, nuş olsun cana,
Ey fələk, hay-küylə başımı kəsmə.

2009

ZƏLİMXAN

Uzaq eldə necə keçir günlərin,
Yaxın eldən aralanan Zəlimxan.
Sinəsində dərdin-qəmin dağları,
Cərgə-cərgə sıralanan Zəlimxan.

Sənsən ocaq, sənsən oda asiyan,
Kürəyində el yükünü daşıyan,
Bir canıyla yeddi yerdə yaşayan,
Yeddi yerə parçalanan Zəlimxan.

Baxma qəlbin ağrılara hədəfdi,
Harda olsan üzün haqqa tərəfdi.
İstanbulda ölməyin də şərəfdi,
İstanbulda yaralanan Zəlimxan.

2009

ÖLÜMƏ SƏSLƏNİŞ

O tərəfə gedən yolun
qapısını aç, oynama,
Öz işimi özüm billəm,
yollarımdan qaç, oynama.
Ey köhnənin oyunbazı,
mənlə gizlənqaç oynama,
İblis kimi qaş oynadıb,
göz eləmə, gəlirsən, gəl!

Məni Allah qorumasa,
qoruyammaz mal canımı,
İndi fürsət səninkidir,
daşdan-daşa çal canımı.
Ölən mənəm, öldürən sən,
çək qılıncı, al canımı,
Can almaqda nə naz-qəmzə,
naz eləmə, gəlirsən, gəl!

Bahar vaxtı şaxələnir,
bir əlimiz yüz əl olur,
Payız vaxtı hara baxsaq
hər yanımız xəzəl olur,
Sevgi ilə gələn ölüm
həyat qədər gözəl olur,
Sifətini sərt eyləmə,
boz eyləmə, gəlirsən, gəl!

Kaman sənin, sinə mənim –
at oxunu, oxla məni,
Yoxdu sənə etirazım,
nə vaxt desən haqla məni.

Mən ki uca yaranmışam,
ucalıqda saxla məni,
Yıxa-yıxa dağlarımı
düz eləmə, gəlirsən, gəl!

Təkə doğru yol gedirəm,
başım üstə Allahdı tək,
Gözü qapa, dili bağla,
qəlbi susdur, tətiyi çək.
Mən gedəndə bilirəm ki,
mənsiz qalan üşüyəcək,
Nəfəsini qar eyləmə,
buz eyləmə, gəlirsən, gəl!

2009

DÜNYA

Cavanların gözündə gözəlləşdi, böyüdü,
Qocaların gözündə süqut eylədi dünya.

Cavanlığı, gəncliyi nəğmələrlə bəzədi,
Qocalığa gələndə sükut eylədi dünya.

Qocalığın axırı bir qəpiyə dəymədi,
Cavanlığı xas qızıl, yaqut eylədi dünya.

Nəfəsimiz beşikdə, bələyimiz bələkdə,
Hamının son evini tabut eylədi dünya.

Dünya insandan qoca, insan dünyadan uşaq,
Qoca kimdi, cavan kim, sübut eylədi dünya.

2009

ÖZÜN TAMAMLA

Mənə sevgilər üstə
bağışlanan bir ömür,
Keçdi ağrı-acıyla,
keçdi ləzzətlə, tamla.
Ey mənim yaradanım,
heç kəsə yalvarmaram,
Sən vermişdin möhləti,
sən özün də tamamla.

2009

ŞAİR UNUTMURSA

Məhəbbətsiz yer üzündə tanrı heç nə yaratmadı,
Bulaqların zümzüməsi, dənizlərin ləngəri var.

Hər gülüstan çiçəklərin həyat eşqi, görüş yeri,
Hansını istəsən qoxla, min cür ətri-ənbəri var.

Məğlubolmaz igidlərə güc torpaqdan bağışlanar,
Qaya döşü, dağ arxası, yurd adlanan səngəri var.

Yerdə olan sevgiləri göylərə çatdırmaq üçün,
Hər zamanın öz Bilalı[1] , öz məscidi, minbəri var.

Şair əgər unutmursa haqqın ona verdiyini,
Demək, başının üstündə Allahı, peyğəmbəri var.

[1] Bilal – Məhəmməd peyğəmbərin əzan çəkəni.

ÖLÜLƏR OXUYACAQ

İnanmışam ilhama,
güvənmişəm qələmə,
Mənim şeirlərimi
yumaz su, yaxmaz ocaq.
Torpağın üstündəki
dirilər tükənəndə
Torpağın altındakı
ölülər oxuyacaq!

2009

ƏN BÖYÜK YALAN

Kül kimi sovurduq vaxtı göylərə,
Ayların, illərin talanı buymuş.
Allahdan bir uzun ömür istədik,
Baxanda gördük ki, olanı buymuş.

Qəm adlı uçurum var, dərd adlı dərə,
Bir xilas yolunu axtarır hərə.
Kəsdi qarşımızı, kəsdi bənd-bərə,
Zamanın döngəsi, dalanı buymuş.

Bir əsri çatdırmır əvvəldən sona,
Ömür qurban gedir şaxtaya, dona.
Kim ölməz söylədi insan oğluna,
Dünyanın ən böyük yalanı buymuş.

2009

HƏLƏ

Ağrılı, həsrətli butalar görüb,
Qaçmışam dalınca, yetişməmişəm.
Gözlərim nə qədər xatalar görüb,
Hələ çoxlarından ötüşməmişəm.

Yarım sola düşüb, yarım da sağa,
Yarılmış yarayam, bitişməmişəm.
Mən iki ürəkdə bir can olmağa,
Hələ kamilləşib yetişməmişəm.

2009

QAYITDIM

Ruhum silkələndi vətən deyəndə,
Ağrılar çəksə də dara, qayıtdım.
Min ağrı bir dostun telinə dəyməz,
Dosta, sevgiliyə, yara qayıtdım.

Ömrümdə iz qoydu şaxtalı bir qış,
Sinəmin üstündən kotan çəkdi xış.
Köhnə yaralarım qaysaqlanmamış,
Sinəmdə təzə bir yara, qayıtdım.

Qəfil dağ-dağ oldu dağlar dağımdan,
Yellər xəbər yaydı qəmli çağımdan.
Mən bütöv getmişdim od-ocağımdan,
Döndüm vətənimə, para qayıtdım.

2009

RUHUMUN QARDAŞI

Zakir Fəxriyə

Həsrətin rənginə qurban,
Gecikən zənginə qurban,
Səsin ahənginə qurban,
Yandı bağrım başı, Zakir.

Başımızı yağı qatıb,
Dərdin ağır çağı qatıb,
Zaman elə ağı qatıb,
Yemək olmur aşı, Zakir.

Verən hökmünü sərt verdi,
Əcəl adlı naməd verdi,
Tale sənə bir dərd verdi,
Ömrün boyu daşı, Zakir.

Sevinclə aramız sərin,
Qəm ağırdı, yara dərin,
Bizdən sonra gələnlərin
Çatılmazmı qaşı, Zakir.

Biz çəkirik ahı, yası,
Silmək olmur candan pası,
Ürəyimin bir parçası,
Ruhumun qardaşı, Zakir.

2009

TƏBRİZDƏYƏM

Təbrizdəyəm! Təbrizdəyəm!
Hər enişdə, hər yoxuşda,
hər cığırda, hər izdəyəm!
Damladayam, ümmandayam,
bulaqdayam, kəhrizdəyəm!
Həsrət adlı dağ yıxılıb,
sevinc adlı dənizdəyəm!
Gözlərimə inanmıram,
heyrətimdən bağırıram,
Mən dünyanı sevincimin
bayramına çağırıram!

Birinci görüşümüz
İyirmi il əvvəlin
sərin bir yuxusuydu.
Ciyərimə çəkdiyim
bir çiçək qoxusuydu.
İkinci görüşümüz
Yazıldı qismətimə
düz altmış yaşında,
Bu gün qalib çıxmışam
həsrətin savaşında!
Ürəyim dopdoludu,
içərim tərtəmizdi.

Təkcə Ərk qalası yox,
Tək saat meydanı yox,
Təbriz başdan-başa
Müqəddəs tariximiz
Müqəddəs türbəmizdi.

Təbrizdəyəm, Allahım!
Gözəllər nə gözəldi,
oğullar nə şirindi.
Salamlar nə səmimi,
sevgilər nə dərindi.

Çöhrələr nə baxımlı,
baxışlar nə durudu.
Hər gördüyüm təbəssüm
Ömrümün yaraşığı,
gözlərimin nurudu.

Bu gün sinəmin üstə
Təbriz bir telli sazdı,
Düz iki yüz ildi ki,
həsrətdən oxuyuruq.
O sazın tellərində
Bircə görüş eşqinə
min il ötsək də azdı.
Təbriz bir telli sazdı,
o sazın saz bəndiyəm,
O sazın müəmması,
tilsimiyəm, bəndiyəm.
Çanağı, pərdəsiyəm,
simi, təzənəsiyəm,
Ululaşan millətin
əfsanəvi səsiyəm.

Təbriz bir ulu ruhdu,
o ruhu daşıyanam,
Məqbərəyəm, türbəyəm,
sarayam, aşiyanam.
Təbriz mənsiz olmasın,
bir gün, bir saat belə,
Bəlkə on min ildi ki,
Təbrizlə yaşıyanam!

Neçə yaşıl bağçadan,
neçə bağdan keçirəm,
Küçələri çəkirəm
gözlərimə şəkiltək.
Ərhabdan, Sevgilandan
Küçəbağdan keçirəm.
Bu Gərəndab küçəsi,
bu da qədim Maralan,
Cazibə qüvvəsidi
hər daşı, hər kərpici,
Hünərin var uzaq düş,
gücün çatır aralan.

Lilavası mənimdir,
Şamqazanı mənimdir,
Şair olsun, ya alim,
memar olsun, ya rəssam.
Həm tarix yaradanı,
həm yazanı mənimdir.

Bura Təbrizdi! Təbriz!
Həm mənli, həm də mənsiz!
Dilim, ağzım qurusun,
o mənsiz ola bilməz,
Onun sevgi rəngləri
heç zaman sola bilməz.

2009

CƏNUBLU QARDAŞIM ZÜLFÜQAR ABDULLAHİYƏ MƏKTUB

Uca Tanrımın mənə verdiyi fürsət və möhlət sayəsində taleyim üzümə güldü. Yaşımın 60-cı ilini yaxaladığım bir vaxtda, tale mənə 1991-ci ildən sonra ikinci dəfə Təbriz görüşünü, Cənubi Azərbaycan ziyarətini nəsib elədi. Onda Təbrizdə bir ay qalmışdım, indi isə beş gün qala bildim. Bu beş gündə gördüklərim ömrümün sonuna qədər mənimlə yol yoldaşı, könül sirdaşı olub, həsrətli, vüsallı şeirlərə, acılı-şirinli nəğmələrə dönəcək. İki yüz illik ayrılığın heyfini canımdan çıxarmaq üçün nəfəsim ağzımdan, ruhum bədənimdən çıxana kimi Təbriz eşqinə qəmli bülbül, dərdli ozan, yaralı şair kimi ötəcəyəm.

Dünyanın elə bir şəhəri yoxdur ki, onun şəninə, onun şərəfinə Təbrizə yazılan şeirlər, nəğmələr qədər əsər yazılmış olsun. Mən də Təbriz eşqinə ötən bülbüllərin, oxuyan ozanların, yazıb-yaradan şairlərin sırasındayam.

Bu da bizə bir lütfüdü Allahın,
Gözəl keçdi səfərimiz, Zülfüqar.
Sən Tehrandan, mən Bakıdan yetişdik,
Təbriz oldu şəhərimiz, Zülfüqar.

Qurban olum Təbrizinə, Ərbinə,
Ağıl çatmaz Ərbimizin dərkinə.
Küləklərmi aldı bizi tərkinə,
Ləngimədi kəhərimiz, Zülfüqar.

Tarix gördük qayasında, daşında,
Qala olduq qalaların qaşında,
Babək oldu hər söhbətin başında,
Saf kişimiz, saf ərimiz, Zülfüqar.

Necə sığım, sığışdırım beş günə,
Duyğularım dönüb selə, daşqına.
Adı bəlli Alp ərənlər eşqinə
Allah oldu sipərimiz, Zülfüqar.

Öz hökmü var hər ayın da, günün də,
Qol bağladım Xətainin önündə.
Ömrümüzün ən müqəddəs günündə,
Şahdan gəldi bəşərimiz, Zülfüqar.

Dildə nəğmə, başda hava, gözdə yaş,
Ziyarətim Xəstə Qasım, Tikmədaş.
Şair gəldi, türbəsinə əydi baş,
Yüngülləşdi kədərimiz, Zülfüqar.

Səttarxandı qətiyyətim, qeyrətim,
Xiyabani təfəkkürüm, sərvətim.
Min il keçsə tükənməzdi nemətim,
Dad verəcək bəhərimiz, Zülfüqar.

Şair olan ilahidən səs dilər,
O sədanı hər ucalan kəs dilər.
Gül-çiçəklə qarşımızı kəsdilər,
Cənnət oldu Əhərimiz, Zülfüqar.

Gəlib çatdı dost vədəsi, dost anı,
Könüllərdə Şəhriyartək dost hanı.
Əl-əl gəzdi Heydər baba dastanı,
Ölümsüzdü əsərimiz, Zülfüqar.

Yerə-göyə, dağa-daşa qovuşduq,
Arzumuza başdan-başa qovuşduq,
İki qardaş Üç qardaşa qovuşduq,
Səhənd oldu səngərimiz, Zülfüqar.

Dost gücünü ərəndə bil, ərdə bil,
Üç gözəldi Təbriz, Əhər, Ərdəbil.
Hər görüşdə dağ çəkmişəm dərdə, bil,
Sevinc olub nəmərimiz, Zülfüqar.

Çiyinlərdən həsrət adlı yük enməz,
Əl tutmasaq o həsrətlər tək enməz.
Elin səsi, xalqın gücü tükənməz,
Birlik olsun səmərimiz, Zülfüqar.

Sevilənlər sadalandı, seçildi,
Gözümüzdən haqqın nuru saçıldı.
Heç bilmədik səhər nə vaxt açıldı,
Hardan gəldi səhərimiz, Zülfüqar.

Həvəsimiz həvəs idi o gecə,
Hamı isti nəfəs idi o gecə,
Bir orduya əvəz idi o gecə,
Bizim bircə nəfərimiz, Zülfüqar.

Sevən güldü, sevilən ləl, yar inci,
Tapa bilsən, hər söhbətdə var inci.
Oxunanda "Kərəm köçdü", zarıncı,
Boğdu bizi qəhərimiz, Zülfüqar.

Sınıq körpü bəzən sınan belimiz,
Xudafərin kökdən düşən telimiz,
Qanlı Araz gözdən axan selimiz,
Belə gəldi qədərimiz, Zülfüqar.

Sevinəcək əcdadımız, cəddimiz,
Savalantək düzələcək qəddimiz.
Dağılacaq hasarımız, səddimiz,
Söküləcək çəpərimiz, Zülfüqar.

Kəleybəri ürəyimə köçürdüm,
Bastamlını varlığımdan keçirdim.
Görən, Allah, nəyi gözdən qaçırdım,
Harda oldu xətərimiz, Zülfüqar.

Gözlər güldü, yoxa çıxdı xəzanlar,
Aynalıda dil-dil ötdü ozanlar.
Şair oldu yazmayanlar, yazanlar,
Varaqlandı dəftərimiz, Zülfüqar.

Unudulmur heyrət anı, sehr anı,
Səsim tutdu dağı, düzü, səhranı.
Sorağımız silkələdi Tehranı,
Dostdan gəldi xəbərimiz, Zülfüqar.

Qəlbə uçmuş saray deyib ağlama,
Haray çəkib, haray deyib ağlama,
O tay deyib, bu tay deyib ağlama,
Qarşıdadı zəfərimiz, Zülfüqar.

Zəfər bizə ruhdan, qandan gələcək,
Ulu addan, uca şandan gələcək.
Neçə-neçə Zəlimxandan gələcək,
Hünərimiz, təpərimiz, Zülfüqar,
Qarşıdadı zəfərimiz, Zülfüqar.

2009

QOŞA SƏTİRLƏR

GƏTİRMƏ

Hər dilinə gələni
sən qələmə gətirmə,
Aləm olmayan sözü
bu aləmə gətirmə.

DİRİ-ÖLÜ

Diri ölülərdən bir xahişim var,
Ölmüş dirilərə toxunmasınlar.

ACAL-MACAL

Ulu Tanrım, yaşamağa
bir az möhlət, macal ver,
Macal verə bilmirsənsə,
bir ağrısız əcəl ver.

TÜSTÜLƏR

Başlar üstə çox dolandı
göz çıxaran tüstülər,
İnsan yedi bir-birini,
küsdürdülər, küsdülər.

YERİN ÜSTÜ – YERİN ALTI

Bu gün yerin üstündəyəm,
sabah altı mənimdir.
Yer altında hər qaranlıq,
hər qaraltı mənimdir.

ZİRVƏLƏRİN EŞQİ

Şimşəklərin, tufanların
dağ başında məşqi var,
Hər tufanda, çaxnaşmada
zirvələrin eşqi var.

TƏBRİZ

Dedilər Bakıdan qonağın gəlir,
Söz gəzdi dodaqdan-dodağa, Təbriz.
Uçdum Savalana, qondum Səhəndə,
Səs düşdü bu dağdan, o dağa, Təbriz.

Küləklər köhləni, qayalar nalı,
Yeddinci göydəydi şairin halı,
Qoşa qanaq bildim Eynal-Zeynalı,
Sığmadım eyvana, otağa, Təbriz.

Duyğular dayaza, dərinə düşdü,
Yolum şəhərlərin pirinə düşdü,
Axır ki, ürəyim yerinə düşdü,
Oldum səndən ötrü sadağa, Təbriz.

Dərələr keçirdim, dağlar aşırdım,
Duyğular selində aşıb-daşırdım.
Çoxdan bu səfərə hazırlaşırdım,
Kəsirdi yolumu qadağa, Təbriz.

Yurda səpələndi mənim hər param,
Elə bil sağaldı yüz illik yaram.
Səndən ayrılsam da, sənsiz olmaram,
Qonaram hər kökə, budağa, Təbriz.

2009

ŞƏHRİYAR QƏZƏLİ

Haqdan ilham alanların meyvə sözü, bar qəzəli,
Yazdırır haqq aşiqinə ismət ilə ar qəzəli.

Arı ilə çiçək kimi öpüşür dodaq-dodağa,
Diqqət eylə, necə çəkir qəzəl tarı, tar qəzəli.

Xanəndənin nəfəsindən bal süzülür dodaqlara,
Ruhlara şərbət dağıdır yar qoşması, yar qəzəli.

Dilində söz, qəlbində köz, ruhunda meydan gətirər,
Məclisi-meyxanə üçün hər şairin var qəzəli.

Gün nə qədər dəyir dəysin, qaralda bilməz ağlığı,
Nazlı yarın sinəsində qərar tutub qar qəzəli.

Dedim bu gün yar eşqinə əyləşim bir qəzəl yazım,
Zəlimxanı sehrə saldı Ulu Şəhriyar qəzəli.

TƏCNİS

Şair dərdi nə dilbilməz olurmuş,
Necə deyim, divar, anla; divar, qan.
Bir ömürdə min bir ömür yaşayır,
Bacarırsan, di var, anla, di var, qan.

Yaxşı bilər öz içi nə, çəkilər,
Fikri Hində, özü Çinə çəkilər,
İçi qandı, öz içinə çəkilər,
Otaq zülmət, qapı bağlı, divar qan.

Yaman gözdən gül yayına, gül gəzə,
Gül əllərdə gül dolana, gül gəzə,
Aşıq Abbas yetişsə də Gülgəzə,
Şah Abbasdan nələr çəkdi Divarqan.

2009

XATİRƏYƏ DÖNƏCƏKSƏN

Xatirəyə dönmək üçün
ölmək hələ bəs eyləmir.
Xatirəsiz keçən ömür
Dodaqlarda sözə dönmür,
qulaqlarda səs eyləmir.
Dilsizin dilinə dönüb,
Əlsizin əlinə dönüb,
yolsuzun yoluna dönüb
Baxışlarda köz oldunsa,
Torpaq kimi sadələşib
Ayaqlarda toz oldunsa,
xatirəyə dönəcəksən!
Ürəyində kibritdən yox,
haqdan yanan çıraq varsa,
Qonaqsansa el-obaya,
evinizdə qonaq varsa,
xatirəyə dönəcəksən!
Ruhun düzdə geniş süfrə,
Yaşıl dağlar sinəsində
Göy alaçıq olan günü
xatirəyə dönəcəksən!
Qapın açıq, qəlbin açıq,
Alnın açıq olan günü
xatirəyə dönəcəksən!
Xatirəyə dönmək üçün
ölmək hələ bəs eyləmir.
Xatirəyə dönən kişi
İçini özünə zindan,
özgəyə məhbəs eyləmir.

İçində dünya gəzdirir,
qəlbində dərya gəzdirir.
İçindəki divarı yıx,
qəlbindəki məhbəsi qır,
Haqqa tapın, haqqı çağır,
xatirəyə dönəcəksən!
Xatirəyə dönəcəksən!

2009

QAZANC

Qəlbimiz geniş oldu,
rahatlığı qazandıq,
Ruhumuz təmiz oldu,
azadlığı qazandıq.
Əlimiz halal oldu,
abadlığı qazandıq,
Ağıl kasıb olanda
Mənəvi yoxsulluğu,
kasadlığı qazandıq.

2009

DOST-DÜŞMƏN

Göy üzü dostum olsa,
Mənim könül dünyama
Günəşini göndərər.
Heç nə üşütməz məni,
İstisini, odunu,
atəşini göndərər.
Yaradan dostum olsa,
Məclisimə nur kimi
mələkləri göndərər.
Yaranan dostum olsa,
Çəmənləri bağlayar,
çiçəkləri göndərər.
Vay o gündən, dostların
çevrilə düşmən ola,
Aydınlığa gedən yol
Tutuşa birdən-birə,
duman ola, çən ola.
Zaman səni unuda,
vaxt səni gözdən sala,
Şah bir az əyri baxa,
taxt səni gözdən sala!

2009

DÜNYA

“Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya”
Hamıdan güclü, qüvvətli,
Hamıdan çəlimli dünya.

Səsdi, ündü, ruhdu, candı,
Həm canandı, həm də candı.
Xoş gündə dərdə dərmandı,
Bəd gündə zülümlü dünya.

Bulud yükün, yağış tərin,
Daş sümüyün, torpaq dərin,
Ağılda hamıdan dərin,
Hamıdan elmli dünya.

2009

HEYİF SƏNƏ, ŞEİRİM MƏNİM

Möminlərin dodağında
oxunmasan dua kimi,
Gedib haqqa yetişməsən
qəlbimdəki ziya kimi,
Heyif sənə, şeirim mənim!

Baldan şirin nemətlərtək
dərilməsən budaqlardan,
Nur almasan baxışlardan,
dad almasan dodaqlardan,
Heyif sənə, şeirim mənim!

Zərbələrin sərt olmasa
mərmi kimi, qurşun kimi,
Nəfəsində güc olmasa
ordu kimi, qoşun kimi,
Heyif sənə, şeirim mənim!

Səni yazan mürəkkəbə,
səni yazan vaxta heyif,
Şöhrət adlı ucalığa,
şahlıq adlı taxta heyif,
Talelərə nur saçmasan
şairdəki baxta heyif,
Heyif sənə, şeirim mənim!

2009

SU TƏCNİSİ

Suyu varsa, həyatı var dünyanın,
Su dövlətdi, su sərvətdi, su vardı.
Zaman yudu, dənizləri qurutdu,
Bu dağlarda göylər boyda su vardı.

Dəniz olar damla-damla damar su,
Ürək sudu, böyrək sudu, damar su.
Yer qalmasın su üzünə tamarzı,
Həyat güldü, hara axdı, suvardı.

Yağış yağdı, axdı, gəldi arxa su,
Qabaq sudu, qənşər sudu, arxa su.
Təcnis oldu Zəlimxanın arxası,
Söz bağını cinaslarla suvardı.

2009

DAŞ TƏCNİSİ

Allah özü memarıdı daşların,
Yaranmadan yaraşıqdı daş daşa.
Elə bil ki, yerdə çaxır ildırım,
Dığırlanıb hər dəyəndə daş daşa.

Sevgi toxum, sevgi sünbül, sevgi dən,
Saçımızda sevgi nişan, sevgi dən.
Yerlər, göylər atəş ala sevgidən,
Sular kimi daş qaynaya, daş daşa.

Çaxmağı çax, ocaq qala, daş qala,
Daş saraydı, daş hasardı, daş qala.
Vay o gündən insan qəlbi daş qala,
Vay o gündən insan qəlbi daşdaşa.

2009

GÖY TƏCNİSİ

Havalanma, asta yeri, rahat gəz,
Yıxılarsan, aşağı düş göydən, ə.
Yer üzündə bərkiməmiş, bişməmiş,
Boş-boşuna nə gəzirsən göydə, nə.

Salma bizi boş hay-küyə, qana, gəl,
Gələn gərək gəldiyini qana, gəl,
Sünbül kimi yetiş ətə, qana, gəl,
Elə yaşa, qoy baş əysin göy, dənə.

Xeyir danış, yetər böhtan, yetər şər,
Yetiş, kişi, yetiş, ustad, yetiş, ər.
Yaxşı kişi kökü üstə yetişər,
Sarı buğda demək olmaz göy dənə.

2009

YAY TƏCNİSİ

Bahar fəsli bir fürsətdi insana,
Çiçəyə dön, öz ətrini yaxşı yay.
Toxum sağlam, səpin halal olanda
Dolu sünbül yetişməzmi, yaxşı yay.

Söz köhləndi, çap cıdırda, min, dolan,
Min boşalsa tükənməzdi min dolan.
Yaxşı sözün dön başına, min dolan,
Sarıyağtək öz canına yaxşı yay.

Günəş nuru necə yayır, yay elə,
Ay Zəlimxan, qışı döndər yay elə.
Döyüş vaxtı qollarını yay elə,
Yaxşı oxu, yaxşı axtar, yaxşı yay.

2009

* * *

Şah taxtını qul baxtına döndərər,
Haram şöhrət, haram dövlət, bir də mal.
Bir şəhərdə yeddi saray yapınca,
Get bir kəndin qulağında bir dam al.

Hünərin var, haqq işinə qarış, di,
Ömrümüzün boyu bircə qarışdı.
İnsan bəxti neçə rəngə qarışdı,
Bir dəm yaşıl, bir dəm qara, bir dəm al.

Haqdan başqa varsa ayrı ocaq, dan,
Qoy alışsın ocaq axşam, ocaq dan.
Dar komada isindiyin ocaqdan
Bir əl qızdır, bir ləzzət çək, bir dəm al.

2009

TARSUSUN ŞƏLALƏSİ

Behcət Kamal Çağların xatirəsinə

Suları çıraqlıdı,
Saçları daraqlıdı,
Naz eləsə haqlıdı
Tarsusun şəlaləsi.

Həm yürüş, həm yarışdı,
Haqqa doğru varışdı,
Həm savaş, həm barışdı,
Tarsusun şəlaləsi.

O çağlaya, yar susa,
Kaman susa, tar susa,
Bir vergidi Tarsusa
Tarsusun şəlaləsi.

Ruhumu şən eylədi,
Dağlara tən eylədi,
Məni məndən eylədi,
Tarsusun şəlaləsi.

Yaylağı yaylam oldu,
Suları laylam oldu.
Məcnunam, Leylam oldu,
Tarsusun şəlaləsi.

Gecə-gündüz oxuyur,
Səs çələngi toxuyur,
Qaracoğlan qoxuyur,
Tarsusun şəlaləsi.

Özünə arxa bilib
Güvəndiyi dağları.
Məndən əvvəl coşdurub
Behcət Kamal Çağları,
Tarsusun şəlaləsi.

Adana, Türkiyə,
2009, 28 sentyabr

XUDAFƏRİN

Qəlbi sınıq gördüm Xudafərini,
Bağrı yanıq gördüm Xudafərini,
Gözü qıpıq gördüm Xudafərini,
Tarixdən aldığı zərbələrə bax,
Alnı çapıq gördüm Xudafərini.

Boyun bükən gördüm Xudafərini,
Dizə çökən gördüm Xudafərini,
Ciyər sökən gördüm Xudafərini,
Araz göz yaşıdı, sulanıb gedir,
Qan-yaş tökən gördüm Xudafərini.

Xeyli var, sevinclə aram sərindi,
Xeyli var, sağalmır, yaram dərindi.
Keçdi iki yüzü illərin sayı,
Fürsət düşmənindi, meydan sənindi.
Yaxşı bax içimə, ay Vətən oğlu,
Yaxşı bax köçümə, ay Vətən oğlu,
Zəlimxan özü də xaraba qalmış,
Tağları sökülmüş Xudafərindi.

2009

BİR ANANIN
BAŞ DAŞINA YAZI

Analar anası çağrıldı adım,
Analıq şərəfi hər şeydən baha.
Mən bir ana kimi inam bəslədim,
Yerdə peyğəmbərə, göydə Allaha.
Qartaltək uçurdum balalarımı,
Torpaqda rahatca yatıram daha!

2010, 26 yanvar

MÖHLƏT MÜSLÜMOVA

O pərdələr, o barmaqlar, o simlər,
Gah dirildir, gah öldürür Möhləti.
Bu dünyanın harasında dil açsa,
Səs tanıdır, tar bildirir Möhləti.

Fəryadımız, ah-zarımız tardadı,
Hər ağrımız, azarımız tardadı.
Beşiyimi, məzarımız tardadı,
Gah ağladır, gah güldürür Möhləti.

Ruhdan gəlir halal sevgi, məhəbbət,
Yaddan çıxmır nə ayrılıq, nə həsrət.
Allahdandı bu ucalıq, bu şöhrət,
İndi bildim kim qaldırır Möhləti.

2010, 30 yanvar

ƏVVƏL – SON

Boşuna gəlmədi heç kəs dünyaya,
Hərə bir sevdanın səsinə gəlir.
Yanar ocaqlara tutdu üzünü,
Ürəklər isinə-isinə gəldi.

Sevilənin dostu, sevənin yarı,
Könül çiçəklərdən bal çəkən arı.
Yaxşı adamların yaratdıqları,
Yaman adamların pisinə gəldi.

Saça bircə-bircə düşdükcə dənlər,
Gözü pərdələdi gəzərgi çənlər.
Zildən oxuyanlar, zildən gedənlər,
Endi havaların pəsinə, gəldi.

Hay desən el-oba haya gələrdi,
Çeşmələr coşardı, çaya gələrdi.
Hamı bir-birinə toya gələrdi,
Hamı bir-birinin yasına gəldi.

2010, 8 fevral

TƏRCÜMEYİ-HAL

Sözü şeirə çevirdim,
Şeiri kitaba,
Kitabı dastana.
Dastanı çiçək-çiçək
Sayrışan gülüstana.
Gülüstanda qovuşdurdum,
Yarı yarına.
Çiçəkləri verdim,
Qarışqanın, kəpənəyin,
Arının ixtiyarına.
Zəriflikdə kəpənəyə,
Yük çəkməkdə qarışqaya,
Bal çəkməkdə
arıya yoldaş oldum.
Ömür dastanını yaratdım,
Çiçək oldum, torpaq oldum, daş oldum.
Səsim çatdı zamandan-zamana,
Zaman oldum, tarix oldum, yaş oldum.

2010, 24 fevral

DAHİLƏR

Nizami Gəncədə uyuyur,
Füzuli Bağdadda,
Xaqani Təbrizdə,
Mövlana Konyada,
Yəsəvi Türküstanda.
Hər biri qərar tutub
Min nağılda, min əfsanədə,
min dastanda.
Nəsimi Hələbdə yatır,
Xətai Ərdəbildə,
Sabir Şamaxıda,
Cavid Naxçıvanda,
Vaqif Şuşada.
Bir doyulmazlıq var
Bu möcüzəli tamaşada.
Hərə bir yerdə qərar tutub
Hərə bir cənnət məkanda uyuyur.
Uyuyur Allahın əziz bəndələri,
uyuyur, uyuyur.
Min illər keçir aradan,
Dahilərə qarşı
Nə sevgi azalır,
Nə istək tükənir,
nə məhəbbət soyuyur!

2010, 25 fevral

SIĞAL

Qəlbim pərişandı, könlüm nigaran,
Ruhumu meh vursun, yel sığallasın.
Dərdimi başımdan dağıtmaq üçün
Saçımı bir yumşaq əl sığallasın.

Dönsün sevgilimə, dönsün yarıma,
Sevgi mələkləri gəlsin karıma.
Səslər sığal çəksin duyğularıma,
Təzənə xal vursun, tel sığallasın.

Alın əllərindən ağrının, yasın,
İtməsin içində ürək his-pasın.
Şair əllərinə tikan batmasın,
Şair barmaqları gül sığallasın.

Vurulan durnatək çıxsam sıradan,
Toz kimi əriyib getsəm aradan,
Yarıda bilməsə məni Yaradan,
Qəbrimin üstünü bel sığallasın.

2010, 28 fevral

ŞAİR AĞRISI

Ağrıya-ağrıya şeir yazanda,
Qələm də ağrıyır, varaq da, söz də.
İllərin əzabı yük olur canda,
Ürək də bulanır, baxış da, göz də.

Yığılır içəri sellər, tufanlar,
Gözdən yaş çıxmır ki, gözə qan çıxır.
Ağrılar içində əriyir anlar,
Şair imtahandan, sınaqdan çıxır.

Axtarır dayazı, gəzir dərini,
Tanıyır yaxşını, yamanı, bədi.
Dünyanın ən böyük şairlərini,
Ən böyük ağrılar şair eylədi.

2010, 9 mart

BABAM FÜZULİDƏN QALMA BİR NEYƏM

Yağ-böyrək içində tutmadım ömrü,
İçimə od vurub yağ əritmişəm.
Gözün ağı getdi, qarası qaldı,
Ağa baxa-baxa ağ əritmişəm.

Gecələr şam kimi əritdim canı,
Odum işıqlatdı ağaran danı.
Öləndə hamının əriyir canı,
Mən öz varlığımı sağ əritmişəm.

Sovrulmuş səhrayam, qovrulmuş göyəm,
Tükənmiş qüvvətəm, üzülmüş heyəm.
Babam Füzulidən qalmış bir neyəm,
Ahımla nə qədər dağ əritmişəm.

2010, 13 mart

YAXŞIYA GÜVƏNMİŞ AŞIQ SARIYAM

Səni axtarıram, səni gəzirəm,
Sağa boylananda, sola dönəndə.
Kərəmin aşdığı ağ gədiklərə,
Məcnunun keçdiyi yola dönəndə.

Xallı kəpənəyəm, ballı arıyam,
Sənlə bütövəm, sənsiz yarıyam.
Yaxşıya güvənmiş aşıq Sarıyam,
Sənin dodaqların bala dönəndə.

Səni nurdan töküb Allahın əli,
Yağdırıb üstünə daş-qaşı, ləli.
Heyrətdən donuram, ay el gözəli,
Sən məni qınama lala dönəndə.

2010, 13 mart

ÖLDÜ VAR,
DÖNDÜ YOXDU

Dedim səni sevirəm,
Öldü var, döndü yoxdu.
Ta son nəfəsə qədər,
Yandı var, söndü yoxdu.

Bizə nə dağ, nə dərə,
Sevənə yox bənd, bərə.
Gəl qalxaq üfüqlərə,
Qalxdı var, endi yoxdu.

Səhrası var, yeli var,
Məcnun kimi dəli var,
Sevənlərin seli var,
Hasarı, bəndi yoxdu.

Soldu çiçəyim, zərim,
Soyudu ilham pərim.
Mənim bu dediklərim
Var idi, indi yoxdu.

2010, 13 mart

GƏLMƏZ

Bir fürsətdi ömür-gün,
Getdisə, daha gəlməz.
Heç bir şeyin qiyməti,
İnsandan baha gəlməz.

Həmi qışdı, həmi yaz,
Həm dərindi, həm dayaz.
Ahı ölçüyə sığmaz,
Ölçüsü aha gəlməz.

Min-bir sual bitirsən,
Min-min cavab yetirsən,
Nəyi izah edirsən,
İnsan izaha gəlməz.

2010, 13 mart

ATAM – MÜƏLLİMİM

Kitab çəmənindən gül dərə-dərə,
Kitablara döndü alnımın təri.
Bu gün də qaldırır məni göylərə,
Müəllim atamın öyrətdikləri.

Gəzdi saçlarımda qayğıkeş bir əl,
Ömrün ləzzətini o tamdan aldım.
Əsl qiymətimi məktəbdən əvvəl,
Doğma evimizdə atamdan aldım.

Uymadım ötəri görkəmə, dəbə,
Elmə əsl sərvət, əsl zər dedim.
Mən elə ilk gündən məktəbə Kəbə,
Müəllim olana peyğəmbər dedim.

2010, 14 mart

GƏLƏCƏYƏM YANINA

Mən bir dəli dağ çayı,
sən bir sahilsiz dəniz,
Gecə-gündüz qoynuna
axacağam mən sənin.
Açan arzularımı, gümüşü sularımı,
Muncuq kimi boynuna
taxacağam mən sənin.

Mən bir ərköyün aşıq,
axıb dolmusan qana,
Buludum, yağışımsan,
sənlə gəldim cana.
Gözlərimi heç zaman
çəkmərəm səndən yana,
Gözlərinə ürəklə
baxacağam mən sənin.

Çay dənizə bağlıdır,
dəniz çaya, yer göyə,
Kainat nizamdadır
bu bağlılıq var deyə.
Gələcəyəm yanına
daşlara dəyə-dəyə
Həmişə əllərini
sıxacağam mən sənin.

2010, 20 mart

BAŞIMIZ QARIŞDI

Açdıq əllərimizlə
göylərin qapısını,
Gecə-gündüz fikrimiz
Yaradana varışdı.
Tək Tanrıya ucalıb,
haqqa qovuşmaq üçün
Dilimizdə səslənən
duadı, yalvarışdı.

Ürək olduq, ruh olduq,
baş olduq, beyin olduq,
İldırımdan sürətli,
şimşəkdən yeyin olduq.
Bir az kövrək, bir az sərt,
bir az ərköyün olduq,
Dünya ilə könlümüz
tez-tez küsdü, barışdı.

Tamahdan qorunmağa
sipərimiz olmadı,
Allaha qovuşmağa
təpərimiz olmadı.
Ömür elə keçdi ki,
xəbərimiz olmadı,
Başımız zaman-zaman
yaşamağa qarışdı.

2010, 20 mart

GÜC

Ən böyük düşməni də
dost eləmək istəyirəm.
Tanrım! Mənə barış
gücü ver!
Ən dəli küləklərlə,
Ən dolu şimşəklərlə
Yarışa çıxmaq istəyirəm,
Mənə yarış gücü ver!
Tanımaq istəyirəm
Doğunu, batını,
Öyrənmək istəyirəm
Şairlərin gücünü,
Fatehlərin həyatını
Mənə axtarış gücü ver!
Öz evimin qapısı kimi
Açmaq istəyirəm fəsilləri
Yandırmağa yay gücü ver,
Dondurmağa qış gücü ver!
Fikrim torpaq əkən
kotan kimi parıldasın,
Mənə kotan qüvvəti,
mənə xış gücü ver!
El atan daş uzaq gedər,
Müqəddəs işlər görməyə
Mənə elin dilindəki,
Xalqın ürəyindəki
alqış gücü ver!

2010, 14 mart

GÖZLƏRİMİZ KOR OLUR

İşləmək üçün yazı masasının arxasına keçdim. Eynəyi gözümə taxanda iki yaşlı nəvəm Zəlimxanın səsini eşitdim: "Baba, sən korsan?" Uşaqlara məxsus gözlənilməz bu sual məni yerimdən oynatdı. Xəyalım məni uzaqlara apardı. Gözlərimin azalan nurunu və nəvəmin sualının cavabını axtarmağa başladım.

Körpə balam, hardan gəldi ağlına,
Bu suala cavab vermək zor olur.
Daraldıqca cavanlığın meydanı,
Baxışımız duman olur, tor olur.

Suallara, cavablara veririk,
Dağdan ağır əzablara veririk,
Nurumuzu kitablara veririk,
Kirpiyimiz kül qarışıq qor olur.

Keçdiyimiz yoldan, izdən başlanır,
Aşdığımız dağdan, düzdən başlanır.
Mənim balam, ölüm gözdən başlanır,
Əzəl-axır haq yerimiz gor olur.

Ömür keçir, möhlətini bitirir,
Karvan gəlir, son mənzilə yetirir,
İşığını itirdikcə itirir,
Yavaş-yavaş gözlərimiz kor olur.

2010, 15 mart

DAHA GECDİ

Daha gecdi, sular məni
boğa bilməz,
Dəniz yoxdu gözlərimin
yaşı qədər.

Daha gecdi, ölüm məni
öldürəmməz,
Ucalmışam o dağların
başı qədər.

Daha gecdi, könüllərdə
kitabım var,
Qat-qat olan qayaların
qaşı qədər.

Daha gecdi, zaman məni
dana bilməz,
Yaşamışam bu dünyanın
yaşı qədər.

2010, 20 mart

MƏNİ QORUYAN VAR

Mənim ürək dostum, könül sirdaşım,
Məni qoruyan var, özünü yorma.
Nə qədər bəlalar çəksə də başım,
Məni qoruyan var, özünü yorma.

İşıq səltənəti zülməti boğu,
Hər səhər üfüqdən Günəşim doğu,
Nə üzərlik gətir, nə göz muncuğu,
Məni qoruyan var, özünü yorma.

Nə səngər, nə də ki, silah qoruyur,
Onu tapındığı dərgah qoruyur.
Şairi həmişə Allah qoruyur,
Məni qoruyan var, özünü yorma.

2010, 20 mart

DEDİLƏR

Ululların ulu sözü
əsrləri bəzədi,
Min il əvvəl deyilən söz
min il sonra təzədi.
Sözlə bağlı dədələrin
vəsiyyəti bizədi,
Uca sözü başınızdan
uca tutun dedilər.

Şair evi haqq evidi,
o evi dərgah bilin,
Nurlu sözü üzünüzə
açılan sabah bilin.
Ruhunuza, qəlbinizə,
dilinizə şah bilin,
Sözə şahlıq edənləri
taca tutun dedilər.

2010, 16 mart

YER KİMİ ŞUMLADIM, ƏKDİM ÖMRÜMÜ

Nə yazdım, yaratdım altmış ildə,
Nə yazdım, həmişə içimi yazdım,
Haqqın qarşısına mərdanə çıxdım,
Savabımı yazdım, suçumu yazdım.

Ətəkdən zirvəyə çəkdim ömrümü,
Zirvədən dərəyə tökdüm ömrümü,
Yer kimi şumladım, əkdim ömrümü,
Əkini, səpini, biçini yazdım.

Qızardı səhralar, qumlar içimdə,
Əridi piltələr, şamlar içimdə,
Nurlandı saraylar, damlar içimdə,
Əyləşdim, işimi-gücümü yazdım.

Ağrılar baş-başa gəzdi canımda,
Dərd verdi şöhrətim, adım-sanım da.
Özüm çörək yedim öz ehsanımda,
Qırxımı, yeddimi, üçümü yazdım.

Harda karvan oldum, harda köç oldum,
Harda var olmuşdum, harda heç oldum,
Harda qurban oldum, harda qoç oldum,
Qurbanımı yazdım, qoçumu yazdım.

Alışdım içimdən çölümə qədər,
Gördüm mükafatdan zülümə qədər.
Hər şey hesablandı ölümə qədər,
Karvanımı yazdım, köçümü yazdım.

Ömrüm çiçəklərdən bal çəkən arı,
Döndü kitablara könlümün barı.
Qaralda-qaralda ağ varaqları,
Bu yolda ağaran saçımı yazdım.

2010, 21 mart

MƏNİ DƏ GÖNDƏRDİ BUĞDA DALINCA

Yunus Əmrəyə

Məni də cavankən çöllərə saldı,
Bir çarıq, bir əsa, bir əba verdi.
Məni də göndərdi buğda dalınca
Yol verdi, at verdi, araba verdi.

Tapdım ərənimi, tanıdım əri,
Ona hizmətdəyəm o gündən bəri.
Dedi abad elə bu könülləri,
Nə qədər dağılmış xaraba verdi.

Tanrıya sirdaşam, haqqa yaram mən,
Dünən yox olmuşdum, bu gün varam mən.
Tək olan Allaha minnətdaram mən,
Mənə Yunus kimi bir baba verdi.

2010, 21 mart

MƏCLİS

Bir məclis istəyirəm,
pir ozanlar məclisi,
Hər dil, səs bir gülə dönə,
hər söz gülüstan ola.
Ya bir çay kənarında,
ya bir çeşmə başında,
Qərar tutduğumuz
bağ ilə bostan ola.

Buğdaları səpilə,
zəmiləri biçilə,
Sayılanlar sayıla,
seçilənlər seçilə.
Ərənlərin əlində
badələrim içilə,
Hər söz saf polad kimi
təmizdən, xasdan ola.

Yarada söhbətini
möcüzədən, sehrdən,
Götürə mayasını
ilham adlı nəhrdən.
Yeriyə Xorasandan,
qalxa Əskişəhrdən,
Yunus gəlir deyələr,
xoş xəbər dostdan ola.

Müşkülləri düzəldər,
sınıq könüllər yapar,
Özünü gəzən bular,
haqqı axtaran tapar.

Gör nə aləm yaranar,
gör nə qiyamət qopar,
Qorqud əlində qopuz,
dilində dastan ola.

Baxmaya yollar boyu
yağan qara, yağışa,
Bir ocağın başına
minbir ozan yığışa,
Dünya bir ürək kimi
bir məclisə sığışa,
Qul Ələsgər Göyçədən,
Veysəl Sivasdan ola.

Tapa ölümsüzlüyün,
diriliyin çəmini,
Bir cənnətə döndərə
hərə öz aləmini,
Unuda insan oğlu
bu dünyanın qəmini,
Söhbət nə dərddən düşə,
nə də ki, yasdan ola.

Sazla, sözlə çəkələr
təbiətin rəngini,
Ozan kökündə qura
Kainat ahəngini.
Çala "Baş müxəmməsi",
çala "Təbil cəngini",
Axırda Qoç Koroğlu
kükrəmiş aslan ola!

2010, 22 mart

PİR SULTAN MEYDANI

Sığışmıram bəyliyə,
sığışmıram xanlığa.
Həmişə can atmışam,
söz adlı xaqanlığa.
Tanrım, mənə bu yaşda
Bir sultan meydanı ver!

İşıq ver yanaqlara,
şirə ver dodaqlara,
Vaxtsız solmasın lalam.
Dayaq ol hasarıma,
Uçmasın qəsrim, qalam.
Ulular meydanında,
Hələ ki bir abdalam,
Mənə Pir Sultan eşqi,
Pir sultan meydanı ver!

2010, 21 mart

AY ZƏLİMXAN, ALTMIŞIN MÜBARƏK!

Ömür nədir? Dünən çiçək, bu gün qar,
Ötən yazın, gələn qışın mübarək!
Qarı görüb qəlbin yaman kövrəlib,
Düyünlənmiş tutqun qaşın mübarək!

Dönə-dönə bərkə-boşa çəkdilər,
Bir dağ idin, qaya-qaya sökdülər,
Doğradılar, şumladılar, əkdilər,
Sinən üstdən keçən xışın mübarək!

Gül olacaq, qar olacaq, nə bilim,
Yox olacaq, var olacaq, nə bilim,
Ömür harda qırılacaq, nə bilim,
Yüzə doğru gedən yaşın mübarək!

Əcəl zalım, insan oğlu fağırdı,
Bir də gördün ölüm səni çağırdı,
Çəkdiyin yük bu dünyadan ağırdı,
Nəmli gözün, qəmli başın mübarək!

Tanıdılar, bəllədilər bəllini,
Özün tapdın hər misalın həllini,
Sağ-salamat yola saldın əllini,
Ay Zəlimxan, altmışın mübarək!

2010, 22 mart

SABAH SİZİN OLMAYACAQ

Gülüşü əsirgəməyin dodağınızdan,
İçənlər qoy ovuc-ovuc içsin.
Sevgini əsirgəməyin bulağınızdan,
Ömür adlı çəməndən
Bal süzün, qaymaq çəkin.
Ağlayanla hönkürün,
Gülənlə şaqqanaq çəkin.
Sevindirin ürəkləri,
Güldürün baxışları.
Qoy ömürlər uzansın,
Artırın duaları,
Çoxaldın alqışları.
Ovundurun qocaları,
Gülləndirin uşaqları,
Qoy xoş söz eşitsin
İnsan oğlunun qulaqları.
Ömür dünyanı
tutmaq üçün deyil!
Beş-on günlük möhlətdi –
İnsanlığı, insanı,
hər gün sınağa çəkən
İmtahandı, fürsətdi.
Bu gün nə eyləsəniz,
Allahdan icazədi, izindi.
Sabah Tanrıdan ixtiyar,
Allahdan izin olmayacaq.
Bu gün sizin olanların heç biri,
Sabah sizin olmayacaq!

2010, 22 mart

DOLU GETDİM, DOLU GƏLDİM

Səfər etdim söz dalınca,
Dolu getdim, dolu gəldim.
Bu dünyanın o başından,
Mənə çatan yolu gəldim.

Hər sözümü tutdum zərə,
Öz payını aldı hərə,
Axdım yanan könüllərə,
Çeşmə kimi sulu gəldim.

Nəfəsimdən nur yağası,
Canım şeirin sadağası,
Oldum sözümün ağası,
Oldum haqqın qulu, gəldim.

Döndüm saza, döndüm neyə,
Kəmənd atdım yerə-göyə,
Ululardan deyə-deyə,
Ululaşdım, ulu gəldim.

2010, 23 mart

YAR QOŞMASI

Axşamüstü yar yanına gəlirdim,
Yar get dedi, yar get dedi, neyləyim.
Utanmağı mənə baha oturdu,
Ar get dedi, ar get dedi, neyləyim.

Qurban olum həyasına, arına,
Yaxın qoymur bağçasına, barına,
Əl uzatmaq istəyəndə narına,
Nar get dedi, nar get dedi, neyləyim.

Evlər yıxan bir gözləri qara var,
Aramızda bircə addım ara var,
Dedim məndə sən vurduğun yara var,
Yar get dedi, yar get dedi, neyləyim.

Dilə salıb könlümüzü yıxan var,
Şimşək olub başımızda çaxan var,
Durma burda, daldalardan baxan var,
Var get dedi, var get dedi, neyləyim.

Boşa vermə yar saatı, yar anı,
Belə fürsət bir də çətin yaranı,
Qışın qarı yaman kəsdi aranı,
Qar get dedi, qar get dedi, neyləyim.

2010, 23 mart

DURULA BİLMİR

Zaman bulandırır əhvalımızı,
Axşamı saflaşıb, danı durulmur.
Min duru çeşmənin gözlərinə bax,
Yenə də adamın qanı durulmur.

Bir uçan saraydı, hər sınan könül,
Himindən çökürsə, durula bilmir.
Bir anın içində bulanan könül,
Bir ilin içində durula bilmir.

2010, 5 mart

ÖMRÜN MƏNZƏRƏSİ

Torpaqtək, toxumtək, zəmitək,
Əkildim, səpildim, biçildim.

Düyütək, çörəktək, şərabtək,
Döyüldüm, yeyildim, içildim.

Dağ idim, daş idim qum oldum,
Üyüldüm, əzildim, kiçildim.

2010, 20 mart

DÖRDLÜK

Dənim təravətli, sünbülüm dolu,
Meh vuran dəniztək ləpələnmişəm.
Bərəkət yoludu şairin yolu,
Dən-dən könüllərə səpələnmişəm.

KEÇDİ

Ümid oldum ömrə, günə,
Yaş məni doğradı, keçdi.
Əl atdım sal qayalara,
Daş məni doğradı keçdi.

Endi əkinə-biçinə,
Düşdü dilimin ucuna,
Zəhər qatdılar içinə,
Aş məni doğradı keçdi.

Xırmanımı vəl apardı,
Çiçəyimi yel apardı,
Gözlərimi sel apardı,
Yaş məni doğradı keçdi.

Nəzər adlı bıçaq kəsdi,
Sevinc məndən ayaq kəsdi,
Buz göynətdi, sazaq kəsdi,
Qış məni doğradı keçdi.

Çiçək oldum, yarpaq oldum,
Xəzan vurmuş bir bağ oldum,
Tapdalandım torpaq oldum,
Xış məni doğradı keçdi.

2010, 24 mart

MƏNZƏRƏ

Şükür Allaha,
Ömrün sınağından
çıxmışam daha.
Nə bir könül sındırdım,
Nə bir kəsin bostanına
daş atdım.
İnsanı öldürən
hər şeyi atdım.
İnsanı yaşadan
hər şeyi yaşatdım,
Ömrüm boyu
ucalığa can atdım.
Nə bir yuva uçurdum,
Nə bir quşun
dimdiyini qanatdım.
Zəhmətə Allah dedim,
gecəni gündüzə qatdım,
nə dincəldim, nə yatdım.
On beşdə də ölə bilərdim,
otuzda da,
Qarda da dona bilərdim,
buzda da,
Amma yaşadım.
Bütün illərin ləzzətini,
Sevincini, əzabını daddım,
Günlərin birində
gəlib altmışa çatdım.

2010, 25 mart

GƏZİRDİM ÇÖLLƏRİ BİR YAZ AXŞAMI

Gəzirdim çölləri bir yaz axşamı,
Ruhumun, qəlbimin bir saz axşamı,
Dünyanın ən xoşbəxt söz adamıydım.
Şeirimi çiçəklər oxuyurdular,
Arılar, böcəklər oxuyurdular,
Səs-səsə vermişdi qarışqalar da,
Xallı kəpənəklər oxuyurdular.
Enmişdi yanıma göydən mələklər,
Tanrılar, fələklər oxuyurdular.
Bütün keçmişlərə çatmışdı şeirim,
Bütün gələcəklər oxuyurdular.

İnana bilmirdim qulaqlarıma,
Quşlar oxuyurdu şeirlərimi.
Kəklik də, qartal da söz yarışında,
Daşlar oxuyurdu şeirlərimi.
Sünbüllü zəmilər dalğalanırdı,
Düzlər oxuyurdu şeirlərimi.
Oğullar söz açır "yaşıl ağac"dan,
Qızlar oxuyurdu şeirlərimi.

Mənim şeirlərim boş dayanmayıb,
Çöllərlə danışıb səyyah dilində.
Dərdi ürəklərdən çəkib çıxardıb,
Xəstəylə danışıb cərrah dilində.
Yoxsula həmdəmdi dar komalarda,
Sarayla danışıb padşah dilində.
Dağ da başa düşür, daş da anlayır,
Şair danışanda Allah dilində.

Anam necə dinir, necə danışır,
Şeirimi anamın dilində yazdım.
Məni dilləndirən, məni dindirən,
Sevgimin, sonamın dilində yazdım.
Sağlam əqidənin, saf təbiətin,
Allaha inamın dilində yazdım.
Halal kişilərdən halal söz aldım,
Halal bir ilhamın dilində yazdım.

Gözümlə gördüm ki, bir yaz axşamı,
Qəlbimin, ruhumun bu saz axşamı
Qəlbinə köçürüb təbiət məni,
Torpağın, səmanın yaddaşındayam.
Buludun, yağışın, otun, yarpağın,
Zirvənin, dumanın yaddaşındayam.
Dünən yer ayırıb, bu gün yer verib,
Tarixin, zamanın yaddaşındayam!

2010, 26 mart

SEV, EY KÖNÜL, SEV

Çəməni, çiçəyi, gülü, naxışı,
Buludu, dolunu, qarı, yağışı,
Yanağı, dodağı, gözü, baxışı,
Sev, ey könül, sev!

Qayanı, qartalı, zirvəni, dağı,
Cığırı, keçidi, körpünü, tağı,
Yaşılı, sarını, qaranı, ağı,
Sev, ey könül, sev!

Dənizi, dalğanı, sahili, qumu,
Zəmini, xırmanı, torpağı, şumu,
Özəyi, bəzəyi, qabığı, tumu,
Sev, ey könül, sev!

Üfüqü, Günəşi, ulduzu, Ayı,
Çölü, şəlaləni, çeşməni, çayı,
Vergini, bəxşişi, sovqatı, payı,
Sev, ey könül, sev!

Boyu, yaraşığı, libası, donu,
Şənliyi, nişanı, xonçanı, xonu,
Doğumu, ölümü, əvvəli, sonu,
Sev, ey könül, sev!

Havayı süzülmə, havayı axma,
Boşuna gurlama, boşuna çaxma,
Sevmək fürsətini əldən buraxma,
Sev, ey könül, sev!

Səfər nə, karvan nə, köç nə qalmasın,
Savab nə, günah nə, suç nə qalmasın,
Sev ki, sevmədiyin heç nə qalmasın,
Sev, ey könül, sev!

2010, 30 mart

SƏNİ MİN İLLƏRƏ HESABLAMIŞAM

Altmış özü də az ömür deyil,
Haqqın dərgahından söz alan ömrüm.
Peyğəmbər ömrünə yaxın ömürdü,
Getdikcə qısalan, azalan ömrüm.

Həm uca saraysan, həmi daxma, dam,
Həm doğan Günəşsən, həm sozalan şam,
Səni min illərə hesablamışam,
Cismani möhləti az olan ömrüm.

Ötkəmdi, möhkəmdi, məğrurdu, şıxdı,
Çox-çox ömürlərə yar-yaraşıqdı.
Həzin xanəndədi, coşqun aşıqdı,
Ney olan, tar olan, saz olan ömrüm.

Bələklə kəfəndi, ruh ilə bədən,
Tez uçdu, tez keçdi bilmirəm nədən,
Gözəli görəndə ürəyi gedən,
Ağlını başından qız alan ömrüm.

Ruhlara dəm verən, hala gətirən,
Sözü şirinliyən hala gətirən,
Dili öz başına bəla gətirən,
Qəbri öz əliylə qazılan ömrüm.

Sıyrıldım şübhədən, çıxdım gümandan,
Qorxub çəkinmədim dağdan, dumandan,
Tarixdən, yaddaşdan, vaxtdan, zamandan,
Naz çəkən, naz satan, naz alan ömrüm.

Keçmişə bağlandın, sabahı sevdin,
Dərgaha çevrildin, dərgahı sevdin,
İnsana baş əydin, Allahı sevdin,
Alnına ucalıq yazılan ömrüm.

2010, 30 mart

DOSTLUQ

Yazıq ömür talanmadın de
kimlərin əlində,
Hey didildin, parçalandın
hökmlərin əlində.
Gözü qalar iynələrin,
həkimlərin əlində,
Dərdi ağır olan xəstə
dərman ilə dost olar.

Gözlərindən yayındırmaz
bir çınqını, bir daşı,
Üfüqlərin həmdəmidi,
zirvələrin qardaşı.
Təbiətdə nə ki sirr var
hər birinin sirdaşı,
Əkən, səpən, döyən, biçən
xırman ilə dost olar.

Qayalaşar, qayaların
sərt dilində danışar,
Od dilində, quş dilində,
qurd dilində danışar,
Yerin, yurdun doğmaları
yurd dilində danışar,
Ocaq ilə, oymaq ilə,
orman ilə dost olar.

Hər yaradan, hər yaranan
bir çırpınan ürəkdi,
Yaradılan hər nə varsa
Yaradana gərəkdi.
Nökər olan kimsələrin
dostu beldi, kürəkdi,
Padşah olan hökm verər,
fərman ilə dost olar.

2010, 10 aprel

SUAL

Başına hava gələn dövlətlər var,
Bulandırır dünyanın havasını,
Özünün bir çöpü itsə dünyanı dağıdar,
Dağıdır min-min çöp bahasına
başa gələn quşların yuvasını.

Özündə bir adam öləndə,
Matəm günü elan edir.
Tutmur, tutmaq istəmir,
ancaq İraqda, Əfqanıstanda, Xocalıda,
Qoşun-qoşun ölənlərin yasını.
Görəsən elə bir oğul gələcəkmi dünyaya,
Kəsə birdəfəlik xeyirlə şərin,
Haqq ilə nahaqqın səngiməz davasını!

2010, 31 may

DEDİM-DEDİ

Niyə fikirlisən dedim, ay qoca,
Bir kimsə yaramı sarımaz dedi.
Arsızam, yaşadım bu günə qaldım,
Arım az, arım az, arım az dedi.

Yaxınlar tanımaz, uzaqlar anmaz,
Heç kəs bir dərdinə, oduna yanmaz,
Bəxti yatanların bəxti oyanmaz,
Heç vaxt yoxsulunku yarımaz, dedi.

Gözündən tökülər ağların çayı,
Toyunun yasına qarışar vayı,
Bağlanar qapısı, kəsilər payı,
Yetim yarısa da, qarımaz dedi.

2010, 1 aprel

NƏ BİLİM

Eşitmişəm, görməmişəm,
Əhli-haldımı,
nə bilim.
Dil ballanmış pətəkdimi,
Dodaq baldımı,
nə bilim.

Xanımdımı, kənizdimi,
Damladımı, dənizdimi,
Ağüzlü aybənizdimi,
Qara xaldımı,
nə bilim.

Ellidimi, elsizdimi,
Əllidimi, əlsizdimi,
Dillidimi, dilsizdimi,
Dili laldımı,
nə bilim.

Telin ucu hörmədimi,
Gözündəki sürmədimi,
Başındakı tirmədimi,
İpək şaldımı,
nə bilim.

Özgələr yox, özü deyib,
Qaşı deyib, gözü deyib,
Bir "sevirəm" sözü deyib,
Sözü faldımı,
nə bilim.

2010, 24 aprel

RUHUN GÜCÜ

Mən ruhuma arxayınam,
qüvvətim, gücüm onda,
Ən möhtəşəm müdafiə,
ən qəti hücum onda.
Ancaq ruhun gücü yetər
min illərə çatmağa,
Min il yatmış duyğuları
yenidən oyatmağa.
Ömrüm boyu baş əymədim
bir yağıya, bir yada,
Ruhum çəkib çıxardacaq,
gəmim batsa dəryada.

2010, 20 may

DİRİLİK

Qurumuş bulağın gözünə baxdım,
Qaynar baxışımdan çeşmə dirildi.
Sular şair ilə pıçıldaşanda,
Bayatı dirildi, qoşam dirildi.

2010, 21 may

ŞEİRİM, QALDIR SÖZÜ TANRI TAXTINA

İki cahanda da üzün ağ olsun,
Üzağlığı gətir ağ varaqlara.
En göyün üzündən bərəkət kimi,
Şeirim, yağış kimi yağ varaqlara.

Günəşdən od istə, odunu versin,
Torpaqdan dad istə, dadını versin,
Göylərdən süd istə südünü versin,
Buludu süd kimi sağ varaqlara.

İlham qanad versə şair baxtına,
Dönər könül evi ruh paytaxtına.
Şeirim, qaldır sözü Tanrı taxtına,
Baş əysin ən uca dağ varaqlara.

2010, 22 may

ÖMÜRDƏN MƏNZƏRƏ

Dünən bahar idim,
çiçəklənirdim,
Bu gün payız kimi
yarpaq tökürəm.
Özüm öz ömrümü
dəfn eyləyirəm,
Özüm öz gözümə
torpaq tökürəm.

2010, 3 iyun

KRIM DƏFTƏRİ

ÇÖLƏ DÜŞƏN SÖZ

Ürəkdən gəlməyən ürəyə yatmaz,
Dildən duru çıxar dilə düşən söz.
Çıxıb Xançobanın odlu dilindən,
Saranı çağırır selə düşən söz.

İtmir yer-yataqlı, məkanlı sözlər,
Batmır xəzinəli, dükanlı sözlər,
Keşişdən dərs alıb tikanlı sözlər,
Kərəmə bənzəyir külə düşən söz.

Bəxtə bar yazılıb, bəhrə yazılıb,
Tahir qismətinə Zöhrə yazılıb,
Məcnunun eşqinə səhra yazılıb,
Leylini axtarır çölə düşən söz.

Söz var boğazındı, söz var qanındı,
Söz var nəfəsindi, söz var canındı,
Sazda dil açırsa, Zəlimxanındı,
Məndən mayalanıb telə düşən söz.

Yalta, 2010, 11 iyun

QILINC AĞZI KİMİ

Mənim taleyimi yazanda Tanrı,
“Hər gün alış”, “hər gün yan” yazıb.
Daş üstə yazılan şeirə baxıram,
Mənim damarımdan axan qan yazıb.

Şair taleyində min dərdi-sər var,
Dilində, sözündə güc var, kəsər var,
Ömrümə yazılan neçə əsər var,
Onu haqdan gələn xoş bir an yazıb.

Nə pərdə unudar, nə mizrab, nə sim,
Yaddaşa yar olmaq bəsimdir, bəsim.
Min illər sonra da gələcək səsim,
Desələr bu şeiri Zəlimxan yazıb.

Yalta, 2010, 12 iyun

MƏN NİYƏ BU QƏDƏR AĞRI ÇƏKƏNƏM

Ağlasan, mən səndən betər ağlaram,
Yaşlı gözlərində gilə bil məni.
Bütün dərdlilərə həmdərd olmuşam,
Hər zaman hər yerdə belə bil məni.

Vurar keşiş məkri qara pəncəni,
Gətirər başına hər işgəncəni,
Gözüyaşlı qoyma qədim Gəncəni,
Kərəmsən, yanında Lələ bil məni.

Dərd əhli kim varsa, hamı məndədi,
Dərdin hər çeşidi, tamı məndədi.
Cəmşidin qəm dolu camı məndədi,
Eşq ilə dodağı silən bil məni.

Qəribi görəndə qürbət çəkənəm,
Yetimi görəndə boyun bükənəm,
Mən niyə bu qədər ağrı çəkənəm,
Başa düş, dərk eylə, bilə bil məni.

Yalta, 2010, 12 iyun

KİN DƏRİN QUYUDU

Hamı addım atdı Allaha tərəf,
Ömründə bir addım sən atmamısan.
Hamıya quş qoyub, daş atan alçaq,
Bir quş yuvasına dən atmamısan.

Kin sənin düşdüyün dərin quyudu,
Kim orda qaldısa batdı, uyudu.
Çirkab sənin üçün çeşmə suyudu,
Heç zaman saflığa can atmamısan.

Yalta, 2010, 13 iyun

QOŞA SƏTİRLƏR

HARDA OLURSAN OL

İstər arxada dur, istər önə çıx,
Harda olursan ol, bir ağ günə çıx.

DURULMAZ SU

Sevgi qarlı dağdı, kin dərin quyu,
Kinə baş qoşanın durulmaz suyu.

GÖRÜŞ-AYRILIQ

Gözəlliklə görüşərsən gözəl olarsan,
Gözəllikdən ayrılarsan xəzəl olarsan.

Yalta, 2010, 13 iyun

BÖYÜK ZİYARƏT

İsmayıl Qaspıralının ev-muzeyində və məzarı başında düşüncələr

Türkün böyük oğlu, böyük övladı,
Bir yay axşamında evinə gəldim.
Dahilər tanıdır ünvanı, anı,
Yurduna sevinə-sevinə gəldim.

Ey Krım türkünün sevinci, yası,
Ey dünya türkünün fikir babası,
Bizi bir olmağa çağıran kişi,
Həmfikir olmağa çağıran kişi.

İslamım, imanım, Türküm, Turanım,
Misirdə, Qafqazda, Anadoluda,
Qədim Türküstanda, doğma Krımda
Məktəb yaradanım, meydan quranım.
Canda nəfəs olan, ruhda can olan,
Şah sözü, şah fikri "Tərcüman" olan,
Boyuna ucalıq biçilən kişi.
Haqqın nəzərində, xalqın yanında,
Sayılan, sevilən, seçilən kişi.
Zərdabi yurdundan salam gətirib
Eşqinə pərvanə bir insan gəlib.
Gətirib ruhunu Azərbaycanın,
Mehmanın olmağa Zəlimxan gəlib.

Əyləşdiyin masa, yazdığın qələm,
Oxuduğun kitab ziyarətimdi.
Böyük bir millətin haqqı yolunda,
Çəkdiyin iztirab ziyarətimdi.

Əllərin toxunan, nəfəsin dəyən,
Gözlərin oxşayan, ürəyin deyən,
Nə varsa hamısı ziyarətimdi.
Bir qəlbin qeyrəti, fədakarlığı,
Bir xalqın namusu ziyarətimdi.

Qısa görünərdi boyu millətin,
Uca oğulları boy atmasaydı.
Mürgülü başları silkələməsə,
Yatanı vaxtında oyatmasaydı.

Harda yuva salıb, harda kök atıb,
Əsliniz, soyunuz ziyarətimdi.
Bizim qəlbimizdə, yaddaşımızda,
Ucalan boyunuz ziyarətimdi.

Can atdım tarixin qədim yaşına,
Sən çıxan zirvəni saxlayammadım.
Üzümü sürtəndə qəbir daşına,
Gözümün yaşını saxlayammadım.

Tarix qiymət verər, zaman yaşadar,
Harda olur olsun haqq oğlu haqdı.
Bu gün mənim üçün bir təsəlli var:
Məzarın ziyarət, evin ocaqdı.

Krım, Bağçasaray,
2010, 15 iyun

YAĞIRDI YALTAYA YAY YAĞIŞLARI

Yağırdı Yaltaya yay yağışları,
Enirdi hər damla nəğmə, səs kimi.
Dünya gözlərimdə təzələnirdi,
Sinəmə çəkdiyim tər nəfəs kimi.

Dəniz də, meşə də, dağ da, duman da
Baxıb bir-birinə naz eyləyirdi.
Ağaclar çimirdi su pərisi tək,
Çiçəklər kefini saz eyləyirdi.

Sevən könülləri nurlandırırdı,
Doğan göy qurşağı, çaxan ildırım.
Qınından sıyrılan qılınc olurdu,
Buluddan sıyrılıb çıxanda Krım.

Yaltada yağışlar şeir yazırdı,
Yarpağa, torpağa, qönçəyə, gülə.
Təzə rəng qatırdı, boya verirdi,
Xalıya, ipəyə, məxmərə, tülə.

Yağırdı Yaltaya yay yağışları,
Hava bal dadırdı, pətək dadırdı.
Çaxan şimşəyiylə, axan seliylə,
Bizim Kəlbəcəri xatırladırdı.

Yalta, 2010, 17 iyun

SƏNDƏN BAHASI YOXDU

Ürəklərə gedən yol,
gözəlliyin yoludu,
Bu dünya başdan-başa
gözəlliyin yoludu.
Səndən gözəli yoxdu.

Heç bir gülün, çiçəyin,
Dünyada sənin qədər
Ətri yox, rəngi yoxdu.
Qəşəng olanlar nə çox,
Səndən qəşəngi yoxdu.

Heç bir bağın, bağçanın,
Həyatda sənin qədər
Gülü, qönçəsi yoxdu.
Nə çoxdu bu dünyada
İncə belli gözəllər,
Səndən incəsi yoxdu.

Nə çoxdu yer üzündə,
Sərvət dolu sinələr.
İçi daş-qaşla dolu
Əvəzsiz xəzinələr.
Yoxdu, səndən varlısı,
Səndən bahası yoxdu.
Niyəsini soruşma,
Daha niyəsi yoxdu,
Daha dahası yoxdu.

Yalta, 2010, 18 iyun

SEVİRƏM

Səfərə çıxmağı sevirəm,
Kərəm kimi yanımda bir
Ləläm ola.
Uzaq yola körpü sala,
Yol yoldaşım, könül dostum
Bir ayrıca aləm ola!

Cıdıra çıxmağı sevirəm,
Atım təkcə at olmaya,
Ürəyində çat olmaya,
Yarışlarda mat olmaya,
Sevgi dolu bir at ola!
Qanadları əriməmiş,
Qırat ola, Dürat ola!

Yaşamağı sevirəm,
Ömrüm-günüm
dolu gələ, dolu keçə.
Bir ömürdə minbir illik
yolu keçə.

Xəstələnməyi sevirəm,
Məni xəstələndirən,
İlahi bir gözəl ola.
Təpə-dırnaq işıq saça,
Əl köz ola, köz əl ola!

Gözəl ölümü sevirəm,
Əzrayılım nə dərd ola,
nə ah ola.
Gədə-güdə öldürməyə,
Öldürənim Allah ola!

Yalta, 2010, 18 iyun

ÖLÜM-DİRİM

Bütün vəzifəlilər atalı,
Bütün şöhrətlilər xatalı,
Bütün sevgililər butalı,
Min dəfə ölür-dirilir,
İnsan sağ-salamat gəlib
Bir arzuya çatalı.

Yalta, 2010, 18 iyun

QOCANIN ŞİKAYƏTİ

Cavanlıqla qocalıq,
O getməmiş bu gəldi.
Gözlərim yalan oldu,
Ciyərimdən su gəldi.

Düçar oldum naşıyla,
Zaman döydü daşıyla.
Gözlərimin yaşıyla
Cənazəmi yu, gəldi.

Nə iştah var, nə də aş,
Yaş üstünə gəldi yaş.
Gün batdı yavaş-yavaş,
Ömrün qürubu gəldi.

Yalta, 2010, 19 iyun

DOĞUM-ÖLÜM

Rahat yaşamağa qoymur dünyanı,
Çaxnaşma gələndə rahatlıq ölür.
Ehtiyac meydanda at oynadanda,
Kasadlıq doğulur, abadlıq ölür.
Azadlıq öləndə cəllad doğulur,
Cəllad doğulanda Azadlıq ölür.

Yalta, 2010, 21 iyun

ALLAH UTANDIRMAZ

Nə çoxdu Tanrının şah əsərləri,
Yazmaqla qurtarmaz, deməklə bitməz.
Duymasa gördüyü gözəllikləri,
Şairin səsini Allah eşitməz.

Allahın səsini eşidən şair,
Dünyanın şəklini gözünə çəkər.
Uca Yaradanın yaratdıqları,
Nə varsa hər şeyi özünə çəkər.

Əbədi nur kimi alışar-yanar,
Doğan bir Günəşdi, boşuna yanmaz.
Allah utandırmaz sevən şairi,
Allahın yanında şair utanmaz!

Yalta, 2010, 21 iyun

ETİRAZ

Sənə bir işim düşüb,
Bu iş düzələnədək
Qartıyıb qocalmışam,
Ağzımdan dişim düşüb.
Ümidimi qırma,
Boğazını cırma,
Asta danış, bağırma!
Sən onu istəyirsən
İşi düzələn kişi
Əyildikcə əyilsin,
Hüzurunda baş əysin.
Sənin düzəltdiyin iş,
Sənin başına dəysin!

Yalta, 2010, 21 iyun

TANRININ ÜZÜ KİMİ

Dumduruyam, dumduru,
Bulağın gözü kimi.
Əritmişəm həsrəti
Dağların buzu kimi.
Duyğular ürəyimdə
Bəslənir quzu kimi.
Dadlıyam, bu dünyanın
Çörəyi, duzu kimi.
Doğulmuşam yerin eşqi,
Göyün ulduzu kimi.
Üz-gözüm işıqlanıb
Tanrının üzü kimi.

Yalta, 2010, 21 iyun

ÖLÜM DURUR NÖVBƏDƏ

Bir az qəlbimi dindir,
Bir az könlümü isindir.
Məni sərt qayğıların
Vəhşi pəncəsindən al,
Ruhuma bir layla çal.
Sığalla telimi,
Dara saçımı,
Ödə əllərinə olan
Zərif ehtiyacımı.
Soyutma baxışlarını,
Gözümə yaxşı bax.
Üşütmə sözlərimi,
Sözümə yaxşı bax.
Yaxşı baxmışdın,
Otuzuma, qırxıma, əllimə,
Ümidinə, təsəllimə.
Dünən baxdığın kimi
Doxsanıma, yüzümə yaxşı bax!
Ödə qəlbimin, ruhumun,
Dilimin, dodağımın ehtiyacını.
Ödə!
  Ödə!
    Ödə!
Vaxta bir şey qalmayıb,
Ölüm duru növbədə!

Yalta, 2010, 23 iyun

BU GÜN MƏNİM ÜRƏYİM

Bu gün mənim ürəyim
dünyada bir dünyadı,
Mövlananı tapan Şəmsdi,
Şəmsi itirən Mövlanadı.
Hacı Bəktaşın sığındığı guşədi,
Dərvişin dərgahdan aldığı nəşədi.
Yunusun gəzdiyi çöldü,
Məcnunu dolaşdığı səhradı,
Tahirin düşdüyü dəryadı.
Kərəmin payına düşən küldü,
Xançoban adında yanan könüldü.
Koroğlunun çaldığı sazdı,
Nigar xanıma
Durna teli gətirən Eyvazdı.
Bağdaddan gələn səsdi,
Təbrizdən gələn nəfəsdi.
Qəribi Tiflisdən Hələbə gətirən
Xıdır İlyasın atıdı.
Vaqifin vurulduğu gözəldi,
Vidadinin dilindəki bayatıdı.
Saranı aparan seldi,
Qarşıda bir ordudu,
arxada bir eldi.
Füzulinin "Şəbi-hicran"ıdı,
Şəhriyarın çağlayan ilhamı,
ağrıyan canıdı.
Bu gün mənim ürəyim
Min illərin bağrından qopan,
Sazın yaddaşına hopan,
Özünü Dədə Qorqudda,

Ələsgərdə tapan,
Dədəsi Yunus kimi
Sınıq könüllər yapan
Canın içindəki ürəkdi,
Ürəyin içindəki candı.
Allah aşiqi, peyğəmbər vurğunu,
İnsan pərvanəsi Zəlimxandı!

Yalta, 2010, 22 iyun

AĞLI BAŞDAN ALAN SƏS

Çağır məni, gəlim sənə qoşulum,
Səhər-səhər şah budaqda ötən quş.

Bülbülsənmi, qumrusanmı, quşsanmı,
Zümzüməylə axıb gedən susanmı,
Səsi qalxıb fələklərə yetən quş.

Bir anlığa kaş Süleyman olaydım,
Kəlmə-kəlmə anlayaydım dilini.
Bir biləydim oxuyursan nədən, quş?

Səs deyil ki, səsdə ruhdu oxuyan,
Sənsən yenə ağlı başdan alanım,
Mənəm yenə ağlı başdan gedən, quş!

Yalta, 2010, 23 iyun

DÖVRLƏR

Heç bir dövrdə
İnsan rahat olmayıb,
Keçib gedib qızıl dövrü,
Daş dövrü, tunc dövrü.
Dəniz kimi qabarıb, çəkilib,
Torpaq kimi şumlanıb, əkilib.
Olmayıb insanlığın
dinc dövrü,
Bütün əsrlər, qərinələr
Bəşərin faciəli,
insanın qorxunc dövrü.

Yalta, 2010, 23 iyun

DARIXMAQ NƏ ŞİRİN ŞEY İMİŞ, ALLAH!

Bu qədər darıxmaq nə imiş, Allah,
Darıxmaq nə şirin şey imiş, Allah.
Qəfildən burnumun ucu göynədi,
Nəvələr mənimçün nəvə deyilmiş,
Qəlbimdə sızlayan ney imiş, Allah!

Darıxmaq nə şirin şey imiş, Allah,
Səni darıxdıran nəvələr ola.
Əlin yetişməyə, ünün çatmaya,
Nə bir soraq çıxa, nə xəbər ola.

Onlar da mənimçün darıxır indi,
Məni səsləyirlər, soraqlayırlar.
Bir-bir kitablarda şəklimə baxıb
Şeir dəftərimi varaqlayırlar.

Yəqin ki, ucalıb indi boyları,
Hərəsi uzanıb bir darı boyda.
Məni görən kimi hoppanacaqlar,
Bizim evimizin hasarı boyda.

Uzun ayrılıqlar könül qırmasın,
Sonluq gözəl olsun hər səfər üçün.
Allah heç bir kəsi darıxdırmasın,
Darıxan darıxsın nəvələr üçün.

Yalta, 2010, 24 iyun

BİZDƏN NƏ QALACAQ

Bülbüllər insandan qabağa düşüb,
Bütün nəğmələri oxuyub gedib.
Allahın əliylə yaşıl çəmənlər,
Bütün xalıları toxuyub gedib.

Qara qarışqalar qara torpağı,
Bizdən qabaq əkib, dən götürüblər.
Bizdən əvvəl uçub uca göylərə,
Qartallar meydanı gen götürüblər.

Çiçək dəstə-dəstə, gül tabaq-tabaq,
Hər arı özünə bir şan bağlayıb.
Adəmnən irəli, Həvvadan qabaq,
Arı bal eşqinə dastan bağlayıb.

Baxıram səhranın genişliyinə,
Nələri görürəm qumda, nələri.
Səhra dastanını nə gözəl yazıb,
Bu qum zərrələri, qum dənələri.

Dünyanın bu qədər zənginliyinə,
Nizami mat qalıb, Homer mat qalıb.
İnsan nə yaradıb uçub dağılıb,
Allah nə yaradıb salamat qalıb.

Oğulsan hava çal, təzə görünsün,
Bütün havaları çalıb gediblər.
Ölməzdi, itməzdi ozan Dədələr,
Tarixin yadında qalıb gediblər.

Ağılla, idrakla insan oğlunu,
Doydurub gediblər, doyub gediblər.
Bütün xəzinələr dahilərindi,
Bizləri əliboş qoyub gediblər.

Bizim getdiyimiz cığırın, yolun,
Harda qurtaracaq sonu, bilmirəm.
Tanrı töhfəsidi bizə qalanlar,
Bizdən nə qalacaq, onu bilmirəm.

Yalta, 2010, 25 iyun

SƏNSİZLİK – QORXU

Hər səhər Günəş doğur,
hər səhər Günəş batır,
Nə Ay könül oxşayır,
nə gün könlümə yatır.
Nə doğan gün məni
yuxudan oyadır,
Nə batan gün mənə
yuxu gətirir.
Nə yoxsan yanımda,
Sənsizlik adama
qorxu gətirir.

Yalta, 2010, 22 iyun

MƏN SƏNİN OLDUM

Dalğa dənizindi,
çiçək çəmənin,
Ruh canın payıdı,
nəfəs bədənin,
Millət şairindi,
şair Vətənin,
Nə yaxşı, nə yaxşı
mən sənin oldum.

Qanım nəslimindi,
canım torpağın,
Möhtacı deyiləm
beş arşın ağın.
Yaşıl ağacında
yaşıl yarpağın,
Sarı sünbülündə
bir dənin ollam.

Araya uçurum,
dərə salmadı,
Xeyrə yol göstərdi,
şərə salmadı.
Yaradan sözümü
yerə salmadı,
Vətən deyə-deyə
Vətənin oldum.

Yalta, 2010, 26 iyun

MƏSLƏHƏT

Dərmana ümid olma,
Həkimə bel bağlama.
Bir yerin ağrıyantək
Uşaq kimi ağlama.
Özün ol həkimin,
Özün ol dərmanın.
Qorxma ölməyəcəksən,
Tanrıdan gəlməsə fərmanın.
Bir az əlli tərpən,
Bir az əməlli tərpən.
Əzrayılı yolundan saxla,
Əcəli ləngit,
Ölümü qabaqla!

Yalta, 2010, 26 iyun

YADDAŞDAN YADDAŞA

Qələmlə dost olan
ilk gündən bəri,
Qələmin yaşına
güvənmişəm mən.
Bayatı qoruyan,
dastan yaşadan,
Elin yaddaşına
güvənmişəm mən.

Yazın qayaların
qırışlarına,
Yazdırın, hər daşa
köçürün məni.
Kitabdan kitaba
köçürmək azdı,
Yaddaşdan yaddaşa
köçürün məni.

2010, 27 iyun

ANA SEVİNƏNDƏ

Quruyur, kəsilir gözdəki yaşlar,
Dayanır qırğınlar, kəsir savaşlar.
Sevincin önündə əyilir başlar,
Ana sevinəndə Allah sevinir.

Qanqal çiçək olur, tikan gül olur,
Durna qanadından dərd yüngül olur.
Dünya bir can olur, bir könül olur,
Ana sevinəndə Allah sevinir.

Yuyulur tərtəmiz suçlar, günahlar,
Çəkilmir tətiklər, atmır silahlar.
Sevən könülləri göynətmir ahlar,
Ana sevinəndə Allah sevinir.

Duyur hər sevilən baxışı göylər,
Vurur gözəlliyə naxışı göylər,
Vaxtında yağdırır yağışı göylər,
Ana sevinəndə Allah sevinir.

Bu hissə qəlbimi verib duymuşam,
Sevinci gül kimi dərib duymuşam.
Neçə yol gözümlə görüb duymuşam,
Ana sevinəndə Allah sevinir.

Həyat nə nifrətdir, nə kindir, oğlum,
Sevgi ən müqəddəs bir dindir, oğlum,
Oğulsan Allahı sevindir, oğlum,
Ana sevinəndə Allah sevinir.

2010, 13 iyul

HƏLƏ BU DÜNYAYA

Yalanı doğrayan,
böhtanı deşən,
Qılınc sözlərim var,
ox sözlərim var.
Qanı bağışlayan,
davanı kəsən,
Gözü də, könlü də
tox sözlərim var.

Dəydi kürəyimə
Allahın əli,
Çox şükür, sevgidən
olmadım dəli.
Özünü yormasın
şeytan əməli,
Haqqa arxalanan
haqq sözlərim var.

Tilsimli qalatək
sirr saxlamışam,
İlhamı qəlbimdə
gur saxlamışam.
Hədəfə vurmağa
yer saxlamışam,
Hələ bu dünyaya
çox sözlərim var.

2010, 12 iyul

KİTABIM

Kitablar kitabı
vermişəm sənə,
Çəkinmə, ürəklə
aç kitabımı.
Sandıqda saxlama,
hücrəyə qoyma,
Duyan könüllərə
saç kitabımı.

Başa düş, dərk eylə,
divanə keçmə,
Gör necə alışır pərvanə,
keçmə.
Bir sətrin yanından
biganə keçmə,
Oxu kəlmə-kəlmə,
keç kitabımı.

Sağlam bir düşüncə,
saf fikir olar,
Oxuyan çevrilər
ocaq, pir olar.
Mənim dediklərim
mində bir olar,
Min kitab içində
seç kitabımı.

Bir incə mətləbdi,
bir köklü sazdı,
Bir şair qələmi
yazdıqca yazdı.
Onu kitab kimi
oxumaq azdı,
Çeşmə sularıtək
iç kitabımı.

2010, 13 iyul

OLAR

Üfüqlərə boylanarsan,
Eşqin dağlar aşan olar.
Dağ çayını dinləyərsən,
Qanın aşıb-daşan olar.
Gözəlliyə sevinərsən,
Qəlbində toy-nişan olar,
Qara bulud,
dərin sükut,
Ölmüş umud
qəm gətirər.
Ulduzlara boylanarsan,
İçərin kəhkəşan olar.

2010, 16 iyul

ŞAİR DAĞ ÇAYIDI

Şair dağ çayıdı,
başı bəlalı,
Özünü o daşa,
bu daşa çırpar.
Olmaqçün dünyanın
dərdindən halı,
Başını tarixə,
yaddaşa çırpar.

Vətən Məcnunudu,
safdı, dəlidi,
Millətin bayraqtək
qalxan əlidi.
Şairə öz xalqı
"can" deməlidi,
Yaxın istəməsə,
yad daşa çırpar.

Sevinir yetirib
bitirəndə xalq,
Ağlayır çiyninə
götürəndə xalq,
Böyük istedadı
itirəndə xalq,
Bir dizə çırpanda
beş başa çırpar.

Kislovodsk, 2005, 17 iyul

ŞAİR YATMIR

Şair yatmır gecələr,
Yatanların dərdini,
Yığıb canına çəkir.

Şair yatmır gecələr,
Kağız su çəkən kimi,
İnsan ağrılarını,
Bir-bir qanına çəkir.

Şair yatmır gecələr,
Sözlə sözü-söhbəti,
Xoruz banına çəkir.

Şair yatmır gecələr,
Dan yerindən rəng alıb,
Şirinə xına çəkir.

2010, 2 iyul

ŞEİRİM MƏNİM

Arzunun işığı,
ümidin yaraşığı,
Eşqin dadı,
ruhun qanadı,
Ürəyin səsi,
dodağın nəğməsi,
Damarın qanı,
sevginin dastanı,
Qələmin mürəkkəbi,
şairin təbi,
Üfüqlərin nuru,
zirvələrin qüruru,
Tanrının üzü,
Allahın sözü,
Sənə bağlıdı,
Birim mənim,
Pirim mənim,
şeirim mənim!

2010, 4 iyul

O DA BİR AXŞAM İDİ

Arı gülə, bal dilə
sarışmışdı o axşam,
Küsənlər, küsdürənlər
barışmışdı o axşam.
Yerlə göy bir-birinə
qarışmışdı o axşam,
Heç bilmədim yerimiz
saray idi, dam idi,
Keçdi-getdi ömürdən,
o da bir axşam idi.

Bir gözəl sevdasına
gəldi bir bəndə düşdü,
Ruhum bəndə düşəndə,
eşqim kəməndə düşdü.
Yayıldı bu səs-soraq,
şəhərə, kəndə düşdü,
Göz bir atəş qaynağı,
can əriyən şam idi,
Keçdi-getdi ömürdən,
o da bir axşam idi.

Sevgidə mənim kimi
bir qəlbi ac var idi,
Başımda gənclik adlı
qızıldan tac var idi.
Yaşıl cənnətim olan,
yaşıl ağac var idi,
Yerlər, göylər şairin
ilhamına ram idi,

Keçdi-getdi ömürdən,
o da bir axşam idi.

Aşılmaz zirvələr var,
sədləri yarmaq olmur,
Zaman sirli-soraqlı,
sonuna varmaq olmur.
Heyif ötən günlərə,
geri qaytarmaq olmur,
İşıq, mərhəmət idi,
hörmət, ehtiram idi,
Keçdi-getdi ömürdən,
o da bir axşam idi.

Göyərçin qanadıydı,
incə, zərif biləklər,
Bir gözəl nəfəsində
məst olmuşdu çiçəklər.
Butamı göy üzündən
göndərmişdi mələklər,
Bu dünya başdan-başa
sevgi dolu cam idi,
Keçdi-getdi ömürdən,
o da bir axşam idi.

2010, 10 avqust

ÖZÜNÜ GÖZLƏ

Yel gücü, sel gücü qorxulu deyil,
Tufan yıxdığını insan qaldırar.
Sən elin gücündən özünü gözlə,
Ürəkdə, beyində tufan qaldırar.

Yumruqla, nifrətlə, qəzəblə, kinlə,
Qalxan qasırğadan özünü gözlə.
Çöllərin düzündə gözünü deşən,
Quzğundan, qarğadan özünü gözlə.

Xalq səndən üzünü döndərsə, heç nə,
Dönürsə, deməli, yaman dönəcək.
Taxtı silkələsə, şah yıxılacaq,
Vaxtı silkələsə, zaman dönəcək.

2010, 12 avqust

KASIBIN BAZARLIĞI

Hesabı bilənlər çox gözəl bilir,
Nə ucuz satıldı, nə baha qaldı,
Ən çox ucuzlaşan insandır, ancaq
Yenə də od baha, su baha qaldı.

Yoldular tükünü, qaldı dərisi,
Saraldı xanımı, soldu pərisi,
Nə malı tapıldı, nə müştərisi,
Yenə kasıbınkı Allaha qaldı.

Əlləri tutanı gözü tutmadı,
Pisə pis deməyə üzü tutmadı,
Onun bu bazarla sözü tutmadı,
Onun bazarlığı sabaha qaldı.

2010, 15 avqust

MİN GÜLÜN İÇİNDƏ

Bu vətən güllərin cənnət bağçası,
Min gülün içində bir gülü mənəm.
Rəngi saralmayan, ətri solmayan,
Nəfəsi nur saçan tər gülü mənəm.

Qurulub ruhumun binası sözdən,
Vurulub daşımın xınası sözdən,
Yapılıb şeirimin cinası sözdən,
Qalası qüdrətdən hörgülü mənəm.

Canın içindəki təni göstərin,
Torpağı, toxumu, dəni göstərin.
Havalı desələr, məni göstərin,
Vergili desələr, vergili mənəm.

ŞAİRLƏR

Bir qələm, bir dəftər,
bir söz, bir masa,
Qismətinə düşər,
baxtına düşər.
Fikri buludlara
atar kəməndi,
Eşqi ucalığın
taxtına düşər.

Yük ağır, yol çətin,
mənzil tükənməz,
Çətin səfərlərin
başlanması var.
Şöhrət zirvəsini
fəth edənlərin,
Şöhrətsiz tərəfdən
daşlanması var.

Şöhrət ucaldıqca
düşmən çoxaldı,
Xəbislər yerində
yata bilmədi.
Fırtına, qasırğa,
tufan, zəlzələ,
Şair sevgisinə
bata bilmədi.

İstər zindana sal,
istər güllələ,
İstər sürgün eylə,
susdurmaq olmur.

Şairi asırlar dar
ağacından,
Şeirini, sözünü
asdırmaq olmur.

Göydə axtarırlar,
yerdəyəm deyir,
Yerdə axtarırlar,
göydəyəm deyir.
Ruh kimi bir yerdə
tutmayır qərar,
Nəfəsdə, nəğmədə,
neydəyəm deyir.

Bütün silahlılar,
bütün silahlar,
Söz adlı silaha
məğlub olacaq.
Bir gündə min cildə
girsə də şeytan,
Axırda Allaha
məğlub olacaq!

Şairlər yumacaq
şeytan ağzını,
Şairlər ötəcək
şər qapısını.
Şairlər qalxacaq
uca dərgaha,
Şairlər açacaq
ər qapısını.

2010, 17 avqust

BİR QADIN YAŞADI

Qəbir daşında yazı.
Münəvvər xanımın xatirəsinə

Bir qadın yaşadı bu yer üzündə,
Ruhu, zərifliyi gül-ipək kimi.
Xətrinə dəymədi qarışqanın da,
Dolandı bir pəri, bir mələk kimi.

Xeyirxah qadındı, mehriban ana,
Yandırdı bağrını dərd xana-xana.
Dözmədi ağrının ağırlığına,
Soldu şaxta vurmuş bir çiçək kimi.

Çəkdiyi zəhmətdi, gördüyü acı,
Qadındır hər evdə başların tacı.
Ruhuna min rəhmət, Münəvvər bacı,
Uçdun əlimizdən kəpənək kimi.

2010, 18 avqust

BABƏKİN BAŞDAŞINDA YAZI

Nə yatdım, həyatda nə yuxu görəm,
Tanrı varlığımı şikəst eylədi.
Mənim pak ruhumu sağlam yaratdı,
Mənim bədənimi şikəst eylədi.

Doğuldum, adıma Babək dedilər,
Şöhrət verəmmədim o böyük ada.
Mənim taleyimi, mənim baxtımı,
Kövrək xatirətək gətirin yada.

Hamıya sağlamlıq arzularam mən,
Heç kəsin canına dəyməsin qada.
Heç kəsin balası göz görə-görə,
Şikəstə dönməsin qoca dünyada.

2010, 30 iyul

GƏL

Açıqdır qapıları,
Könlümün evinə gəl.
Mən sevinc bəxş edənəm,
Sevinə-sevinə gəl.

2010

YAPIŞIB QALARDIM YERDƏ DAŞ KİMİ

İlahi! Göyləri çox görmə mənə,
Günəşin nurunu əlimdən alma.
Qoy başı ucalsın göylərə dəysin,
Şair qürurumu əlimdən alma.

Göyün yaddaşına həkk eylə məni,
Möhürüm üfüqlərə basılı qalsın.
Qəndillər tavandan asılan kimi,
Ruhum göy üzündən asılı qalsın.

Mən orda tapmışam ucalıqları,
Mən Allah deyəndə göyə baxmışam.
İndi bir sirr kimi açılır mənə,
Altmış il göylərə niyə baxmışam.

Yapışıb qalardım yerdə daş kimi,
Fikrin alovunu buraxmasaydım.
İçimdə bir ulduz yanmazdı mənim,
Göydə ulduzlara çox baxmasaydım.

2010, sentyabr,

HEÇƏ DÖNÜR İNANCIMIZ

Ağrı cana asan gəlir,
Ağrı candan çətin çıxır,
Yun daraqdan ayrılantək,
Sümüyündən ətin çıxır.

Ümidini kəsir haqdan,
Taxta çıxan enir taxtdan,
Hamı keçir bu sınaqdan,
Mində biri mətin çıxır.

Heçə dönür inancımız,
Kəsmir ürəkdə sancımız.
Axır günə qazancımız,
Beş arşın ağ, sətin çıxır.

2010, sentyabr,

EYLƏDİ

Bulaqlar ağlımı başımdan aldı,
Suları titrədi, göz-qaş eylədi.
Gözəllər üstünə yığılan günü,
Məni də gözündə bir daş eylədi.

Çiçəklər Günəşə göz vuran pəri,
Ulduzlar göylərin naxışı, zəri.
Allahın ilahi gözəllikləri,
Çaşdırdı çoxunu çaş-baş eylədi.

Bir dağın gözündən axan yaşları,
Sehrə, gözəlliyə əydi başları,
Çınqıl qayaları, çopur daşları,
Çevirdi, gözümdə daş-qaş eylədi.

Tanrı duaları deyir təbiət,
Nurunu dağlara yayır təbiət,
Təbiət şairdi, şair təbiət,
Məni də özünə sirdaş eylədi.

2010, sentyabr

DƏRDİNƏ ŞÜKÜR

Sınaq imtahanı verirəm ömrə,
Bilmirəm nə qədər çəkər bu sınaq.
Ağrı bir kotandı, can qara torpaq,
Sinəmi şum kimi əkər bu sınaq.

Gizlədə bilmirəm ağrılarımı,
Yaramın üstünü örtə bilmirəm.
İllərlə üst-üstə qalanan qəmin,
Yükü çox ağırdı, darta bilmirəm.

Bu su harda batıb bu vaxta qədər,
Gözlərin çeşməsi, arxı var imiş.
İnsan yaşlananda yadına düşür,
Ölüm görkəmində qorxu var imiş.

Mənim ürəyimi aç kitab kimi,
Qəlbimdən keçəni oxu, İlahi!
Sevincim yox olub baxışlarımdan,
Sən özün var eylə yoxu, İlahi!

Hörmətə mindirib məni gələn dərd,
Məni bir dərd əhli sayıbdı Tanrım.
Şikayət eləsəm dərdin əlindən,
Babam Füzulidən ayıbdı, Tanrım.

Şair dodağına giley yaraşmaz,
Ver, verə bildikcə dərdinə şükür.
Dərdə kişi kimi xoş gəldin deyən,
Zəlimxan adında mərdinə şükür!

2010, 4 noyabr

ƏVƏZƏ ƏVƏZ

Ömrümün barlı bir bağ-bostanı var,
Arası kəsilmir daş atanların.
Görəsən Allahdan xəbəri varmı,
Qəlbində şeytanı yaşadanların.

Kinlə, küdurətlə kim daş atıbsa,
Sevgimlə o daşı aş eyləmişəm.
Qoyub o nifrəti ayağım altda,
Sevgimi hər şeydən baş eyləmişəm.

Üzümün nurunda gizlətdim qəmi,
İçimdən çürütdü bu dərdlər məni.
Dedi-qoduların oduna yandım,
Rahat buraxmadı namərdlər məni.

Mən Allah yolunu tutum əzəldən,
Ondan güc gəlirsə boşuna gəlmir.
Heyf ki, Allahın xoşuna gələn,
Heç yerdə şeytanın xoşuna gəlmir.

Zirvəyə çıxmağım asan olmadı,
Yoxuşlar dizimi apardı getdi.
Ətimdən ət kəsdi qarayaxmalar,
Ömrü parça-parça apardı getdi.

Nə qədər fürsətlər çıxıb əlimdən,
Bir gün də canımdan nəfəs çıxacaq.
Bir vaxt sevindirdi bu dünya məni,
Bir gün qəmləndirib əvəz çıxacaq.

2010, 5 oktyabr

İMZALA FƏRMANI

Bu ağrı nə qədər çəkəcək görən,
Beş ilmi, on ilmi, yüz ilmi, Allah.
Ucuz ölümünü nə baha satdın,
Mənə nə çox gördün bu zülmü, Allah.

Ver şələ-şüləmi, yola sal məni,
Bağla barxanamı, yığışdır gedim.
Onsuz da dünyaya mən sığışmadım,
Məni bir tabuta sığışdır, gedim.

Səbrin sərhədini itirir insan,
Demə ki, səbir eylə, səbir yaxşıdı.
Ağrılar üzünü bozardan zaman,
Vallah, çarpayıdan qəbir yaxşıdı.

Bir ömrü nə qədər xərcləmək olar,
Gah toya paylandı, gah vaya getdi.
Böyük arzuları döndərib külə,
Göylərə sovruldu, havaya getdi.

Qoyma üzülməyə, qoyma sınmağa,
Görsün öz işini ölüm, qurtarım.
Onsuz da mən sənə qovuşmalıyam,
İmzala fərmanı, gəlim, qurtarım.

2010, 6 oktyabr

ŞAİR QAPISI

Şair qapısını ürəklə açın,
Hər sabah bu qapı xeyrə açılır.
Şair qapısına dönən ağacın,
Nəfəsi nəğməyə, şeirə açılır.

İsti nəfəsləri canına çəkdi,
Tez-tez açılmaqdı istəyi onun.
Bağlı qalacaqsa kimə gərəkdi,
Qızıldan olsa da dəstəyi onun.

Bu qapı güldürən, bu qapı gülən,
İstər payız açın, istər yay açın.
Tək qanad açılsa, darıxar insan,
Qorxmayın, siz onu taybatay açın.

Bağlı qapılara, kar otaqlara,
Ana şeirimizin özülü gəlməz.
Bircə gün qapını bağlı saxlasam,
Bizim evimizə Füzuli gəlməz.

Açıq qapıların ürək dostudur,
Könül sultanları, könül şahları.
Can içində candı, nur içində nur,
Fikir tanrıları, söz allahları.

Həmişə qərq olar qaranlıqlara,
İşığın üzünə örtülən qapı.
Ömründə bir qonaq üzünə gülməz,
Zorla aralanan, dartılan qapı.

Şair qapısını ürəklə açın,
O evdə dahilər, adilər yaşar.
Orda Nəsimilər, Şah Xətailər,
Cavidlər, Vurğunlar, Hadilər yaşar.

Şair qapısını ürəklə açın,
Hər sabah bu qapı xeyrə açılır.
Şair qapısına dönən ağacın,
Nəfəsi nəğməyə, şeirə açılır.

2010, 7 oktyabr

HAZIR OL, KÖNÜL

Sən möhkəm adamsan, özünü şax tut,
Əzilib-büzülmək yaraşmaz sənə.
Qəmli fikirləri qəmdən uzaq tut,
Cərgədən üzülmək yaraşmaz sənə.

Bu dünya belədi, yaratdığına
Həmişə dərd verib, azar verəcək.
Dünən beşik verdi uyumaq üçün,
Sabah yatmaq üçün məzar verəcək.

Cərrah bıçağına canın öyrəşib,
Cəllad qılıncından özünü gözlə.
Şöhrətin tacını başına qoydun,
Zillətin tacından özünü gözlə.

Birdən xəyalını iblis çaşdırar,
Aldanma iblisə, ayıq ol, könül.
Böyük şöhrətlərə layiq olmusan,
Düşsən, uçuruma da layiq ol, könül.

Sevincə xoş gəldin dediyin kimi,
Dərdə də xoş gəldin deməyi bacar.
Sevinci bal bilib yediyin kimi,
Dərdi də bal kimi yeməyi bacar.

Kədərə qul olma, ağrıya nökər,
Şah ol, sərkərdə ol, vəzir ol, könül.
Xırda ağrılardı bu gördüklərin,
Böyük ağrılara hazır ol, könül.

2010, 8 oktyabr

DÜNYA ÖZ DƏRDİNİ ÇƏKƏNƏ VERİR

Sarayı daşıyıb, damı çəkəmmir,
Yanmışı, bişmişi, xamı çəkəmmir,
Dünyanın dərdini hamı çəkəmmir,
Dünya öz dərdini çəkənə verir.

Gözdə yaş, kirpikdə nəmdi sovqatı,
Həmişə sevincdən kəmdi sovqatı,
Ahdı hədiyyəsi, qəmdi sovqatı,
Dünya öz dərdini çəkənə verir.

Dərd onu sevəni çəkir yanına,
Dözəmmir hər oğul Nuh tufanına.
Palıd ildırımı çəkir canına,
Dünya öz dərdini çəkənə verir.

Dərdi paltar kimi geyir, daşıyır,
Dərdi çörək kimi yeyir, daşıyır,
Peyğəmbər daşıyır, şair daşıyır,
Dünya öz dərdini çəkənə verir.

Ağrılar qəddini bükən nə çəkir,
Yaralar bağrını sökən nə çəkir,
Çəkməyən nə bilsin çəkən nə çəkir,
Dünya öz dərdini çəkənə verir.

Heç vaxt biganəyə el yükü vermir,
Kərəm olmayana kül yükü vermir,
Heç vaxt qarışqaya fil yükü vermir,
Dünya öz dərdini çəkənə verir.

2010, 10 oktyabr

ŞAİRİN SÖZÜ

Fərman padşahındı, dağlar bizimdi.
Dadaloğlu

Bir söz sultanını dara çəkdilər,
Əfşar ellərindən qopdu bu səda.
Şairi nə qədər endirsələr də,
Sözdən yuxarıda nə var dünyada.

Dahi zamanları nura bələdi,
Qaldı damaqlarda "Xəmsə"nin dadı.
Min şah bir ölkədə şahlıq eylədi,
Bir şair şöhrəti qazanammadı.

Şairi axtarar şairin gözü,
Dar gündə harayla, çağır – gələcək.
Bütün zamanlarda şairin sözü,
Şaha fərmanından ağır gələcək.

2010, 12 oktyabr

AZƏR TURANA TƏSƏLLİ

25 yaşında həyatdan gedən gənc alim, idrak və təfəkkür sahibi, hər söhbətində məni heyrətləndirən Əbil Əbilovun vaxtsız ölümünə, unudulmaz xatirəsinə

Onun ürəyinə, onun qəlbinə,
Əcəlin qılıncı tez dəydi, Azər.
Dərdin əllərində dağlandı sinə,
Ona nəzər dəydi, göz dəydi, Azər.

Getməz qulağımdan mehriban səsi,
Sənin qardaşoğlun, mənim balamdı.
İyirmi beş yaşında ruh sərkərdəsi,
Yıxılan dağımdı, uçan qalamdı.

Mən onu görəndə dilində Allah,
Əlində müqəddəs Quran görmüşəm.
Nurlu gözlərində ən uca dərgah,
İşıqlı qəlbində Turan görmüşəm.

Yazmaq istəyirəm, əlim bürüşür,
Tale niyə belə tərs yazı yazdı.
Müşfiqlə Cabbarlı yadıma düşür,
O boyda istedad çox yaşamazdı.

Baban Azərbaycan ağsaqqalıdı,
Belini sındırdın, qəddini əydin,
Onu ki hamıdan çox istəyirdin,
Bəs niyə sən onun xətrinə dəydin.

Nöqtəsi qoyuldu, demək, bu ömrün,
Göz yaşı oldusa göl, Əbil balam,

Dəyməmiş töküldü meyvə budaqdan,
Nə yaman tez əsdi yel, Əbil balam.

Gördüyün işləri savab gözləyir,
Tarix suallara cavab gözləyir,
Səndən təzə-təzə kitab gözləyir,
Böyük Çöl dediyin çöl, Əbil balam.

İpəyim, mələyim, təmizim, xasım,
Mələk itirmişəm, ağırdı yasım,
Gəl səni təzədən bağrıma basım,
Özün aç qolunu, gəl, Əbil balam.

Qayıqdır çevrilən, gəmidir batan,
Dağlara dağ çəkir torpaqda yatan,
Tünzalə anandı, Etibar atan,
Dərdini onlarla böl, Əbil balam.

2010, 5 avqust

AĞSAQQAL AĞISI

Böyük ziyalımız, ağsaqqal alimimiz, müdrik dostum İmamverdi Əbilovun əziz və istəkli nəvəsi Əbil Əbilovun vaxtsız vəfatından dərin sarsıntı keçirdim. Heç bir sözlə, heç bir şeirlə, heç bir təsəlli ilə bu itkinin yerini doldurmaq, bu yaranı sağaltmaq mümkün deyil. Çünki biz sadəcə bir gənc insanı deyil, həm də gələcəyin böyük alimini itirmişik. Gücüm ancaq başsağlığına, göynərtili misralara çatdı.

Başın sağ olsun, İmamverdi müəllim!

Yapışır insanın ayaqlarından,
Qoymur yeriməyə, ağrı daş olur.
Əcəl yetişəndə heç nəyə baxmır,
Ürəyi buz olur, bağrı daş olur.

O bir dəyirmandı, durmaz, dayanmaz,
İnsanı dən kimi üyüdər gedər.
Döndərər sevinci qum dənəsinə,
Dərdi dağlar kimi böyüdər gedər.

Bir ömrün kitabı bağlanır tamam,
Sonuncu mənzilə, evə gedəndə.
Dağdan tüstü çıxır, daşdan qığılcım,
Babanın çiynində nəvə gedəndə.

Dilində bayatı, dilində yanğı,
Qəlbində ən ağır dərd daşıyarsan,
Çox dərdlər görmüsən bu vaxta qədər,
Elə bu dərdi də mərd daşıyarsan.

Sən imam övladı, el ağsaqqalı,
Bilirsən dünyanın işini, Dədə!

Yolunu kim kəsib bu vaxta qədər,
Kim qırıb əcəlin dişini, Dədə!

Kimin sinəsinə vurmayıb yara,
Kimi boğazından çəkməyib dara,
Bu dünya beş gündü, beşi də qara,
Kimə ağ göstərib beşini, Dədə!

Ölümlə döyüşdə meydanımız dar,
Ha çağır, fələyin qulaqları kar.
Sizin qapınıza yayda yağdı qar,
Gördük təbiətin qışını, Dədə!

Bir damla sevincə könül lələkdi,
Ürək ağrılardan dəlik-dəlikdi.
Yenə təsəllimiz mərdanəlikdi,
Yenə uca saxla başını, Dədə!

Bir ömür yaşadın, üzün ağ olsun,
Əyilməz qəddin var, yenə dağ olsun,
İxtiyar çağında başın sağ olsun,
Çatma bu vaxtında qaşını, Dədə!

2010, 18 avqust

KÖHNƏ KİŞİ

Xalq yazıçısı İlyas Əfəndiyevin ruhuna bağışlayıram

Təzələr içində təzədən təzə,
Köhnələr içində köhnə kişiydi.
Uca şəxsiyyəti, əsərləriylə
Tamaşa kişiydi, səhnə kişiydi.

Bahar sularıtək axırdı dili,
Çəmən qucağında çeşmə kimiydi.
Nəsrin şeiriyyəti Valeh dilində,
Bayatı kimiydi, qoşma kimiydi.

Fikrə, düşüncəyə, zehnə, yaddaşa,
Əlvan naxışları vurdu yaşadı.
Büllur saraylara tamah salmadı,
Könül sarayları qurdu yaşadı.

Onun əsərləri taleyimizdi,
Hey bizdən danışdı, hey bizdən dedi.
Kamran Borçalıdan söhbət açandı,
Şeyx Xiyabani Təbrizdən dedi.

Onun qələmində tariximiz də,
Tarixi ən kəskin ittiham da var.
Möhtəşəm hökmdar ucalığı da,
Məhv olmuş gündəlik, sönən şam da var.

Saçı zirvələrin qarına döndü,
Sarvantək daşıdı karvan dərdləri.
Onun qələmiylə dindi, danışdı
Qarabağ, Borçalı, Şirvan dərdləri.

Enişli-yoxuşlu həyat yolunda
Neçə dərə keçib, neçə dağ çıxıb.
Zaman sınağından təmiz, ləkəsiz,
Sənət sınağından üzüağ çıxıb.

Təzələr içində təzədən təzə,
Köhnələr içində köhnə kişiydi.
Uca şəxsiyyəti, əsərləriylə,
Tamaşa kişiydi, səhnə kişiydi.

AZƏRBAYCAN BAYRAĞI

Ruhdan, candan, imandan,
əqidədən yoğrulan,
Varlığı şəhidlərin
al-qanıyla doğrulan,
Adı haqqın adıtək
ucalardan çağrılan,
Azərbaycan bayrağı!

Sənin adını çəkən
dillər halal olmalı,
Səni göyə qaldıran
əllər halal olmalı.
Bayraq deyən dodaqda
söz dönüb bal olmalı,
Azərbaycan bayrağı!

Qətiyyətim, qeyrətim,
qələbəm, zəfərimsən,
Uğurlu sabahlara ən nurlu səfərimsən.
Savaşda cəsarətim,
döyüşdə təpərimsən,
Azərbaycan bayrağı!

Həm özü xoşbəxt olar,
həm yurdu, həm ölkəsi,
Səni candan sevənin
böyük olar kölgəsi.
Vətənə məhəbbətin
yox sərhədi, bölgəsi,
Azərbaycan bayrağı!
Səndə gücü birləşib
torpağın, dağın, daşın,

Səndə ruhu birləşib
haqq uğrunda savaşın.
Yağıların önündə
heç vaxt əyilməz başın,
Azərbaycan bayrağı!

Səhər vaxtı, dan üzü,
nur qaynağı, nur yeri,
Müjdə yeri, səs yeri,
səda yeri, sur yeri.
Dövlətin bel sütunu,
millətin qürur yeri,
Azərbaycan bayrağı!

Sən mənim taleyimin
göy, yaşılı, alısan,
Uzaq yollar gəlmişəm,
yollarımdan halısan.
Qarabağda, Şuşada
qələbə çalmalısan,
Azərbaycan bayrağı!

Əlli milyon ürəkdə
yüz milyon göz üstəsən,
Ən sağlam bir əqidə,
ən güclü söz üstəsən.
Odlar yurduna ünvan,
od üstə, köz üstəsən,
Azərbaycan bayrağı!

Hünərlə qəhrəmanlıq,
şərəflə şan bayrağı,
Göy üzünün aynası,
bir kəhkəşan bayrağı.
Duyğuların, hisslərin
aşıb-daşan bayrağı,
Damarda qan dalğası,
canımda can bayrağı,
Azərbaycan bayrağı!

2010, 19 noyabr

GÖZƏLSƏN

Qoşa xəlq eyləyib Yaradan sizi,
Dünya da gözəldi, sən də gözəlsən.
Ey dərya gözəli, ey su pərisi,
Dərya da gözəldi, sən də gözəlsən.

Dodağın duzludu, suyun sərindi,
Qorxuram batmağa, qoynun dərindi.
Dalğatək burulan hörüklərindi,
Dalğa da gözəldi, sən də gözəlsən.

Hər incə yerişin bir naz havası,
Hər şirin gülüşün bir saz havası,
Hər isti nəfəsin bir yaz havası,
Hava da gözəldi, sən də gözəlsən.

Nazlı mələk olub göyə çıxırdın,
Yerə də, göyə də yiyə çıxırdın,
Sən Allah, yuxumdan niyə çıxırdın,
Röya da gözəldi, sən də gözəlsən.

Təzəcə açılmış laladı dünya,
Atadı, anadı, baladı dünya,
Zəlimxan gözündə əladı dünya,
Əla da gözəldi, sən də gözəlsən.

2010, 9 dekabr

ŞEİRİM

Bağçalar dolanıb
bağlar gəzirdim,
Bülbülün dilində
duydum şeirimi.
Bülbül oxuyursa,
xoşbəxtəm, demək,
Gözümün üstünə
qoydum şeirimi.

2011, 1 yanvar

SÖZ

Döyüşən əsgərəm söz səngərində,
Mənim də sinəmin sipəri sözdü.
Söz mənim ruhumdu, söz mənim canım,
Ruhumun, canımın təpəri sözdü.

Ürəyin dərmanı, ruhun qidası,
Sevginin zirvəsi, eşqin nidası,
Tanrının göylərdən enən sədası,
Torpağa yetirən xəbəri, sözdü.

Könül dünyasının sərvəti, zəri,
Ruh adlı mələkdi, söz adlı pəri,
Nə çoxdu dünyanın şah əsərləri,
Allahın ən böyük əsəri sözdü.

2011, 3 yanvar

SEVGİLİMİ GÖRDÜNÜZMÜ

Söz demişəm, bircə sözdən
küsüb gedib,
Dəli səhra küləyitək
əsib gedib,
Son görüşdə son ümidi
kəsib gedib,
Kaş biləydim, indi yeri
dağmı, düzmü,
Ey səhralar, sevgilimi
gördünüzmü?

Taleyimin naxışıydı,
sonasıydı,
Həyat qədər həyatımın
mənasıydı,
Sularımın yaşılbaşlı
sonasıydı,
Kimə deyim, güman yerim
birmi, yüzmü,
Ey dəryalar, sevgilimi
gördünüzmü?

Şirin dillə taleyimə
yağ-bal çəkib,
Gah kiriyib, gah dillənib,
gah lal çəkib,
Əllərimin əvəzinə
sığal çəkib,
Yaz mehiylə saçlarını
hördünüzmü,
Ey küləklər, sevgilimi
gördünüzmü?

Yanaqları dan üzüydü,
dan yeriydi,
Dodaqları vermək üçün
can yeriydi,
Baxışları qırğın yeri,
qan yeriydi,
Oda düşən ruhmu, canmı,
əlmi, üzmü,
Ey sevənlər, sevgilimi
gördünüzmü?

Yanağı yaş, kirpikləri
nəm olacaq,
Ömrü-günü hicran dolu
qəm olacaq.
Deyirlər ki, vəhşilərə
yem olacaq,
Aman Allah, deyilənlər
görən düzmü,
Ey şübhələr, sevgilimi
gördünüzmü?

2011, 1 mart

MƏN BELƏ BAŞLADIM SAZI ÇALMAĞA

Gözümü açanda saz gördüm evdə,
Sazsız günlərimi az gördüm evdə.
Qəlbimə toxunub dəyən olmadı,
Sazın hesabına naz gördüm evdə,
Mən belə başladım sazı çalmağa.

Körpə beşiyindən saza baxırdım,
Evin eşiyindən saza baxırdım.
Bizi məclislərə buraxmırdılar,
Çadır deşiyindən saza baxırdım,
Mən belə başladım sazı çalmağa.

Varlığım, həyatım saz oldu mənim,
Təcnisim, bayatım saz oldu mənim.
Süpürgəm, yarmaçam, oxlovum, masam,
Körpə kainatım saz oldu mənim,
Mən belə başladım sazı çalmağa.

Çanaq düzəldirdim, qol bağlayırdım,
Saza bel bərkidib, bel bağlayırdım,
Kötüyün üstünə rezin çəkirdim,
Taxtanın üstünə tel bağlayırdım,
Mən belə başladım sazı çalmağa.

Söhbət atam oldu, söz anam oldu,
Bu yolda ustadım öz anam oldu.
Bezdi əllərimdən gilas ağacı,
Gilas qabıqları təzənəm oldu,
Mən belə başladım sazı çalmağa.

Qonuya-qonşuya aşıq gəlirdi,
Aşıq gələn yerə işıq gəlirdi.
Sazım olmayanda mənim dadıma,
Çömçə yetişirdi, qaşıq gəlirdi,
Mən belə başladım sazı çalmağa.

Haqq mənə sevgini əta veribdi,
Ana bağışlayıb, ata veribdi.
Dedilər Zəlimxan havalanıbdı,
Haqq ona saz adlı buta veribdi.
Mən belə başladım sazı çalmağa,
Mən belə başladım sazı çalmağa.

2011, 1 fevral

EŞQ

Eşq adamdan can istəyir,
Heç vaxt odu soyumayan
Canda qaynar qan istəyir.
Min illəri əvəz edən,
Bir müqəddəs an istəyir.
Eşq bir dəli köhlən atdı,
Onu yoldan saxlamayın,
Çapmağa meydan istəyir.

2011, 2 fevral

HAQQ EVİ

Şair gücü dağ kimidir,
Şeytan onu əyə bilməz.
Şair ruhu od-atəşdir,
Buzdan paltar geyə bilməz.
Şair ömrü əbədidir,
Zaman onu yeyə bilməz.
Şair qəlbi haqq evidir,
Allah heç vaxt öz evinin
Xatirinə dəyə bilməz!

2011, 2 fevral

EY EŞQİN ALLAHI

Ey eşqin Allahı, yaxşı bax mənə,
Məni bəndəliyə götürərmisən.
Mənim xəyalımı bir yaylıq kimi,
Yar gələn tərəfə ötürərmisən.

Səhranın sirdaşı küləkdi, qumdu,
Torpağın naxışı toxumdu, tumdu,
Mən qara kotanam, o qara şumdu,
Mən səpən toxumu bitirərmisən.

Gah zildə dil açar, gah da ki, pəsdə,
Hər gün sevənlərin qulağı səsdə.
O sənin yanında, mən yerin üstə,
Məni sevgilimə yetirərmisən.

2011 4 fevral

SƏNİN DODAQLARIN

Bir əsim mehdən də üşüyənəm mən,
İmkanın çatırsa üşütmə məni.
Oxşa deyirəmsə, bağrına bərk bas,
Yorğunam dedimsə, eşitmə məni.

Yanğım illərimin o tayındadı,
Əlli il əvvəldə uyuyur indi.
Ürəyim yenə də od parçasıdı,
Canımın alovu soyuyur indi.

Böyük sevgilərə inanıram mən,
O sönmür, sönsə də hər yanan ocaq,
Qəbrimin üstündə son duanı da,
Sənin dodaqların pıçıldayacaq!

2011, 4 fevral

ÖZÜNDƏN KÜS

Özündən küs, məndən niyə küsürsən,
Nə dildəsən, nə ağızda, nə dişdə.
Yandığını, söndüyünü görmədim,
Nə közdəsən, nə kababda, nə dişdə.

Yanğı yoxsa, səda olmur, ün olmur,
Buz ürəkdə kölgə olmur, gün olmur,
Bar-bəhrəsiz ömür olmur, gün olmur,
Nə sözdəsən, nə əməldə, nə işdə.

Tez açılıb, tez sönəndi baxtımız,
Gec qurulur, tez yıxılır taxtımız,
Bu dünyada beş-üç gündü vaxtımız,
Nə birdəsən, nə üçdəsən, nə beşdə.

Ölü gördüm, heç görmədim sağ səni,
Tanımadı dövran səni, çağ səni.
Xatırlamaz aran səni, dağ səni,
Nə yoldasan, nə yamacda, nə döşdə.

İnkar etdin hər məzhəbi, hər dini,
Daşımadın bir kimsənin dərdini.
Oynamadın bu dünyanın nərdini,
Nə yekdəsən, nə beşdəsən, nə şeşdə.

2011, 5 fevral

KİMSƏSİZ UŞAQ KİMİ

Səndən uzaqlarda günüm gün deyil,
Suya həsrət qalan dodaq kimiyəm.
Günəş gündüzümü qızdıra bilmir,
Gecələr qaranlıq otaq kimiyəm.

Doğma nəfəsinə ləliyəm, acam,
Közün ortasında qovrulan sacam.
Qürbətin şimşəyi vurmuş ağacam,
Sınıb yerə düşən budaq kimiyəm.

Ey qoynu gülüstan, qucağı cənnət,
Kimi qocaltmayıb dünyada həsrət.
Vətən cəsarətdi, qürbət əsarət,
Yad eldə kimsəsiz uşaq kimiyəm.

2011, 6 fevral

DÜRÜST OLMAQ

İnsanda taleyə bax,
Gah qaynadı, qabardı,
gah sustaldı, süst oldu.
Gah qara palçıq kimi,
Qaldı ayaqlar altda.
Gah mərmərə çevrilib
heykəl oldu, büst oldu.
Sevgiylə ucalanlar,
Qaldı ucalığında.
Zor gücünə qalxanın
sarayı alt-üst oldu.
O insanlar döndü ki, könüllər sultanına,
Hər işdə, hər əməldə,
hər sözdə dürüst oldu.

2011, 7 fevral

SULAR BULANIB

İndi demək çox çətindi,
Bir zaman çox olub
Təmizlər, halallar, saflar.
Həyatı həyat kimi yaşadıb
İmanlar, vicdanlar, insaflar.
İnsafı, imanı yandırıb,
Duru suları bulandırıb,
Xəbislər, nakişilər, əclaflar.

2011, 8 fevral

ALDADILMAQ QORXUSU

Buğdanı yesən –
cənnətdən atılmaq qorxusu var.
Allahdan ayrılıb
şeytana satılmaq qorxusu var.
Halaldan üzülüb
harama qatılmaq qorxusu var.
Bir dəfə aldandınsa,
Ömrün sonuna qədər
Aldadılmaq qorxusu var.

2011, 8 fevral

NƏYİMƏ YETMƏZ

Dərdim də, qəmim də yetərincədir,
Dünyanın azarı nəyimə yetməz.
Həyatla bu qədər alver eylədim,
Bu boyda bazarı nəyimə yetməz.

Sinəmə o qədər çəkilib ki, dağı,
Əridi, qalmadı gözümün yağı.
Bu qoca dünyanın beş arşın ağı,
Beş qarış bazarı nəyimə yetməz.

Ölümlə həyattək sağım, solum var,
Harda olum varsa, orda ölüm var,
Qəbir evinədək gedən yolum var,
Ömrün bu güzarı nəyimə yetməz.

2011, 9 fevral

MÜJDƏ GÖZLƏYİRƏM

Səhər-səhər hansı misralar
döyəcək qapımı,
Hansı şeir açacaq ürəyimi,
Hansı əsərim gələcək
nəşriyyatdan.
İlk kitabını gözləyən
gənc şair kimi,
Müjdələr gözləyirəm həyatdan!

2011, 26 mart

QAYALARIN HESABINA

Ürəyə, yaddaşa etibar etməyib,
Daşlara yazılan xatirələr.
Uca bir sevginin əsəridi,
Qayalar üstünə yazılan xatirələr.
Qayaların hesabına yaşayır,
Yaddaşdan pozulan xatirələr.

2011, 25 mart

QƏLBİMİN SAZ PƏRDƏSİ

Qışın vaxtı keçib getdi, tut indi yaz pərdəsini,
Xanəndə dost, aşıq qardaş, gəz xoş avaz pərdəsini.

Qarşıdan bir gözəl gəlir, yeli yengələr yıxacaq,
Dinlə qəlbindən keçəni, işə sal naz pərdəsini.

Elə bilsin cənnətini yarın qədəmində tapıb,
Hansı aşiq duya bilsə, o sərvinaz pərdəsini.

Olmasın eşqə qadağa, canımı verim sadağa,
Allahım məndən almasın nəzir-niyaz pərdəsini.

Mən mizrabı neyləyirəm, Zəlimxana bəsdi nəfəs,
O gözəlin əli çalsın qəlbimin saz pərdəsini.

2011, 28 mart

SON SÖZ SON NƏFƏS DEYİL

Ön söz başqa şeydi,
son söz başqa şey.
Ön sözün olmasa,
son sözün olmaz.
Ürəksiz, ilhamsız
min söz deyərsən,
Yaddaşda qalası
on sözün olmaz.

Əlini varaqdan
ayırma qəti,
Ön söz başlamaqdı,
son söz dayanmaq.
Şair qismətidi,
şair qisməti
Ön sözdə alışmaq,
son sözdə yanmaq.

Çəkir öz canına
işığı, zəri,
Sözlər fikirlərin
çələngi kimi.
Son söz də kövrəldir
saf ürəkləri,
Məktəb illərinin
son zəngi kimi.

Bir təzənə çəkdim
hər gümüş simə,
Səsim qulaqlardan
gedən səs deyil.
Mən nöqtə qoymuram
şeirlərimə,
Yazdığım son sözdü,
son nəfəs deyil.

MÜNDƏRİCAT

Z.Yaqub. Alın yazım, taleyim – yaradıcılığım 5
M.Nəbioğlu. Redaktordan.....46

Şeirimin doğum günü 50
Bizim çəkdiyimiz təzə dərd deyil.....52
Heyif 53
Köhnə havalar 54
Üzrü günahdan betər 55
Göz yaşım üzümdə arx açar indi 56
Fərhad külüngünün xatası yoxdu 57
Torba-corab 58
Bilməz, bilməz 59
Heyif.....60
Keçdi 61
Gələcəyəm.....62
Əsir söz.....63
Yarpaq.....64
Dəlidən doğru xəbər 65
Damcı yeri 66
Qaçqınlıq 67
Yerin qulaği 68
Yol vermə, gəmiçi 69
Zal məzarı.....70
Sözümə baxmır.....71
Xəlvət 72
Tanrım, məni bu meydanda təkləmə 73
Əzilmə 74
Nəvəm Yusifə 75
Aysu bala 77
Yusifim, Zəlimxanım.....78
Qoru bu torpağı 79
Ömrümüz.....80
Ömür.....81
Mənimki söz qəsri, söz qalasıdı 82

Cavan şair, qoca dağ....83
Səpilmişəm yaddaşlara....85
Gözəl ölüm....86
Bircə söz de....87
Yuva....88
Hamı bu şəhərə dipdiri gəlir....89
Bu sirri bir sən bil....90
Görək kim çıxacaq yaza bu qışdan....91
Uzaq gəzmə....92
Gedirəm....93
Göylər qızı....94
Şair bölgəli deyil....95
Çəkməsin....96
Dünyanın zor adamı....97
Aparsın....98
Gəlmisən....99
Çalma "müxəmməs"i, tezdi, ay aşıq....100
Dostun olmaq üçün gəldim dünyaya....102
Salamlar olsun....104
Şəhidlik....106
Sevgi dili....108
Qəmli fikirlərin bolluğundayam....109
Mənimki yazmaq....110
Olmadı....110
Düş bircə gün qürbətə....111
Zirvələrdən zirvələrə yol gedir....112
İnsan anlamır ki....113
Havası başqadı bu nəğmələrin....115
Ağrılar kök atar yanan ürəkdə....117
Ürəyim, ay ürəyim....118
Eh, bu qoca dəyirman....120
Ağrın alım....122
Dördlük....123
Təəssüf....124
Ruh bədəndə gözəldir....125
Xatirələrim....126
Qarışıq yuxular....128
Özümüz-sözümüz....129
Qaynar qazan....130

Heç olub gedir 131
Gəlir....133
Ürəyin ölümü....134
Təəssüf 135
Dəli şair 136
Mən sənə şair gözüylə baxıram....139
Daşlar kimi 141
Kəsdilər 142
Bəxt quşu hardadı hər başa qona....143
Böyük şairlərin böyük dərdi var....145
Azadlıq 146
Günah 147
Qorxuram 148
Rəhmət oxuyun 149
Göz qırpımı 150
Qanadlarım-ayaqlarım....151
Sözün həyatı 152
Allah vergi verəndi....153
Ümid....154

TÜRKÜSTAN–ANADOLU YOLLARINDA
Xeyir-dua ver....155
Sevgilər çox düşüb qara-borana 156
Qırğız qızı....157
Şəhər qocası....158
Qocalıq – yorğunluq....159
Nə yaxşı qiblə var....160
Yaxşı ki.. 161
Mənə səhəri verin 162
Quyu 163
Qorxu....164
Qafiyə 165
Teymurun vəsiyyəti 166
Əhməd Yəsəviyə Zəlimxan salamı....167
Dövlət atam, millət anam 169
Yol 171
Məndən salam olsun....173
Uçuşlar 174
Nə yaxşı....176